Xalqın qəzeti!

# Xalq qəzeti

№ 57 (31026) 7 aprel 2026-cı il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Azərbaycanla Gürcüstan dünən olduğu kimi bu gün də bir yerdədir, sabah da belə olacaq

## Azərbaycan Prezidenti İlham Əliyevin Gürcüstana dövlət səfəri

*Tbilisinin Beynəlxalq Hava Limanında qarşılanma*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 6-da Gürcüstana dövlət səfərinə gəlib.**

Tbilisi şəhərinin Şota Rustaveli Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Gürcüstanın xarici işlər naziri Maka Boçorişvili və digər rəsmi şəxslər qarşıladılar.

## Prezident İlham Əliyevin Gürcüstana dövlət səfəri ilə bağlı videoçarx paylaşılıb

**Azərbaycan Prezidenti İlham Əliyevin sosial media hesablarında Gürcüstana dövlət səfəri ilə bağlı videoçarx paylaşılıb.**

## Azərbaycan–Gürcüstan: yüksək səviyyəli diplomatiya



Səhifə ⇨ 5

## Multikultural harmoniyanın ünvanı: Bakı – Tbilisi



Səhifə ⇨ 6

## Bakı körfəzi üzərində avtomobil yolu



Səhifə ⇨ 10

## Qoca "Molla Nəsrəddin" yatmış Şərqi oyatmaq üçün gəlmişdi



Səhifə ⇨ 14

## Bakı – Lefkoşa: möhkəmlənən qardaşlıq körpüsü



Səhifə ⇨ 7

## Yaxın Şərq: zərbələr qisas dalğasını gücləndirir



Səhifə ⇨ 15

## Kremldə "ölüdiriltmə" cəhdi və Cənubi Qafqazda gerçəklik




Səhifə ⇨ 5

## Ölkənin xidmət qurumları gücləndirilmiş rejimdə çalışırlar

Səhifə ⇨ 11

## Dəməşqdə yeni diplomatik format



Səhifə ⇨ 15

# Prezident İlham Əliyev Tbilisidə Qəhrəmanlar Memorialını ziyarət edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva aprelin 6-da Tbilisidə Qəhrəmanlar Memorialını ziyarət ediblər.**

Qəhrəmanlar Memorialında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısı Memorialın önünə əklil qoydu.

Sonra Azərbaycanın və Gürcüstanın Dövlət himnləri səsləndirildi.

# Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib



Aprelin 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Tbilisidə Heydər Əliyev adına mədəniyyət və istirahət parkında xalqımızın Ümummilli liderinin abidəsini ziyarət ediblər.

Dövlətimizin başçısı abidənin önünə əklil qoydu.

# Prezident İlham Əliyevin rəsmi qarşılanma mərasimi





**Aprelin 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstanın paytaxtı Tbilisidə rəsmi qarşılanma mərasimi olub.**

Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Gürcüstan Prezidenti Mixeil Kavelaşvili Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.

Azərbaycanın və Gürcüstanın Dövlət himnləri səsləndirildi.

Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

# Azərbaycan və Gürcüstan prezidentlərinin təkbətək görüşü



**Aprelin 6-da Tbilisidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstanın Prezidenti Mixeil Kavelaşvili ilə təkbətək görüşü olub.**

Söhbət zamanı Azərbaycan-Gürcüstan ikitərəfli əlaqələrinin dostluq, mehriban qonşuluq və strateji tərəfdaşlıq prinsiplərinə əsaslandığı qeyd edilərək, əməkdaşlığın müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, energetika, yaşıl enerji, nəqliyyat, sərmayələr və digər sahələrdə uğurla inkişaf etdiyi bildirildi. Müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin münasibətlərimizin genişlənməsində roluna toxunuldu.

Azərbaycan ilə Gürcüstanın birgə həyata keçirdikləri nəqliyyat və enerji layihələrinin önəmi vurğulandı, onların strateji və iqtisadi əhəmiyyəti qeyd edildi.

Görüşdə Cənubi Qafqazda sabitliyin və təhlükəsizliyin təmin edilməsi baxımından Azərbaycanla Ermənistan arasında normallaşma prosesinin rolu vurğulandı.

Azərbaycan və Gürcüstan prezidentləri ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığından məmnunluqlarını bildirdilər, əlaqələrimizin perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi apardılar.



Görüşdən sonra dövlətimizin başçısı xatirə kitabına ürək sözlərini yazdı.

# Azərbaycan Prezidentinin və Gürcüstan Baş nazirinin təkbətək görüşü



Aprelin 6-da Tbilisidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə təkbətək görüşü olub.

# İlham Əliyevin İrakli Kobaxidze ilə geniş tərkibdə görüşü



Aprelin 6-da Tbilisidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə geniş tərkibdə görüşü olub.

# Azərbaycanın Prezidenti və Gürcüstanın Baş naziri mətbuata bəyanatlarla çıxış ediblər





**Aprelin 6-da Tbilisidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Kobaxidze mətbuata bəyanatlarla çıxış ediblər.**

**Əvvəlcə Gürcüstanın Baş naziri İrakli Kobaxidze bəyanatla çıxış etdi.**

## Baş nazir İrakli Kobaxidzenin bəyanatı



– Salam, Zati-aliləri cənab Prezident.

Hörmətli nazirlər.

Xanımlar və cənablar.

Media nümayəndələri.

Əvvəlcə Gürcüstanın əziz dostu cənab İlham Əliyevə Gürcüstana səfər etdiyinə görə səmimi təşəkkürümü bildirmək istəyirəm. Onun Gürcüstana gəlişi hamımız üçün xüsusi şərəfdir.

Cənab Prezident, Sizi Gürcüstanda qəbul etmək və həm ikitərəfli əməkdaşlığa aid məsələləri, həm də regiondakı cari prosesləri müzakirə etmək imkanından məmnunam. Mən bu fürsətdən istifadə edərək, Bütün Gürcüstanın Katolikos Patriarxı, Zati-müqəddəsləri II İlyanın vəfatı ilə əlaqədar Azərbaycanın və şəxsən Sizin verdiyiniz başsağlığına görə dərin təşəkkürümü bildirirəm.

Əsrlər boyu xalqlarımızı yaxşı qonşuluq və xüsusi tarixi dostluq bağlayıb. Bu, məntiqi olaraq, dövlətlərimiz arasında güclü strateji tərəfdaşlığı əks etdirir. Gürcüstan ilə Azərbaycan arasında münasibətlər müxtəlif istiqamətlər üzrə dinamik qaydada inkişaf edir. Biz bu prosesdə Sizin şəxsi səylərinizi və iştirakınızı xüsusi dəyərləndiririk. Mən, həmçinin həmin münasibətlərin inkişafında xüsusi rol oynayan nümayəndə heyətinin üzvlərinə, hökumət üzvlərinə və səfirlərə təşəkkür edirəm.

Mən Gürcüstanın suverenliyinə və ərazi bütövlüyünə Azərbaycanın verdiyi qəti dəstəyinə görə təşəkkürümü bildirmək istəyirəm. Gürcüstan öz müstəqilliyini bərpa etdikdən etibarən hər zaman Azərbaycanın milli maraqlarının, suverenliyinin və ərazi bütövlüyünün güclü tərəfdarı olub, hazırda tərəfdarıdır və gələcəkdə də tərəfdarı qalacaq. Bu gün keçirilmiş görüşümüz çərçivəsində, biz nəinki ikitərəfli münasibətləri, həmçinin bütövlükdə Cənubi Qafqaz regionunun gələcəyinə dair məsələləri təfərrüatı ilə müzakirə etdik.

Biz bu xüsusda Azərbaycan ilə Ermənistan arasında cari sülh prosesini alqışlayırıq. Gürcüstan dinc - yanaşı yaşamağı, konstruktiv əməkdaşlığı və regionda yeni təşəbbüsləri qəti şəkildə dəstəkləyir. Lazım olan təqdirdə biz hər zaman dialoqa və sülh proseslərinə şərait yaratmağa hazırıq. Cənubi Qafqaz ölkələri arasında əməkdaşlıq bütöv region üçün yeni perspektivlər açır. Qlobal geosiyasi dəyişikliklər, ümumiyyətlə, Orta Dəhlizin vacibliyini, o cümlədən Qara Dənizin və Cənubi Qafqazın strateji məkan kimi əhəmiyyətini daha da artırır.

Asiya ilə Avropanı birləşdirən körpü kimi ölkələrimiz daşımalarda mühüm rol oynayır. Bu baxımdan, biz nəqliyyat və logistika infrastrukturunun inkişafına və müasirləşdirilməsinə xüsusi önəm veririk. Gürcüstan ilə Azərbaycan dəfələrlə sübuta yetiriblər ki, biz beynəlxalq enerji və nəqliyyat layihələrində etibarlı və məsuliyyətli tərəfdaşlarıq.

Görüş zamanı biz, həmçinin ticarət və iqtisadi əməkdaşlıq perspektivlərini müzakirə etdik. Azərbaycan Gürcüstanın ən iri ticarət tərəfdaşlarından biri kimi qalır və həmçinin iqtisadi münasibətlərin artırılan sərmayələr sayəsində daha da dərinləşəcəyini gözləyirik. Biz yüksək səviyyədə dialoqu davam etdirməyə və müxtəlif sahələrdə əməkdaşlığı daha da dərinləşdirməyə hazır olduğumuzu ifadə etdik.

Əminəm ki, strateji tərəfdaşlığımız xalqlarımız və ölkələrimizin rifahı naminə uğurla inkişaf etməkdə davam edəcək. Prezidentin səfəri bu baxımdan mühüm rol oynayır.

Yekun olaraq, cənab Prezident, dövlətlərimiz arasında münasibətlərin gücləndirilməsinə verdiyiniz şəxsi töhfəyə, səfərə gəldiyinizə və məhsuldar əməkdaşlığa görə Sizə bir daha təşəkkürümü bildirmək istəyirəm. Cənab Prezident, ikitərəfli münasibətlərin dərinləşməsi və inkişafına verdiyiniz şəxsi töhfəyə görə xüsusən minnətdaram. Çox sağ olun.

*

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bəyanatla çıxış etdi.

## Prezident İlham Əliyevin bəyanatı

– Hörmətli cənab Baş nazir.

Əziz dostlar.

Cənab Baş nazir, dəvətə və qonaqpərvərliyə görə Sizə minnətdaram. Yenidən qardaş Gürcüstanda olmaq mənim üçün böyük şərəfdir. Əminəm ki, mənim səfərim iki qardaş ölkə arasındakı əlaqələrə yeni təkan verəcək. Bu gün müzakirə etdiyimiz məsələlər bir daha onu göstərir ki, Gürcüstan və Azərbaycan hər zaman olduğu kimi bir yerdədir. Bizim tarixi əlaqələrimiz dövlətlərarası əlaqələrimiz üçün möhkəm zəmindir. Əsrlər boyu gürcü və Azərbaycan xalqları dostluq, qardaşlıq şəraitində yaşamışlar və bu gün bu ənənələr davam etdirilir. Bu gün iki müstəqil dövlət kimi Gürcüstan və Azərbaycan inamla inkişaf edir. Fürsətdən istifadə edərək, Gürcüstanın əldə etdiyi uğurlar münasibətilə



Sizi və hökumətinizi təbrik etmək istəyirəm.

Gürcüstanın dinamik iqtisadi inkişafı göz önündədir. Gürcüstanda çox müsbət sərmayə iqlimi var və məhz buna görə bir çox investorlar, o cümlədən Azərbaycan investorları Gürcüstana böyük maraq göstərirlər. Təbii ki, bütün uğurların təməlində əsas şərt, əsas amil siyasi sabitlikdir. Bu siyasi sabitlik Gürcüstanda var. Bunun təminatçısı gürcü xalqıdır və Sizin apardığınız siyasətdir. Biz sizin dostlarınız, qonşularınız kimi buna sevinirik və əminik ki, Gürcüstan-Azərbaycan əlaqələri bundan sonra da inamla inkişaf edəcək.

Biz bütün beynəlxalq təşkilatlarda da hər zaman bir-birimizi dəstəkləyirik. Cənab Baş nazir qeyd etdiyi kimi, hər zaman bir-birimizin ərazi bütövlüyünü, suverenliyini, sərhədlərimizin toxunulmazlığını dəstəkləmişik, dəstəkləyirik və dəstəkləyəcəyik.

Biz iqtisadi sahədə böyük uğurlar əldə etmişik. Mən səfərdən öncə arayışlara baxdıqda gördüm ki, keçən il bizim ticarət dövriyyəmiz 800 milyon dollardan çox olmuşdur və bu ilin ilk rübündə yenə də artım kifayət qədər yüksəkdir. Belə gedərsə, biz bəlkə də ilin sonuna qədər bir milyard rəqəminə də çatacağıq. Qeyd etdiyim kimi, Gürcüstanda mövcud olan çox müsbət sərmayə iqlimi Azərbaycan investorlarını da həvəsləndirir və bu günə qədər Azərbaycan tərəfindən Gürcüstan iqtisadiyyatına 3,7 milyard dollar sərmayə qoyulmuşdur. Biz bu gün həm Azərbaycan, həm də Gürcüstan üçün yeni investisiya layihələri haqqında fikir mübadiləsi aparmışıq və nə vaxtsa üçüncü ölkələrə də birgə sərmayə qoyuluşu nəzərdə tutula bilər.

Təbii ki, biz hər dəfə görüşəndə bir çox məsələləri müzakirə edirik, o cümlədən regional vəziyyət, regional təhlükəsizlik məsələlərini. Bu gün də istisna deyil. Bu gün Cənubi Qafqazda tamamilə yeni vəziyyət yaranmaqdadır və Cənubi Qafqazda yerləşən ölkələr bu imkanları əldən verməməlidir. Çünki bu gün sülh, təhlükəsizlik, əmin-amanlıq, sabitlik əfsuslar olsun ki, dünyanın müxtəlif yerlərində pozulur və bunun nəticəsində qanlı toqquşmalar, müharibələr, əzab-əziyyət və itkilər baş verir. Cənubi Qafqazda da vaxtilə buna oxşar mənzərə mövcud idi. Amma bu gün Cənubi Qafqaz artıq sülh, əmin-amanlıq, təhlükəsizlik, əməkdaşlıq məkanına çevrilir və mən burada Gürcüstanın rolunu da xüsusilə qeyd etmək istərdim.

Cənab Baş nazir Azərbaycanla Ermənistan arasındakı sülh prosesinə də toxundu. Deyə bilərəm ki, bu prosesi gücləndirmək üçün, sadəcə olaraq, imzalanmış sənədlər yetərli deyil. Biz hər an, hər addım atıldıqda gərək bu sülhü gücləndirək və bunun ən yaxşı istiqaməti də ticarətdir. Bu gün Azərbaycanla Ermənistan arasında ticarət Gürcüstan vasitəsilə həyata keçirilir. Buna görə Gürcüstan hökumətinə öz təşəkkürümü bildirmək istərdim.

Azərbaycan energetika sahəsində uzun illər bir çox ölkələrin enerji təhlükəsizliyini gücləndirən addımlar atmışdır. Bu gün Azərbaycan qazı 16 ölkəyə ixrac edilir. Ancaq bu ixrac yenə də Gürcüstandan başlayır və Gürcüstan burada birinci ölkədir. Həm Azərbaycan nefti, qazı Gürcüstan vasitəsilə dünya bazarlarına çıxarılır, həm də Xəzərin şərq sahillərindən neft resursları Azərbaycan, Gürcüstan üzərindən keçirilir. Biz bu mövcud infrastruktur haqqında kifayət qədər danışmışıq. Bütün bu infrastruktur göz önündədir və artıq 20 ildir ki, Bakı-Tbilisi-Ceyhan neft kəməri uğurla fəaliyyət göstərir. Cənub Qaz Dəhlizi də ondan sonra icra edilmişdir və bu gün bu infrastruktur, əslində, böyük coğrafiya üçün mühüm əhəmiyyət daşıyır. Biz sonra bu dəhlizlər üzərindən nəqliyyat dəhlizlərini də inşa etdik və bu gün nəqliyyat dəhlizlərinin genişləndirilməsi istiqamətində işlər aparılır. Orta Dəhliz Azərbaycan və Gürcüstan üzərindən keçir. Bu bizim üçün əsas nəqliyyat damarıdır və bunu genişləndirmək üçün əlavə səylər də göstərilir və göstəriləcəkdir.

Bir sözlə, bizim ikitərəfli gündəliyimiz çox genişdir və bu gündəlik getdikcə genişlənir. Yeni layihələr, yeni fikirlər ortaya atılır və birgə səylərlə biz bunları həll edirik. Bunun əsas şərti və amili, əlbəttə ki, bizim ikitərəfli münasibətlərimizdir. Bizim münasibətlər deyə bilərəm ki, bütün qonşular üçün nümunə ola bilər. Çünki onlar qarşılıqlı hörmət, qarşılıqlı inam, ortaq mənfəət, qarşılıqlı maraqlar, dostluq və qardaşlıq üzərində qurulubdur. Əminəm ki, biz bundan sonra da bu yolla uğurla gedəcəyik.

Fürsətdən istifadə edərək, qardaş Gürcüstan xalqına sülh, əmin-amanlıq, firavanlıq, xoşbəxtlik arzulayıram. Dəvətə və qonaqpərvərliyə görə bir daha Sizə minnətdaram.

# Azərbaycan Respublikası Prezidentinin şərəfinə lanç



Aprelin 6-da Gürcüstanda dövlət səfərində olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə Tbilisidə Gürcüstanın hakim partiyasının (“Gürcü Arzusu”) fəxri sədri Bidzina İvanaşvilinin adından lanç verilib.

# Seneqal Respublikasının Prezidenti Zati-aliləri cənab Bassiru Diomaye Fayeyə

**Hörmətli cənab Prezident!**

Seneqal Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

İnanıram ki, Azərbaycan ilə Seneqal arasındakı dostluq münasibətlərinin və əməkdaşlığın həm ikitərəfli, həm də çoxtərəfli qaydada uğurla davam etdirilməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Bu bayram günündə Sizə möhkəm can-sağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost Seneqal xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

Hörmətlə,

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 1 aprel 2026-cı il**

# Prezident İlham Əliyevin İrana humanitar yardımla bağlı paylaşımı

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İran Prezidenti Məsud Pezeşkianın Azərbaycana təşəkkür etməsinə münasibət bildirib.**

Bu barədə Prezidentin “X” sosial media hesabında paylaşım edilib.

Paylaşımda deyilir: “İran İslam Respublikasının Prezidenti, qardaşım Prezident Məsud Pezeşkianın Azərbaycan xalqına və dövlətinə göstərilən dəstəyə görə təşəkkürünü ifadə etməsi xalqımız tərəfindən yüksək qiymətləndirilir.

Dost və qardaş xalqlarımız əsrlər boyu bir-birinə dayaq olub və həm yaxşı, həm də çətin günlərdə daim bir-birimizin yanında olmağa davam edəcəyik”.

# Birinci xanım Mehriban Əliyeva Tbilisidə Azərbaycan Mədəniyyəti Muzeyində





**Azərbaycanın birinci xanımı Mehriban Əliyeva aprelin 6-da Tbilisidə Mirzə Fətəli Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyi ilə tanış olub.**

Azərbaycanın birinci xanımına muzey haqqında məlumat verildi.

Muzeyin binası vaxtilə Tbilisidə yaşayan Mirzə Fətəli Axundzadənin vəsaiti ilə inşa edilib. Gürcüstanın azərbaycanlı ziyalılarının müraciətinə əsasən, 1982-ci ildə binada Mirzə Fətəli Axundzadənin ev-muzeyi yaradılıb. 1996-cı ildə ümummilli lider Heydər Əliyevin Gürcüstana rəsmi səfərindən sonra bu mədəniyyət ocağı əsaslı təmir olunaraq, həmin vaxtdan mədəniyyət mərkəzi kimi fəaliyyət göstərir.

Gürcüstan Prezidentinin Sərəncamına əsasən, 2007-ci ildə Mərkəzə Azərbaycan Mədəniyyəti Muzeyi statusu verilib və 2013-cü ildə Azərbaycan Respublikasının maliyyə dəstəyi ilə burada əsaslı təmir və yenidənqurma işləri həyata keçirilib. Elə həmin il mayın 8-də keçirilmiş muzeyin açılış mərasimi ulu öndər Heydər Əliyevin 90 illik yubileyinə həsr olunub.

Hazırda muzeyin nəzdində fəaliyyət göstərən mədəniyyət mərkəzində xalçaçılıq, musiqi, o cümlədən muğam, rəsm və dil kursları var.

Əsas məqsədi mədəniyyətimizi və xalqımızın mədəni irsini Gürcüstanda qoruyub saxlamaq və təbliğ etmək olan muzeydə bu ölkədə fəaliyyət göstərən müxtəlif muzeylərin fondlarından Azərbaycanın mədəni irsinə aid əşyalar tədqiq edilir, onların sərgiləri keçirilir.

Burada milli musiqi alətlərimizin və geyimlərimizin, xalq sənətinin müxtəlif sahələrinə aid nümunələrin, M.F.Axundzadənin həyat və fəaliyyətini əks etdirən eksponatların və digər maraqlı əşyaların nümayiş olunduğu 6 ekspozisiya zalı var.

Ekspozisiyada Gürcüstanda yaşayan etnik azərbaycanlılar tərəfindən toxunmuş və Milli Muzeydə saxlanılan ənənəvi xalçalar da təqdim olunur. Onların yaradılma tarixi yüzilliklərə gedib çıxır. Bu xalçaların toplanması və elmi cəhətdən öyrənilməsi XIX əsrin ortalarından – məhz Gürcüstan Milli Muzeyinin hüquqi varisi olduğu "Qafqaz Muzeyi" dövründən başlayır.




Azərbaycan–Gürcüstan dostluğuna həsr olunmuş zalda hər iki ölkənin heykəltaraşlarının xalqlarımızın dostluq münasibətlərini əks etdirən əsərləri, Tbilisi şəhərində ulu öndər Heydər Əliyevin adını daşıyan mədəniyyət və istirahət parkının, M.F.Axundzadə adına məktəbin və kitabxananın, Bakı şəhərindəki Tbilisi prospektinin və "Dostluq abidəsi"nin fotoşəkilləri yer alıb.

Mədəni tədbirlər və konfransların da keçirildiyi muzeydə Mirzə Şəfi Vazehin 1820-1830-cu illərdə Gəncədə qurduğu "Divani-Hikmət" ədəbi məclisinin fəaliyyətini davam etdirən "Müdriklər Məclisi" yaradılıb. Burada Tbilisi şəhərində yeganə olan Azərbaycan dilində kitabxana və incəsənət qalereyası fəaliyyət göstərir.

Sonra Azərbaycanın birinci xanımı muzeyin xatirə kitabına ürək sözlərini yazdı. Uşaqlar tərəfindən toxunmuş kiçik xalçalar xanım Mehriban Əliyevaya hədiyyə olundu.

# Birinci xanım Mehriban Əliyevanın şərəfinə lanç



Aprelin 6-da Tbilisidə Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyevanın şərəfinə Gürcüstanın birinci xanımı Tamar Baqrationinin adından lanç verilib.

# Mehriban Əliyeva Gürcüstan Milli Muzeyində olub



**Azərbaycanın birinci xanımı Mehriban Əliyeva aprelin 6-da Tbilisidə Gürcüstan Milli Muzeyində olub.**



Gürcüstan Milli Muzeyində bu ölkənin tarixinin müxtəlif dövrlərinə aid eksponatlar sərgilənir.

Muzeyin "Gürcüstanda Daş dövrü" ekspozisiyası ölkədə aşkara çıxarılmış ən vacib arxeoloji irsi təqdim edir. İndiyədək Gürcüstanda 500-dən çox Daş dövrü abidəsi qeydə alınıb. Ekspozisiyada Dmanisidə (Kvemo Kartli bölgəsi) aşkarlanan tapıntılar xüsusi yer tutur. Burada təxminən 1,8 milyon il əvvələ aid insan qalıqları və əmək alətləri var. "Arxeoloji xəzinə" ekspozisiyasında isə Gürcüstanda aşkar edilmiş və eramızdan əvvəl III minillikdən eramızın IV əsrinə qədər olan dövrə aid nadir zərgərlik məmulatları nümayiş olunur.

Ekspozisiyalarla tanışlıqdan sonra Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın adından Gürcüstan Milli Muzeyinə "Azərxalça"nın istehsalı olan beş nadir xalçadan ibarət "Mədəni irsə yeni baxış" adlı kolleksiya hədiyyə edildi. Kolleksiya qədim xalça nümunələrinin müasir interpretasiyasını təqdim edir. Kolleksiyaya klassik elementlərin, xüsusilə "Xətai" və "Çələbi" motivlərinin müasir kompozisiyada sintezi olan "Naxçıvan", Qarabağ xalça məktəbinin zəngin ornamentləri ilə yenidən işlənən "Açma-yumma", ritmik və təkrarlanan elementlərlə kainat harmoniyasını xatırladan "Qarabağ", "Bəndi-Rumi" kompozisiyası və Şərq sənət ənənələrinin müasir ifadəsi olan "Ovçuluq" və 2500 illik tarixə malik, dünyanın ən qədim xovlu xalçasının müasir interpretasiyası olan "Pazırık" xalçaları daxildir.

Muzeyin rəhbərliyi hədiyyələrə görə Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya minnətdarlıq bildirdi.

# Prezident İlham Əliyevin Gürcüstana dövlət səfəri başa çatıb



**Aprelin 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstana dövlət səfəri başa çatıb.**

Tbilisi şəhərinin Şota Rustaveli Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Gürcüstanın Baş naziri İrakli Kobaxidze yola saldı.

***AZƏRTAC***

# Nazirlər Kabinetində müşavirə



**Aprelin 4-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun sədrliyi ilə bir sıra mərkəzi, şəhər və rayon hakimiyyət orqanlarının rəhbər şəxslərinin iştirakı ilə müşavirə keçirilib.**

Nazirlər Kabinetindən bildirilib ki, müşavirədə martın 26-28-də respublikanın leysan yağışları və sel sularının ən kəskin ziyan vurduğu bir sıra şəhər və rayonlarında nəticələrin aradan qaldırılması ilə bağlı məsələlər müzakirə olunub, aidiyyəti mərkəzi və yerli icra hakimiyyəti orqanlarına müvafiq tapşırıqlar verilib.

***XQ***

# Azərbaycan–Gürcüstan: yüksək səviyyəli diplomatiya

## *Tbilisidə qəbul edilən strateji qərarlar regionun inkişafına yeni təkan verəcək*

**Qonşu dövlətlər arasındakı dayanıqlı tərəfdaşlıq regional təhlükəsizliyin əsas qarantı rolunda çıxış edir. Aprelin 6-da Tbilisidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstan Prezidenti Mixeil Kavelaşvili ilə təkbətək görüşü yeni geostrateji reallıqların növbəti əyani təsdiqidir. Görüşdə liderlər ikitərəfli əlaqələrin məhz dostluq, mehriban qonşuluq, dərin strateji müttəfiqlik prinsiplərinə tam əsaslandığını qeyd ediblər.**

Əməkdaşlığın çoxşaxəli istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, energetika, "yaşıl enerji", nəqliyyat, kütləvi sərmayələr, digər həyati əhəmiyyətli sahələrdə uğurla inkişaf etdiyi xüsusi vurğulanıb. Mövcud tarixi mərhələ diplomatiya tariximizə qarşılıqlı inteqrasiyanın inkişaf epoxası kimi daxil olur. Ələlxüsus, son illəri əhatə edən böhranlı qlobal dövrdə baş tutmuş yüksək səviyyəli davamlı dialoq, müxtəlif dövlət nümayəndələrinin intensiv qarşılıqlı səfərləri qardaşlıq trayektoriyasını yeni və fərqli ucalığa daşıyır.

Qlobal reallıqlar daxilində dövlət səfərinin siyasi əhəmiyyətini qat-qat artıran digər vacib detal Azərbaycan Prezidentinin Gürcüstanın Baş naziri ilə apardığı dərin məzmunlu dialoqdur. İrakli Kobaxidze İlham Əliyevlə mətbuata birgə bəyanatında mühüm tarixi paralellər aparıb: "Xalqlarımız əsrlər boyu daim qarşılıqlı şəkildə bir-birinə sıx bağlı olub, həmin əlaqələrin məntiqi davamı odur ki, hazırda iki dövlət arasında möhkəm strateji tərəfdaşlıq mövcuddur. Şadam ki, mövcud əməkdaşlıq müxtəlif istiqamətlər üzrə çox dinamik şəkildə inkişaf edir". Hökumət başçısının inamla qeyd etdiyi əsrlərə söykənən sarsılmaz qardaşlıq faktoru gələcək irimiqyaslı inteqrasiya layihələrinin dayaq nöqtəsini təşkil edir. Səsləndirilən fikirlər aydın göstərir ki, hər iki respublikanın yürütdüyü xarici siyasət kursu eyni strateji hədəflərə doğru mütləq sinxronluqla, uğurla irəliləyir. Tərəflərin mürəkkəb geostrateji planlaması, sadəcə, ənənəvi qapalı formatlarla kifayətlənməyib, fərqli çoxtərəfli sektorlarda inamla genişlənir. Qeyd edilən nəhəng layihələrin strateji tətbiqi yalnız daxili faydalarla məhdudlaşmayıb, beynəlxalq arenada diqqət çəkir.



Qlobal güclərin kəsişmə nöqtəsində yerləşən coğrafiyamız həmişə dəqiq hesablanmış siyasi manevrlər tələb edir. İki qonşu ölkənin müştərək formalaşdırdığı yaşıl enerji dəhlizləri, Xəzər dənizinin böyük potensialını Qara dəniz vasitəsilə Avropaya daşıyan strateji infrastrukturlar gələcək onilliklərin iqtisadi müstəqilliyinə zəmanət verir. Qlobal nəqliyyat qovşaqlarının iflic olduğu dönəmdə Şərqlə Qərbi etibarlı şəkildə əlaqələndirən Orta Dəhliz layihəsi yeganə qurtuluş yolu kimi dəyərləndirilir. Avrasiya məkanının aparıcı logistika mərkəzinə çevrilmək istiqamətində atılan birgə addımlar, qarşılıqlı irihəcmli kütləvi sərmayələr əməkdaşlığın miqyasını göstərir. Qitələrarası tranzit yüklərin məhz Tbilisi–Bakı xətti ilə maneəsiz hərəkəti qlobal iqtisadiyyatı dirçəldən strateji qaynaqdır.

* * *

Cənubi Qafqazda daimi sabitliyin tam bərpası, regional təhlükəsizlik paradiqmasının dərindən möhkəmləndirilməsi mexanizmləri aktual mövzu olaraq qalır. Mətbuata verilən bəyanatlarda səsləndirilən tarixi tezislər regionun dərin geosiyasi transformasiyasını olduqca incəliklə xarakterizə edir. Azərbaycan Prezidenti İlham Əliyev hazırkı qlobal təlatümlər fonunda Qafqazın xilas düsturunu aydın ismarışlarla diqqətə çatdırıb: "Hazırda Cənubi Qafqazda tamamilə yeni vəziyyət yaranmaqdadır, habelə regionda yerləşən ölkələr yaranmış imkanları əldən verməməlidir. Çünki hazırda sülh, təhlükəsizlik, əmin-amanlıq, sabitlik əfsuslar olsun ki, dünyanın müxtəlif yerlərində pozulur, həmin mənfi proseslərin nəticəsində qanlı toqquşmalar, müharibələr, əzab-əziyyət, ağır itkilər baş verir". Strateji uzaqgörən baxışın məntiqi davamı kimi səsləndirilən fikirlər özündə bölgənin dirçəliş paradiqmasını ehtiva edir: "Cənubi Qafqazda da vaxtilə sadalanan mənzərəyə oxşar vəziyyət mövcud idi. Amma hazırda region artıq sülh, əmin-amanlıq, təhlükəsizlik, həmçinin əməkdaşlıq məkanına çevrilir". İlham Əliyevin müdrikcəsinə irəli sürdüyü sadalanan tutarlı arqumentlər konseptual yol xəritəsidir.

İktərəfli danışıqlarda Azərbaycanla Ermənistan arasında gedən normallaşma prosesi dərindən təhlil olundu. Bölgənin qlobal logistika şəbəkələrinə sıx inteqrasiyası, Ermənistanın ehtimal edilən gələcək iştirakı çərçivəsində regional yük daşınmasında yarana biləcək tranzit əməliyyatlarının taleyi incələmə obyekti hesab olunur. Prezident İlham Əliyev beynəlxalq tribunalardakı əhatəli çıxışlarında dəfələrlə vurğulayıb ki, regionda davamlı, sarsılmaz sülhə nail olunması ancaq dövlətlərin ərazi bütövlüyünə qeyd-şərtsiz hörmət göstərilməsi, beynəlxalq hüququn təməl normalarına ciddi riayət edilməsi hesabına reallaşa bilər. Dövlət başçımızın mütləq obyektiv, peşəkar yanaşmasına görə, "Qafqaz evi" kimi mütərəqqi inteqrativ konsepsiyalar ancaq əvvəllər mövcud olmuş münaqişələrin aradan qaldırılmasından, qanlı səhifələrin bağlanmasından sonra real mahiyyət kəsb edə bilir.

Görüş çərçivəsində Azərbaycan və Gürcüstan prezidentləri respublikaların beynəlxalq təşkilatlar daxilində mövcud sarsılmaz əməkdaşlığından duyduqları məmnunluğu qürurla bildirdilər. Çoxşaxəli qlobal əlaqələrin cəlbedici perspektivləri, qarşılıqlı maraq doğuran digər fundamental məsələlər ətrafında faydalı fikir mübadiləsi aparıldı. Ələlxüsus, BMT, ATƏT, GUAM formatı, həmçinin Avropa Şurası kimi nüfuzlu platformalarda həyata keçirilən davamlı müştərək siyasi tədbirlər mütəxəssislər tərəfindən çox yüksək təqdirlə xarakterizə edilir. Sadalanan qurumların sessiyalarında mütləq suverenlik, ərazi toxunulmazlığı ali prinsiplərinin ortaq mövqedən inamla müdafiəsi hökumətlərin yekdil geostrateji xəttə sadiqliyini nümayiş etdirir.

* * *

Tbilisinin meri Kaxa Kaladze Azərbaycan Prezidentinin səfəri ilə bağlı açıqlamasında məhz mühüm təhlükəsizlik aspektlərinə fokuslanıb. O vurğulayıb: "Azərbaycan bizim strateji tərəfdaş ölkəmizdir. İki dövlət arasında münasibətlər çox vacibdir. Dostluq, səmimi təmaslar illərdir mövcuddur. Biz qeyd edilən dostluq münasibətlərini, sarsılmaz strateji tərəfdaşlığı alqışlayırıq". Merin inamla ifadə etdiyi fikirlər vəziyyətin qlobal dərəcəsini izah edir: "Prezident İlham Əliyevin Gürcüstana səfəri həddindən artıq dərəcədə önəmlidir. Yaxın Şərqdəki mövcud vəziyyətin nə qədər çətin olduğunu, dünyada hansı proseslərin baş verdiyini, dünyanın hansı çətinliklərlə üzləşdiyini nəzərə alsaq, cərəyan edən reallığı daha aydın dərk edərik. Regionda sülhün qorunması, ölkələrimizdə sabitlik prinsipial olaraq vacibdir".

Dünyanın müxtəlif qitələrində anidən alovlanan dağıdıcı konvensional münaqişələr, təhlükəli etnik toqquşmalar fonunda Tbilisi–Bakı tandeminin qurduğu mükəmməl təhlükəsizlik adası planetar beyin mərkəzlərinin daim diqqət mərkəzindədir. Nümayiş etdirilən diplomatik ustalıq böhranlı illərin sərt reallıqları müstəvisində yürüdülən praqmatik, habelə qətiyyətli kurs milli maraqların qorunmasına hesablanmış ali strategiya nümunəsidir.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Kremldə "ölüdiriltmə" cəhdi və Cənubi Qafqazda gerçəklik

**Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında Moskvada keçirilən görüşdən sonra Kremlin rəsmi siyasi diskursunda yenidən Qarabağ mövzusunun gündəmə gətirilməsi geniş geosiyasi kontekstin, Rusiya–Ermənistan münasibətlərində transformasiyanın və Cənubi Qafqazda formalaşan yeni siyasi balansın fonunda baş verir.**

Rusiya rəsmi şəxslərinin Qarabağla bağlı ritorikasının son vaxtlar yenidən aktivləşməsində söhbət artıq Qarabağın statusundan getmir. Qarabağ məsələsi həm hərbi, həm siyasi, həm də hüquqi baxımdan bağlanıb və regionda formalaşmış yeni reallıq beynəlxalq səviyyədə də qəbul olunur. Lakin buna baxmayaraq, mövzunun informasiya və siyasi diskursda saxlanılması göstərir ki, Qarabağ məsələsi artıq geosiyasi kommunikasiya və siyasi təsir aləti kimi istifadə olunur.

Beynəlxalq münasibətlər praktikasında bu, kifayət qədər tanış yanaşmadır. Tarix göstərir ki, bir çox münaqişələr formal olaraq başa çatsa da, onların siyasi və informasiya ömrü uzun müddət davam edir. Qarabağ mövzusunun Rusiya rəsmiləri tərəfindən məhz Ermənistan–Rusiya münasibətləri kontekstində xatırladılması isə daha maraqlı siyasi məna daşıyır.

Birinci mesaj Ermənistan cəmiyyətinə ünvanlanıb. Rusiya faktiki olaraq göstərməyə çalışır ki, regiondakı əsas siyasi proseslər hələ də Moskvanın iştirakı olmadan həll olunmur və Ermənistanın təhlükəsizlik və siyasi gələcəyi müəyyən mənada yenə də Rusiya ilə münasibətlərdən asılıdır. Qarabağ mövzusunun xatırladılması Ermənistan daxilində siyasi və psixoloji təsir elementi kimi də istifadə oluna bilər.

İkinci mesaj Azərbaycanla münasibətlərdə siyasi balansın qorunmasına hesablanıb. Rusiya regionda açıq şəkildə hər hansı bir tərəfin yanında görünmək istəmir və balans siyasəti yürütməyə çalışır. Qarabağ mövzusunun zaman-zaman gündəmə gətirilməsi də bu balans siyasətinin informasiya müstəvisindəki elementlərindən biri kimi qiymətləndirilə bilər.

Üçüncü və bəlkə də, ən mühüm mesaj regionun geosiyasi arxitekturası ilə bağlıdır. Rusiya bu cür bəyanatlarla dolayısı ilə göstərir ki, Cənubi Qafqazda baş verən əsas siyasi proseslər, regional təhlükəsizlik məsələləri və keçmiş münaqişələrin siyasi nəticələri hələ də böyük güclərin gündəliyinin bir hissəsidir və Moskva regionda əsas siyasi oyunçulardan biri olaraq qalır.

* * *

Son illər Rusiya–Ermənistan münasibətlərində müşahidə olunan gərginlik dərin geosiyasi transformasiyanın nəticəsidir. Uzun illər Ermənistan Rusiyanın Cənubi Qafqazda ən yaxın müttəfiqi hesab olunurdu; təhlükəsizlik sistemi, enerji infrastrukturu, sərhəd mühafizəsi və iqtisadiyyatın bir çox strateji sahələri faktiki olaraq Rusiya ilə sıx bağlı idi. Lakin son illər İrəvanın xarici siyasət kursunda müşahidə olunan dəyişikliklər Moskva–İrəvan münasibətlərində etimad böhranı yaradıb. Ermənistanın Avropa İttifaqı ilə siyasi yaxınlaşması, Aİ müşahidə missiyasının Ermənistan ərazisində yerləşdirilməsi, Fransa ilə hərbi əməkdaşlığın genişləndirilməsi, ABŞ-la siyasi və təhlükəsizlik dialoqunun intensivləşməsi Rusiyada belə bir fikir formalaşdırıb ki, Ermənistan tədricən Rusiya təhlükəsizlik orbitindən çıxmağa çalışır.




Məhz belə bir şəraitdə Qarabağ mövzusu Rusiya üçün Ermənistanla münasibətlərdə bir növ siyasi təsir və ya psixoloji təzyiq aləti kimi informasiya müstəvisində saxlanıla bilər. Yəni Moskva dolayısı ilə İrəvana göstərir ki, regionda təhlükəsizlik, münaqişələr və siyasi proseslər uzun illər Rusiyanın iştirakı ilə idarə olunub və bu faktor tamamilə aradan qalxmayıb. Böyük dövlətlər kiçik müttəfiqlərlə münasibətlərdə bəzən hərbi və iqtisadi alətlərdən daha çox siyasi yaddaş, keçmiş münaqişələr, təhlükəsizlik məsələləri və geosiyasi risklər üzərindən təsir göstərməyə çalışırlar. Qarabağ mövzusunun zaman-zaman Rusiya siyasi ritorikasında görünməsi də müəyyən mənada bu kontekstdə izah oluna bilər.

* * *

Azərbaycan Xarici İşlər Nazirliyinin səsləndirdiyi mövqe isə mahiyyət etibarilə daha geniş strateji xəttin ifadəsidir. Bəyanatda diqqətçəkən əsas məqam ondan ibarətdir ki, Azərbaycan artıq Qarabağ məsələsinə münasibətdə terminologiyanı, yanaşmanı və ümumilikdə siyasi çərçivəni köklü şəkildə dəyişib. Birinci mühüm element Qarabağın statusuna dair vurğunun mahiyyətindədir. Azərbaycanın rəsmi mövqeyində açıq şəkildə qeyd olunur ki, Qarabağın ölkənin ayrılmaz tərkib hissəsi olması hər hansı dövlətin tanıması və ya siyasi qərarı ilə müəyyən olunmur. Başqa sözlə, məsələ artıq "tanınma" və ya "status" diskursundan çıxarılıb, "ərazi bütövlüyü və suverenlik" diskursuna yerləşdirilir.

İkinci mühüm məqam isə Rusiyaya ünvanlanan açıq mesajdır. Açıqlamada dolayısı ilə, lakin kifayət qədər aydın şəkildə bildirilir ki, Azərbaycanın suverenliyinə aid məsələlər üçüncü tərəflər arasında müzakirə predmeti ola bilməz. Burada əsas fikir ondan ibarətdir ki, Bakı regiondakı digər aktorların – o cümlədən böyük güclərin – Azərbaycan ərazisi ilə bağlı məsələləri öz aralarındakı dialoqun elementi kimi istifadə etməsini qəbul etmir.

* * *

Cənubi Qafqazda baş verən proseslərə ayrı-ayrı siyasi hadisələr kimi baxdıqda mənzərə tam görünmür. Əslində regionda gedən proseslər daha böyük geosiyasi transformasiyanın tərkib hissəsidir və bu transformasiyanın başlanğıc nöqtəsi kimi 2020-ci ildən sonrakı dövrü götürmək olar. Həmin dövrdən sonra regionun siyasi strukturu, güc balansı, nəqliyyat xəritəsi və hətta siyasi gündəliyi özü dəyişməyə başlayıb. 2020-ci ildən sonra Cənubi Qafqazda 3 əsas strateji dəyişiklik baş verib.

Birinci dəyişiklik münaqişə dövrünün başa çatması və post-münaqişə mərhələsinin başlanmasıdır. Uzun illər regionun siyasi gündəliyini, təhlükəsizlik arxitekturasını və xarici güclərin regiona yanaşmasını məhz Qarabağ münaqişəsi müəyyən edirdi. Münaqişə həm region dövlətlərinin xarici siyasətini, həm də böyük güclərin Cənubi Qafqaz siyasətini formalaşdıran əsas faktor idi. Münaqişənin başa çatması ilə regionda siyasi gündəliyin əsas mövzusu dəyişmiş oldu.

İkinci böyük dəyişiklik regionda güc balansının dəyişməsi ilə bağlıdır. 2020-ci ildən sonra regionda hərbi-siyasi reallıq dəyişdi və bu dəyişiklik avtomatik olaraq diplomatik və geosiyasi balansı da dəyişdirdi. Regionda artıq əvvəlki status-kvo mövcud deyil və yeni siyasi reallıq yeni davranış qaydaları formalaşdırır. Mövcud reallıqlar həm də böyük güclər arasında münasibətlərin yeni formatını formalaşdırır.

Üçüncü mühüm dəyişiklik isə xarici güclərin regiondakı rol modelinin dəyişməsi ilə bağlıdır. Əvvəllər Cənubi Qafqazda xarici güclər daha çox münaqişə vasitəçisi, təhlükəsizlik təminatçısı və ya siyasi arbitr rolunda çıxış edirdilər. Münaqişə bitdikdən sonra bu rol modeli avtomatik olaraq zəifləməyə başladı və xarici güclər regionda öz mövcudluqlarını yeni əsaslarla izah etməyə çalışırlar.

Belə bir keçid dövründə köhnə siyasi mövzuların informasiya məkanında qalması tamamilə təbiidir. Çünki geosiyasi transformasiyalar heç vaxt bir anda baş vermir. Köhnə gündəmlə yeni gündəm müəyyən müddət paralel şəkildə mövcud olur. Bir tərəfdən regionda yeni nəqliyyat xətləri, iqtisadi layihələr və əməkdaşlıq formatları müzakirə olunur, digər tərəfdən isə keçmiş münaqişə ilə bağlı mövzular zaman-zaman siyasi və informasiya diskursunda yenidən ortaya çıxır. Məhz bu baxımdan Qarabağ mövzusunun zaman-zaman informasiya müstəvisində gündəmə gətirilməsi keçid dövrünün siyasi əlamətlərindən biri kimi də qiymətləndirilə bilər.

* * *

Beynəlxalq münasibətlər nəzəriyyəsində getdikcə daha çox diqqətçəkən yanaşmalardan biri ondan ibarətdir ki, böyük güclərin regionlara təsirinin effektiv forması diskurs üzərindən qurulur. Yəni hansı mövzuların müzakirə edildiyi, hansı terminlərin legitim sayıldığı, hansı məsələlərin gündəmdə saxlanıldığı



və hansılarının isə arxa plana keçirildiyi özü-özlüyündə siyasi gücün təzahürünə çevrilir.

Diskurs, əslində, görünməyən siyasi idarəetmə mexanizmidir. Əgər bir mövzu davamlı şəkildə siyasi və informasiya gündəmində saxlanılırsa, o, avtomatik olaraq aktuallıq statusunu qoruyur və bu da həmin mövzu üzərindən təsir imkanlarını saxlayır. Əksinə, bir mövzu gündəmdən çıxarıldıqda, onun üzərindən siyasi təsir imkanları da zəifləyir. Məhz bu prizmadan baxdıqda Qarabağ mövzusunun Rusiya siyasi diskursunda qalmasında əsas məqsəd region üzərində təsirin diskurs səviyyəsində saxlanılmasıdır.

Son olaraq qeyd edək ki, Qarabağ məsələsi hərbi və hüquqi baxımdan artıq bağlanmış hesab olunsa da, onun geosiyasi və informasiya həyatı hələ müəyyən müddət davam edəcək. Lakin əsas və geridönməz dəyişiklik ondan ibarətdir ki, regionda siyasi reallığı artıq postmünaqişə nizamı müəyyən edir.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Gürcüstan mətbuatı Prezident İlham Əliyevin bu ölkəyə dövlət səfərini geniş işıqlandırıb

**Gürcüstanın aparıcı televiziyaları və informasiya portalları Azərbaycan Prezidenti İlham Əliyevin bu ölkəyə dövlət səfərini geniş işıqlandırıb.**

Yerli mətbuat ali qonağın şərəfinə Tbilisinin mərkəzi küçə və prospektlərində Azərbaycanın Dövlət bayrağının asıldığını xüsusi qeyd edib.

"1tv.ge" yazır ki, Azərbaycan Prezidenti İlham Əliyevin bu səfəri iki qardaş ölkə arasındakı əlaqələrə yeni təkan verəcək. "Bu gün müzakirə edilən məsələlər bir daha onu göstərir ki, Gürcüstan və Azərbaycan hər zaman olduğu kimi bir yerdədir", - deyə sayt yazıb.

Eyni zamanda, dövlətimizin başçısının çıxışına istinadla yayılan silsilə materiallarda iqtisadi sahədə əhəmiyyətli nailiyyətlərin əldə olunmasına da xüsusi yer ayrılıb. Prezident İlham Əliyevin mətbuata bəyanatında yer alan fikirlərinə diqqət çəkilərək qeyd olunub ki, ilin sonunadək iki ölkə arasında ticarət dövriyyəsinin həcmi bir milyardı ötə bilər.

"Rustavi2.ge" portalında bu günə qədər Azərbaycan tərəfindən Gürcüstan iqtisadiyyatına 3,7 milyard dollar sərmayə qoyulduğu xüsusi vurğulanıb.

Gürcüstan və Azərbaycan arasındakı ikitərəfli münasibətlərin qarşılıqlı hörmət və etimada əsaslandığını qeyd edən "Imedinews.ge" saytı bunu bütün qonşu dövlətlər üçün nümunə göstərib.

"Info9.ge" portalı isə yazır ki, Azərbaycan enerji təhlükəsizliyi baxımından Gürcüstan üçün etibarlı tərəfdaşdır.

"Interpressnews.ge" portalı Prezident İlham Əliyevə istinadla qeyd edib ki, Gürcüstan dinamik şəkildə inkişaf edir, iqtisadi artımı göz qabağındadır, ölkədə çox əlverişli investisiya mühiti yaradılıb.

"Primitime.ge" yazır ki, Azərbaycan Prezidentinin çıxışında iki ölkə arasında münasibətlərin daha dinamik şəkildə inkişafından məmnunluq ifadə olunub. Bildirilir ki, Azərbaycan və Gürcüstan bütün beynəlxalq təşkilatlarda bir-birinin ərazi bütövlüyünü, suverenliyini və sərhədlərin toxunulmazlığını dəstəkləyir. Bu, hər zaman belə olub və gələcəkdə də belə olacaq.

"İpress.ge" saytı da Prezident İlham Əliyevin fikirlərinə yer verib: "Azərbaycan nefti, qazı Gürcüstan vasitəsilə dünya bazarlarına çıxarılır, həm də Xəzərin şərq sahillərindən neft resursları Azərbaycan, Gürcüstan üzərindən keçirilir. Artıq 20 ildir ki, Bakı-Tbilisi-Ceyhan neft kəməri uğurla fəaliyyət göstərir. Cənub Qaz Dəhlizi də ondan sonra icra edilmişdir və bu gün bu infrastruktur, əslində, böyük coğrafiya üçün mühüm əhəmiyyət daşıyır. Biz sonra bu dəhlizlər üzərindən nəqliyyat dəhlizlərini də inşa etdik və bu gün nəqliyyat dəhlizlərinin genişləndirilməsi istiqamətində işlər aparılır. Orta Dəhliz Azərbaycan və Gürcüstan üzərindən keçir. Bu bizim üçün əsas nəqliyyat damarıdır və bunu


Aliyev calls for peace and stability in South Caucasus during visit to Tbilisi

GEORGIA TODAY

Azerbaijani President Ilham Aliyev has called on countries in the South Caucasus to remain firmly focused on peace, stability, and security, warning that while these principles are being undermined in many parts of the world, they must remain unwavering in the region.

Speaking at a joint briefing with Georgian Prime Minister Irakli Kobakhidze at the Government Administration in Tbilisi, Aliyev emphasized the importance of preserving regional stability amid shifting global dynamics.

"The countries of the South Caucasus must stay focused on peace, stability, and security. At a time when these principles are being violated in various parts of the world, they must remain unshakable here. We must ensure that such losses and developments do not affect our region. The South Caucasus should present itself as a region of peace, stability, and cooperation," Aliyev said.

genişləndirmək üçün əlavə səylər də göstərilir və göstəriləcəkdir".

tvpirveli.ge yazır ki, Prezident İlham Əliyev mətbuata bəyanatında bu gün həm Azərbaycan, həm də Gürcüstan üçün yeni investisiya layihələri haqqında fikir mübadiləsi aparıldığını bildirib. Əlavə edib ki, nə vaxtsa üçüncü ölkələrə də birgə sərmayə qoyuluşu nəzərdə tutula bilər.

"Təbii ki, biz hər dəfə görüşəndə bir çox məsələləri müzakirə edirik, o cümlədən regional vəziyyət, regional təhlükəsizlik məsələlərini. Bu gün də istisna deyil", - deyə Azərbaycan Prezidenti bildirib.

kvirispalitra.ge də dövlətimizin başçısının fikirlərinə geniş yer ayırıb: "Cənab Baş nazir Azərbaycanla Ermənistan arasındakı sülh prosesinə də toxundu. Deyə bilərəm ki, bu prosesi gücləndirmək üçün, sadəcə olaraq, imzalanmış sənədlər yetərli deyil. Biz hər an, hər addım atıldıqda gərək bu sülhü gücləndirək və bunun ən yaxşı istiqaməti də ticarətdir. Bu gün Azərbaycanla Ermənistan arasında ticarət Gürcüstan vasitəsilə həyata keçirilir. Buna görə Gürcüstan hökumətinə öz təşəkkürümü bildirmək istərdim.

Azərbaycan energetika sahəsində uzun illər bir çox ölkələrin enerji təhlükəsizliyini gücləndirən addımlar atmışdır. Bu gün Azərbaycan qazı 16 ölkəyə ixrac edilir".

Bundan başqa, formulanews.ge, netgazeti.ge, cbw.ge, georgiatoday.ge, bpn.ge, commersant.ge, ipress.ge, primetime.ge, 2020news.ge, tabula.ge, geotimes.com.ge, bm.ge, aktual.ge, 24news.ge, palitranews.ge, apsny.ge saytlarında və digər media orqanlarında da Azərbaycan Prezidentinin səfəri geniş işıqlandırılıb.

Materiallarda Azərbaycan Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın hava limanında qarşılanma mərasimi, eləcə də dövlətimizin başçısının Gürcüstan Prezidentinin iqamətgahında rəsmi qarşılanma mərasimi, Prezident Mixeil Kavelaşvili ilə görüşü barədə məlumatlar əksini tapıb.



Gürcüstan mətbuatının ən çox diqqət yetirdiyi məqam isə Prezident İlham Əliyevlə Gürcüstanın Baş naziri İrakli Kobaxidze arasında görüşdən sonra dövlətimizin başçısının mətbuata bəyanatında səsləndirdiyi fikirlər olub.

Dövlətimizin başçısının Cənubi Qafqazda sülh və təhlükəsizlik barədə fikirləri də geniş işıqlandırılıb: "Bu gün Cənubi Qafqazda tamamilə yeni vəziyyət yaranmaqdadır və Cənubi Qafqazda yerləşən ölkələr bu imkanları əldən verməməlidir. Çünki bu gün sülh, təhlükəsizlik, əmin-amanlıq, sabitlik əfsuslar olsun ki, dünyanın müxtəlif yerlərində pozulur və bunun nəticəsində qanlı toqquşmalar, müharibələr, əzab-əziyyət və itkilər baş verir. Cənubi Qafqazda da vaxtilə buna oxşar mənzərə mövcud idi. Amma bu gün Cənubi Qafqaz artıq sülh, əmin-amanlıq, təhlükəsizlik, əməkdaşlıq məkanına çevrilir və mən burada Gürcüstanın rolunu da xüsusilə qeyd etmək istərdim", – deyə Prezident İlham Əliyevə istinadla bildirilir.







Qeyd edək ki, ümumilikdə qonşu ölkənin 50-dən çox portal və televiziyasında 90-a yaxın material yayımlanıb.

# Multikultural harmoniyanın ünvanı: Bakı – Tbilisi

**Azərbaycan və Gürcüstan arasındakı münasibətlər Cənubi Qafqazın ən sabit və çoxşaxəli əməkdaşlıq modelidir. Bu tərəfdaşlıq yalnız siyasi və iqtisadi maraqlara deyil, həm də sosial-humanitar təmələrə söykənir. İki xalq arasındakı əlaqələr uzun illər təkamül edərək mədəniyyət və ictimai münasibətlər səviyyəsində dərindən kök salıb. Hazırda bu əlaqələr genişmiqyaslı inteqrasiya xarakteri alıb.**

Multikultural mühitin praktik təzahürləri konkret nümunələrdə aydın görünür. Gürcüstanın Kvemo Kartli regionunda yaşayan azərbaycanlı icması ölkənin ictimai-siyasi və sosial həyatında fəaldır. Bölgədə azərbaycandilli məktəblərin fəaliyyəti, yerli medianın mövcudluğu etnik kimliyin qorunması ilə yanaşı, uğurlu sosial inteqrasiyanın göstəricisidir. Eyni zamanda, Azərbaycanın Qax rayonunda yaşayan gürcü icması öz dini və mədəni ənənələrini qoruyub saxlayır. İcmaya məxsus kilsələrin fəaliyyəti, milli-dini bayramların yüksək səviyyədə qeyd olunması Azərbaycandakı tolerantlıq mühitinin sübutudur.





Humanitar əməkdaşlıq sahəsində təhsil və sosial dəstək də xüsusi yer tutur. Marneuli, Qardabani, Bolnisi və digər bölgələrdə Azərbaycan məktəblərinin qorunması və inkişafına şərait yaradılıb, uşaqların ana dilində təhsil alması milli özünüdərkin təminatına xidmət edir. Hazırda hər iki ölkənin təhsil qurumları arasında azərbaycandilli məktəblərdə təhsilin keyfiyyətinin artırılması, müəllim hazırlığı və müasir dərsliklərlə təminat məsələləri müzakirə olunur. Bu əməkdaşlıq yalnız təhsil göstəricilərini yaxşılaşdırmır, həm də iki qonşu xalq arasında tarixi dostluq və mədəni yaxınlıq bağlarını möhkəmləndirir.

Onu da qeyd edək ki, bu vaxta qədər yerli azərbaycanlıların ali məktəblərə qəbulunu asanlaşdırmaq üçün müəyyən güzəştlər tətbiq olunurdu. Gürcüstan hökumətinin 2010-cu ildən həyata keçirdiyi "1+4" proqramı azərbaycanlı gənclərin ali təhsilə inteqrasiyasında mühüm rol oynayıb. Hazırda etnik azlıqlardan olan tələbələrin 85 faizi Tbilisinin 4 çoxprofilli universitetində – Tbilisi Dövlət Universiteti, İlia Dövlət Universiteti, Gürcüstan Texniki Universiteti və Suxumi Dövlət Universitetində təhsil alır.

Statistikaya görə, 2025-ci ildə bu universitetlərin gürcü dili proqramına 1368 tələbə qəbul olunmuşdusa, 2026-cı ildə bu rəqəmin ən yaxşı halda 1120-yə (təxminən 20 faiz azalma) düşəcəyi gözlənilir. Bu azalma tendensiyasının əsas səbəbi orta məktəblərdə gürcü dilində təhsil alan azərbaycanlı şagirdlərin sayının ildən-ilə artmasıdır və artıq bu, sabit bir istiqamətə çevrilib. Şagirdlər 12 illik təhsili gürcü dilində başa vuraraq kifayət qədər dil bilikləri və akademik bacarıqlar əldə edirlər.

Eyni zamanda, ali məktəblər arasında məlumat mübadiləsi, qarşılıqlı səfərlər, birgə layihələrin hazırlanması və həyata keçirilməsi yeni perspektivlər açır və uzunmüddətli baxışda iki xalq arasında əlaqələrin daha da möhkəmlənməsinə xidmət edir. Qarşılıqlı mədəniyyət günləri, folklor festivalları və incəsənət sərgiləri isə xalqlar arasında emosional bağlılığı artırır, qarşılıqlı hörmət və anlayış mühitini gücləndirir. Məsələn, bu ilin əvvəlində mədəniyyət günləri çərçivəsində "Erisioni" Gürcüstan Dövlət Akademik Ansamblı Azərbaycanda olub. Bakı və Gəncədə Azərbaycan tamaşaçıları üçün solo konsert verib. Konsertə Azərbaycan hökumətinin mədəniyyət və ictimaiyyət nümayəndələri, eləcə də ölkədə akkreditə olunmuş diplomatik nümayəndəliklərin rəhbərləri qatılıblar. Gürcüstanda da dəfələrlə Azərbaycanın mədəniyyət günləri keçirilib.

Birgəyaşayış modeli yalnız institusional çərçivə ilə məhdudlaşmır, gündəlik həyat səviyyəsində də özünü göstərir. Müxtəlif etnik mənsubiyyətə malik insanlar arasında dostluq və qohumluq münasibətlərinin yaranması isə sosial inteqrasiyanın ən yüksək forması kimi qiymətləndirilir.

Tarixi-mədəni irsin qorunması isə humanitar əməkdaşlığın digər əsas istiqamətidir. Bununla bağlı XQ-yə açıqlama verən **Gürcüstan parlamentinin sabiq deputatı İsaq Novruzov** bildirdi ki, Mirzə Fətəli Axundzadənin Tbilisidəki evi dövlət vəsaiti



ilə alınaraq bərpa olunub və muzey kimi fəaliyyətə başlayıb: "Bu addım, sadəcə, memarlıq abidəsinin qorunması deyil, həm də milli kimliyin, maarifçiliyin və Azərbaycan ədəbiyyatının irsinin yaşadılması məqsədini daşıyır. Nəriman Nərimanovun evi də sonradan ədibin ev-muzeyinə çevrilib, Gürcüstan–Azərbaycan mədəni əlaqələr cəmiyyətinin nəzdində İbrahim İsfahanlı adına Teatr bərpa olunub, sənətkarın yubiley tədbirləri isə milli yaddaşın qorunması istiqamətində vacib addımdır. Binanın üzərində xatirə lövhələrinin vurulması bu irsin unudulmamasına verilən zəmanətdir".

Onun sözlərinə görə, Cəlil Məmmədquluzadənin Tbilisidəki ev-muzeyinin yaradılması, "Molla Nəsrəddin" jurnalının redaksiyası və "Qeyrət" mətbəəsi kimi mədəni məkanların bərpası nəticəsində bu yerlər canlı mədəniyyət ocaqlarına çevrilib: "Burada keçirilən sərgilər, ədəbi gecələr və tədbirlər gənc nəsil üçün milli özünüdərk və mədəni identiklik mənbəyi olub. Bu təşəbbüslər Gürcüstanda yaşayan azərbaycanlıların milli ruhunu gücləndirib, Azərbaycan mədəniyyətinin sərhədsizliyini simvollaşdırıb.

Azərbaycanın tanınmış şəxsiyyətlərinin məzarlarının qorunması və abadlaşdırılması sahəsində də mühüm addımlar atılıb. Tbilisidə Mirzə Fətəli Axundzadənin büstünün bərpası, Mirzə Şəfi Vazehin qəbirüstü abidəsinin ucaldılması və Həsən bəy Ağayevin məzarının abadlaşdırılması Azərbaycanın klassik düşüncə, poeziya və dövlətçilik irsinin fiziki daşıyıcılarının qorunması kimi qiymətləndirilir. Fətəli xan Xoyskinin məzarı üzərində büstün açılışı bu siyasətin ideoloji və mənəvi dərinliyini ortaya qoyub. Gəncədə gürcü şairi Nikoloz Barataşvilinin xatirə lövhəsinin açılması da Azərbaycan–Gürcüstan əlaqələrinin tarixi köklərə malik olduğunu göstərir".

Mövzu ilə bağlı **Gürcüstan parlamentinin deputatı Levan Maxaşvili** XQ-yə dedi ki, Azərbaycan onlar üçün çox mühüm strateji tərəfdaşdır: "Mən deyərdim ki, Qərblə Şərqi, Avropa və Asiyanı birləşdirməyə gələndə əvəzolunmaz tərəfdaşdır. Biz bu illər ərzində çox böyük uğurlar qazanmışıq və yeni-yeni uğurlar qazanmalıyıq. Bunun üçün çox böyük imkanlar var".

Beləliklə, Azərbaycan və Gürcüstan arasındakı strateji tərəfdaşlıq regionda sabitlik, inkişaf və təhlükəsizliyin təmin olunmasında həlledici rol oynayır. İki dövlət arasında sosial-humanitar sahədə əməkdaşlıq uğurla davam edir. Bu əlaqələr qarşılıqlı fayda prinsipi üzərində qurulub.



Bütün bunlar onu göstərir ki, Azərbaycan və Gürcüstan xalqları əsrlər boyu mehriban qonşuluq şəraitində yaşamış və bu ənənə müasir dövrdə də davam etdirilir. Bu fakt sosial inteqrasiyanın yüksək səviyyədə olduğunu göstərməklə yanaşı, münasibətlərin dərin tarixi köklərə malik olduğunu təsdiqləyir. Məhz bu tarixi və sosial bağlılıq siyasi və iqtisadi əməkdaşlıq üçün möhkəm zəmin yaradır və münasibətlərin davamlı inkişafını təmin edir.

*P.ƏFƏNDİYEV*
*XQ*

# Bakı – Lefkoşa: möhkəmlənən qardaşlıq körpüsü

*İqtisadi və turizm sahələrində yeni mərhələ başlayır*



**Bakıda Türk Dövlətləri Təşkilatına (TDT) üzv və müşahidəçi dövlətlərin hökumət başçılarının və vitse-prezidentin iştirakı ilə keçirilən tədbirin diqqətçəkən məqamlarından biri Şimali Kipr Türk Cümhuriyyətinin (ŞKTC) Baş naziri Ünal Üstelin toplantıda iştirakı oldu. Bu fakt ŞKTC-nin Türk dünyasının ayrılmaz tərkib hissəsi olduğunun növbəti nümayişi idi.**

Bu yaxınlaşma təkcə diplomatik gedişat deyil, eyni zamanda, ideoloji, mədəni və tarixi ortaqlığa söykənən milli kimliyin qlobal müstəvidə möhkəmləndirilməsi prosesidir. Qeyd edək ki, Şərqi Aralıq dənizi regionunun son illər qlobal enerji xəritəsində tutduğu strateji mövqe və burada formalaşan yeni geosiyasi rəqabət mühiti Azərbaycanın regiondakı dost aktorlarla, xüsusən də Şimali Kipr ilə münasibətlərini strateji zərurətə çevirib. Azərbaycanın bölgədəki proseslərdə dolayı iştirak imkanlarının genişlənməsi, gələcəkdə müxtəlif enerji və nəqliyyat dəhlizlərində perspektiv əməkdaşlıq platformaları üçün dayanıqlı zəmin yaradır.

İqtisadi maraqlar baxımından Azərbaycan–Şimali Kipr əlaqələri hələ tam potensialını reallaşdırmasa da, qeyri-neft sektorunun inkişafı kontekstində böyük imkanlar vəd edir. Xüsusilə turizm, ali təhsil və investisiya sahələrindəki əməkdaşlıq Azərbaycanın iqtisadi diversifikasiya strategiyasına tam cavab verir. Şimali Kiprin inkişaf etmiş təhsil infrastrukturu və turizm potensialı ilə Azərbaycanın artan investisiya imkanlarının birləşməsi hər iki tərəf üçün ciddi dividendlər vəd edir.

Eyni zamanda, mədəni və humanitar sahədəki layihələr Azərbaycanın "yumşaq güc" siyasətinin mühüm komponenti kimi çıxış edir. Azərbaycan mədəniyyətinin, dilinin və ortaq dəyərlərinin ŞKTR-də təşviqi həm ictimai diplomatiyanın güclənməsinə, həm də beynəlxalq arenada milli imicin yüksəldilməsinə xidmət edir. Şimali Kiprin beynəlxalq səviyyədə tanınma ilə bağlı qarşılaşdığı məhdudiyyətlər Azərbaycanın bu istiqamətdəki rəsmi addımlarında balanslı və ehtiyatlı diplomatiya yürütməsini şərtləndirir. Məhz bu səbəbdən əlaqələrin daha çox parlament diplomatiyası, partiyalararası format və humanitar kanallar vasitəsilə intensivləşməsinə xüsusi önəm verilir.

**"Orta Asiya və Güney Qafqaz Söz Azadlığı Şəbəkəsi" İctimai Birliyinin sədri Nadir Azərinin** XQ-yə verdiyi şərhdə vurğuladığı kimi, Azərbaycan son illər Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində Türkiyə ilə birlikdə həlledici lider mövqeyinə yüksəlib: "Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən kurs Türk dünyasının dərin inteqrasiyasına hədəflənib və dövlət başçısının "Bizim ailəmiz Türk dünyasıdır" bəyanatı bu prosesin əsas ideoloji lokomotivinə çevrilib. Bu vizyon təkcə siyasi bəyanat deyil, həm də Türk dünyasının gələcək birliyinin strateji xəritəsidir. Bu siyasətin bariz nümunəsi olaraq, Türkiyənin təşəbbüsü ilə TDT-də müşahidəçi statusu alan Şimali Kipr Azərbaycanın hərtərəfli siyasi və diplomatik dəstəyini hər mərhələdə hiss etməkdədir. Bu isə Türk dünyasında həmrəyliyin və inteqrasiyanın gücləndirilməsi baxımından əhəmiyyət kəsb edir. Biz bu dəyərləndirməmizdə Azərbaycanın ŞKTC üçün yaratdığı imkanların hamısını sadalamağı zəruri hesab etməsək də, bir məqam üzərində xüsusi dayanmalıyıq. 2025-ci ilin iyulunda İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) Xankəndidə keçirilən 17-ci Zirvə görüşündə və 2025-ci ilin oktyabrında Türk Dövlətləri Təşkilatına üzv ölkələrin Dövlət Başçıları Şurasının Qəbələ Zirvə Görüşündə Şimali Kipr Türk Cümhuriyyəti ilk dəfə məhz dövlət başçısı səviyyəsində və öz bayrağı altında təmsil olundu".

Azərbaycanın bu istiqamətdə dəstəyi bu gün də davam edir. Bakıda keçirilən görüşə Şimali Kipr Türk Cümhuriyyətinin Baş naziri Ünal Üstelin dəvət olunması da Azərbaycanın qardaş ölkəyə verdiyi siyasi və diplomatik dəstəyin davamlı və səmimi xarakter daşıdığını nümayiş etdirir. Bununla yanaşı, onu da qeyd edək ki, Azərbaycan ilə Şimali Kipr arasında əlaqələrin indiyədək daha çox təhsil, turizm və qismən mədəniyyət sahələrində inkişaf etdiyi müşahidə olunur. Paralel olaraq, Azərbaycan, Türkiyə və ŞKTC-nin hakim partiyaları arasında üçtərəfli əməkdaşlıq formatının formalaşması da diqqət çəkir və bu mexanizmin daha da inkişaf etdirilməsi istiqamətində addımlar atılır. Sadalananlar kontekstində Ünal Üstelin Azərbaycana səfəri çərçivəsində keçirdiyi görüşlər, o cümlədən hökumət üzvləri ilə müzakirələr iki ölkə arasında əməkdaşlığın gələcəkdə iqtisadi sahədə də genişlənəcəyini deməyə əsas yaradır. Ü.Üstel Azərbaycana səfəri çərçivəsində mediaya verdiyi açıqlamalarda iki ölkə arasında turizm sahəsində əməkdaşlığın genişləndirilməsi, birbaşa aviareyslərin açılması və vətəndaşların daha sərbəst səfər imkanlarının yaradılması kimi məsələlərə xüsusi diqqət yetirilməsi, bu istiqamətdə niyyətin ciddi olduğunu göstərir. Ü.Üstelin də bəyan etdiyi kimi, qarşılıqlı gediş-gəliş xalqlarımız arasında bağların daha da güclənməsinə xidmət edəcək. Çünki Türkiyə Cümhuriyyəti, Azərbaycan və Şimali Kipr birlikdə "bir millət, üç dövlət" anlayışını təmsil edir. Birliyin daha da güclənməsi üçün ilk növbədə turizm sahəsində konkret addımlar atılmalıdır.

Şübhəsiz, mövcud beynəlxalq reallıqlar fonunda bu təşəbbüslərin tam şəkildə və qısa müddətdə reallaşması müəyyən zaman tələb edə bilər. Lakin son görüşlər və tədbirlər bir daha sübut edir ki, Azərbaycan Türk dünyasının daha dərin inteqrasiyasına yönəlmiş qətiyyətli siyasət yürüdür və bu kurs dəyişməz olaraq qalır. Bütün bunlar eyni zamanda Prezident İlham Əliyev tərəfindən səsləndirilən "Bizim ailəmiz Türk dünyasıdır" tezisinin praktik müstəvidə reallaşdırıldığını göstərir. Azərbaycanın atdığı bu ardıcıl addımlar həm siyasi, həm iqtisadi, həm də humanitar sahələrdə öz müsbət nəticələrini verməkdədir. Bu proseslərin fonunda yaxın perspektivdə Azərbaycan ilə Şimali Kipr Türk Cümhuriyyəti arasında xüsusilə turizm və ali təhsil sahələrində əməkdaşlığın daha da dərinləşəcəyi, eyni zamanda siyasi və institusional əlaqələrin yeni mərhələyə qədəm qoyacağı gözlənilir".

***P.ƏFƏNDİYEV***
***XQ***

# Konstitusiya Məhkəməsində görüş



**Aprelin 6-da Konstitusiya Məhkəməsində ölkəmizdə səfərdə olan Türkiyənin Ali Məhkəməsinin Baş prokuroru Muhsin Şentürkün rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.**

Kostitusiya Məhkəməsinin mətbuat xidmətindən verilən məlumata görə, ortaq milli-mənəvi dəyərlərdən və ənənələrdən güc alan Azərbaycan–Türkiyə qardaşlığının dünya ölkələrinə nümunə olduğunu vurğulayan Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev iki qardaş ölkə arasında sarsılmaz münasibətlərin Prezident İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın həyata keçirdiyi uğurlu siyasət nəticəsində etibarlı strateji əməkdaşlıq səviyyəsinə yüksəldiyini qeyd edib.

Bildirilib ki, ən əhəmiyyətli məqamlarda dövlətimizə dayaq olmuş qardaş Türkiyənin Vətən müharibəsində və ölkəmizin Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə həyata keçirilən lokal xarakterli antiterror tədbirləri zamanı ölkəmizin yanında olması xalqımız tərəfindən daim yüksək qiymətləndirilir. Bu gün Əsas Qanunun hüquqi qüvvəsi suveren respublikamızda tam bərpa edilib və işğal altında olan torpaqlarımızın işğaldan azad edilməsi ilə həm də vətəndaşların konstitusiyada təsbit olunan hüquqlarının müdafiəsi təmin olunub.

Türkiyə Ali Məhkəməsinin Baş prokuroru Muhsin Şentürk ikitərəfli əlaqələri yüksək qiymətləndirərək iki qardaş xalq arasındakı münasibətlərin inkişafına xüsusi diqqət yetirildiyini, "bir millət, iki dövlət" prinsipi əsasında qurulan əməkdaşlığın dövlət institutları arasında təcrübə mübadiləsi və qarşılıqlı dəstək baxımından mühüm əhəmiyyət kəsb etdiyini bildirib.

Görüş zamanı konstitusiya ədalət mühakiməsinin rolu, hüquq sistemlərinin inkişafı, məhkəmə və prokurorluq institutları arasında qarşılıqlı əlaqələrin gücləndirilməsi ətrafında fikir mübadiləsi aparılıb. Tərəflər hüququn aliliyinin təmin olunması, insan hüquq və azadlıqlarının qorunması sahəsində əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyini qeyd ediblər.

Sonra məhkəmənin binası ilə tanışlıq olub.

***XQ***

**Replika**

**Erməni millətçiliyinin XX əsrin sonlarına doğru vüsət almaqda olan Qarabağ avantürasının əsas ideoloqlarından sayılan Zori Balayan öldü. Belə bir deyim var ki, ölünün dalınca danışmazlar. Amma Balayan istisnadır. Ona görə deyə bilərik ki, Zori ölmədi, gəbərdi. Xocalıda azyaşlı uşağın başının dərisini soyan və onun necə can verməsinə tamaşa edib həzz alan, ən başlıcası bu səhnəni "yaradıcılığına" - 1996-cı ildə nəşr olunmuş "Ruhumuzun canlanması" adlı kağız parçasına daxil edən məxluq ölmür, məhz gəbərir və gorbagor olur.**

# Zori Balayanın gəbərməsi

*Bu ölünün dalınca danışarlar da, hətta...*

Qeyd edək ki, Z.Balayan sözügedən əsərində Xocalıda ermənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi soyqırımı faktlarını sadalamış, hər bir erməninin bu hərəkətlərdən fəxr duymalı olduğunu bildirmişdi. Məhz buna görə də o, Azərbaycan tərəfindən İnterpol xətti ilə beynəlxaq axtarışa verilmiş, hətta Avropada olarkən bir neçə dəfə saxlanılmışdı. "Əmması" odur ki, bu məxluq hər dəfə sərbəst buraxılmış, cinayət məsuliyyətindən yayın(dırıl)mışdı. Dünyada belə hesab etmişdilər ki, Azərbaycan durumu siyasiləşdirir. Halbuki, prinsip etibarilə, siyasiləşdirilmiş məsələ, hansısa mübahisəli məqam yoxdur. Çünki məxluq özü hansı qəddar əməllər törətdiyini yazmış, hər şeyi etiraf etmişdi. Əlbəttə, buna etiraf demək mümkündürsə...

Nə isə, bu barədə uzun danışmağa ehtiyac yoxdur. Təkcə onu demək lazımdır ki, Qarabağ münaqişəsinə, Azərbaycan torpaqlarının işğalına, xalqımızın çəkdiyi zülm və məşəqqətlərə dünyanın münasibəti necə idisə, Balayanın həbsinə və cinayət məsuliyyətinə cəlb edilməsinə münasibət də elə olmuşdu. Məsələ ikili standartlar prizmasından dəyərləndirilmişdi. Nəzərə alaq ki, bu məxluq, eyni zamanda, 1994-cü ildə Bakı Metropolitenində törədilmiş qanlı terror əməllərinin də təşkilatçılarından olmuşdu. Yəni ona cinayət işi həm də buna görə açılmışdı.



Z.Balayan 1935-ci ildə Xankəndidə doğulmuşdu. O və erməni millətçiləri Zoriyə yazıçı, həkim, ictimai-siyasi xadim deyirdilər. Əlbəttə, yuxarıda canlandırdığımız səhnəyə görə bütün bu vəzifə və statuslar boşdur. Balayan, sözün əsl mənasında, cəllad, XX əsrin sonlarına doğru baş qaldırmış erməni separatizminin obrazı və siması idi. Onu da nəzərə alaq ki, bu, cəlladın Xocalıya qədərki keçdiyi yol olmuşdu.

Bəli, Z.Balayan keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycan SSR-dən alınaraq, Ermənistan SSR-ə birləşdirilməsinin əsas ideoloqlarından idi. Yəni o, "Miatsum" avantürasının əsas ideoloqlarından olmuş, hətta bir qədər "irəliyə" də getmişdi. Belə ki, Balayan 1988-ci ildə erməni şairi Silva Kaputikyan ilə birlikdə SSRİ rəhbəri Mixail Qorbaçovla görüşərək, Qarabağ məsələsini qaldırmışdı. Daha doğrusu, Qorbaçovdan Qarabağı istəmişdi. Balayan, həmçinin özünün "Ocaq" kitabında bölgənin erməni torpağı olması ideyasını irəli sürmüşdü. "Ocaq" barədə bir qədər sonra.

Hələlik, onu deyək ki, Z.Balayan çox yaşadı. Hər halda, günümüzün reallıqlarını nəzərə alsaq, 91 yaş az deyil. Qəribə səslənsə də, deməliyik ki, Zorinin uzun ömür sürməsi yaxşı oldu. O, "Miatsum"un 2020-ci ilin 44 günlük müharibəsi ilə can verdiyini, 2023-cü ilin sentyabrında Azərbaycan Silahlı Qüvvələrinin lokal xarakterli antiterror tədbirləri ilə canını tapşırdığını, tarixin zibilliyinə göndərilib gorbagor olduğunu gördü. Yəni sağ ikən ölüyə çevrildi. Əlbəttə, birmənalı şəkildə demək olmaz ki, Balayan yaşananlara – Ermənistanın acınacaqlı məğlubiyyətinə, Qarabağ itkisinə görə yandı-yaxıldı. Axı beləlləri gerçək ideya adamı yox, saxtakar və psixoloji xəstə olurlar. Hər halda, gerçək ideya və ideologiya zülmə və qəddarlığa bəraət qazandıra, insanlıq əleyhinə cinayətləri təbliğ edə bilməz. Deməli...

Z.Balayanı əleyhimizə olan, taleyimizə məşəqqətlər yazan zaman özü yetişdirərək ortaya atmışdı. O zaman ki, onun at oynadanları, söz sahibləri Cənubi Qafqazda münaqişə ocağı yaratmaq ssenarisini qurmuşdular. Qurmuşdular ki, regionda təsirlərini qoruyub saxlasınlar. Qurmuşdular ki, Azərbaycan və erməni xalqlarının düşmənçiliyi üzərində özlərinin məkrli siyasətlərini yeritsinlər. Belələri üçün Balayan qəhrəman idi. Onlar qəhrəmanı ucaldır, yüksəklərə daşıyır, şəninə layiq olmadığı xoş sözləri sıralayırdılar. Xoş sözlərdən və təriflərdən söz düşmüşkən, Z.Balayan 2016-cı ildə Moskvada 8 cildlik əsərlər toplusunun təqdimatını keçirmişdi. Şəhərin İncəsənət İşçiləri Sarayında gerçəkləşmiş tədbirin təşkilatçılarına diqqət yetirin: Rusiya Yazıçılar Birliyi, Rusiya Jurnalistlər Birliyi, "Literaturnaya qazeta" və "Bədii ədəbiyyat" federal nəşriyyat evi. Əsərlər toplusunda Balayanın bütün məqalələri, reportajları, o cümlədən haqqında söz açdığımız bədnam "Ocaq" yer alıb. O "Ocaq" ki, bütövlükdə Azərbaycan əleyhinə yönəlmişdi. Balayan əsərdə tarixi təhrif edərək, Qarabağın və Naxçıvanın qədim erməni torpağı olduğunu iddia etmiş, həmçinin, türkləri və azərbaycanlıları həm Rusiyanın, həm də Ermənistanın düşməni adlandırmışdı.

Hər şey aydındır. Təntənəli təqdimat mərasimi keçirilmişdisə, deməli, Z.Balayanın "tarixi xidmətləri" unudulmamışdı. Bəli, tam əminliklə demək olar ki, Z.Balayan rus imperializminin Azərbaycan və erməni xalqları arasında düşmənçilik yaratmaq planlarındakı obraz idi. O obraz ki, onun ölümünə nəinki Azərbaycanda, elə Ermənistanın özündə də hiddət pəncərəsindən baxanlar, "gəbərdi" deyərək reaksiya verənlər var. Axı məhz balayanların və digər yanların "ayı xidmətlərindən" bəhrələnmiş imperializm yaratdığı düşmənçiliklə təkcə Cənubi Qafqaz xalqları arasına nifaq toxumları səpmədi, eyni zamanda, bütövlükdə regionun inkişafını ləngitdi.

Sonda bir məqamı da diqqətə çatdıraq. Məlum olduğu kimi, bu gün də Rusiyada Qarabağ kartını işə salmaq, əvvəlki dövrü geri qaytarmaq, yeni balayanlar tapmaq istəyənlər var. Heç şübhəsiz, onların istəkləri həyata keçməyəcək, bu, öz yerində. Amma Balayanın ölümündən söz açırıqsa, deməliyik ki, bu hadisə regiona nifaq toxumu səpmək arzusuna düşənlər üçün də ölümə bərabər olaydır. Yəni onlar çox asanlıqla Zori barədəki "gəbərdi" ifadəsi ilə özlərinin siyasi aqibətləri arasında paralel apara bilərlər.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Azərbaycanşünaslığın inkişafı və azərbaycançılıq konsepsiyası



## I MƏQALƏ

### Dövlətin əsas ideyası

Ümumiyyətlə, fəlsəfədə "ideya" anlayışı əsas yerlərdən birini tutur. Onun müxtəlif izahları vardır. Platon mənasında ideya reallığın proobrazıdır. Yəni reallıq ideyaya uyğun qurulur (Platon idealist idi). Deməli, Paltona görə, ideya dəyişməz mahiyyətdir. O, dəyişən, hissi əşyalar dünyasından ayrı mövcuddur.

Materialistlərə görə, ideya reallığı müəyyən etmir, əksinə, ideya reallığı əks etdirir. Bu anlayışın dinin fəlsəfəsində özəl anlamı vardır. Lakin bütün hallarda ideyaya fəlsəfədə böyük əhəmiyyət verilir.

Birincisi, ideya zəka ilə dərk edilir. Yəni o, insanın yüksək rasional dərketmə qabiliyyətinə aiddir. Hesab olunur ki, buna görə ideya hadisələrin əsas və mahiyyətə aid xüsusiyyətlərini fərqləndirə bilir. Yəni ideyanın yüksək idraki rolu vardır.

İkincisi, ideya fikri proobrazdır. Bu keyfiyyətdə o, insan təfəkkürü və fəaliyyətinin əsasını formalaşdırır.

Üçüncüsü, ideya öz kontekstinə uyğun olaraq insanı dünyaya "daxil" edir.

Bunlar geniş fəlsəfi-elmi ədəbiyyatda rast gəlinən və ideya haqqında ən ümumi təsəvvürləri ehtiva edən məqamlardır. Onları ümumiləşdirsək, alarıq ki, ideya "ali məqsədi müəyyən edir". Bu tezis bizim üçün dövlətin əsas ideyası anlayışına keçid məsələsində əhəmiyyətlidir.

Beləliklə, hər hansı bir dövlətin əsas ideyası cəmiyyətin mövcudluğu və inkişafı haqqında elə bitkin, obyektiv və hərəkətverici təsəvvürdür (İbn Rüşt mənasında - obraz+onun məntiqi təsdiqi) ki, dövlət-cəmiyyət-qövm vəhdətinin ekzistensial varlığını (yəni mövcudluğun ontoloji olaraq gerçəkləşməsini) təmin edir.

Buradan alınır ki, dövlətin əsas ideyası onun mahiyyətinə uyğun müəyyən edilməklə yanaşı, gerçəkləşməsi üçün adekvat praktiki fəaliyyəti də özündə ehtiva etməlidir. Bu isə konkret zaman-məkan kontinuumunda konsepsiya ilə praktiki reallaşmanın bir-birini tamamlamasını tələb edir.

Bu qısa nəzəri-konseptual özəlliklər prizmasında müstəqil Azərbaycanın əsas ideyasına baxaq.

### Müstəqil Azərbaycan dövlətinin əsas ideyası

Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin əsas ideyasını aşağıdakı kimi ifadə etmişdir: "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq".

Deməli, ən geniş anlamda Azərbaycan dili, milli-mənəvi dəyərləri, adət-ənənələri vəhdət halında azərbaycançılığın əsasını təşkil edir. Azərbaycan dövləti də bu anlamda azərbaycançılığı özünün əsas ideyası kimi yaşatmalıdır. Təbii ki, dövlət həmin məqsəd naminə sistemli, daim inkişaf etdirilən konsepsiyalar hazırlamalı və onları dövlət-cəmiyyət-millət vəhdətində davamlı olaraq reallaşdırmalıdır.

Prezident İlham Əliyev azərbaycançılıq ideyası və ideologiyasının inkişaf etdirilməsi zərurəti haqqında konkret və dəqiq fikir ifadə etmişdir. Dövlət başçısı demişdir: "Azərbaycançılıq ideologiyası, azərbaycançılıq prinsipləri Azərbaycanda çoxdan bərqərar olub. Ulu öndər Heydər Əliyevin bizə qoyduğu dəyərli miraslardan biri də məhz azərbaycançılıq məfkurəsidir. Biz - onun davamçıları isə bu müsbət meyilləri öz tərəfimizdən daha da gücləndiririk".

Azərbaycan lideri azərbaycançılıq ideyası və ideologiyasının müstəqil dövlət quruculuğu kontekstində məzmununu da dolğun müəyyən etmişdir. Pezident İlham Əliyev demişdir: "Azərbaycanda müasir dövlət quruculuğu prosesi uğurla gedir. Eyni zamanda, biz milli-mənəvi dəyərlərimizə də çox sadiqik, onları qoruyuruq. Azərbaycan dəyərləri bizim üçün müstəsna əhəmiyyət daşıyır. Əsrlər boyu Azərbaycan xalqı milli-mənəvi dəyərlərini, ana dilini – Azərbaycan dilini qoruya bilmişdir. Bu gün müasir Azərbaycan dövləti bu möhkəm təməl üzərində yaranır, güclənir və bölgədə, regionda artıq çox mühüm amilə çevrilibdir".

Dünya azərbaycanlılarının III qurultayındakı nitqində (05 iyun 2011-ci il) Azərbaycan Prezidenti geniş aspektdə azərbaycançılığın dövlət quruculuğu və cəmiyyətin inkişafında rolu və Azərbaycan qövmünün tarixi missiyası haqqında əsas tezislərini ifadə etmişdir: "Azərbaycanlılar harada yaşamalarından asılı olmayaraq, daim öz milli-mənəvi dəyərlərinə, milli köklərinə sadiq olmalıdırlar. Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır. Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olub. Azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir".

Nəhayət, Prezident İlham Əliyev tərəfindən azərbaycançılıq ideyası, prinsipi və ideologiyasının beynəlxalq kontekstdə mənalandırılması çox əhəmiyyətlidir. Bu bağlılıqda dövlət başçısının aşağıdakı fikirləri hər bir azərbaycanlı - ziyalı, fəhlə, gənc, qoca, məmur və digər bütün təbəqələr üçün dövlət quruculuğu kontekstində yaşam tərzi, fəaliyyət kompası olmalıdır: "Bizi fərqləndirən əlamət ondan ibarətdir ki, harada yaşamağımızdan asılı olmayaraq, öz Vətənimizə bağlıyıq. Bura bizim vətənimizdir, hamımızın vətənidir. Müstəqil Azərbaycan bütün azərbaycanlıların vətənidir. Bizim bir vətənimiz var - Azərbaycan! Bizim bir dilimiz var – Azərbaycan dili! Bizim ümumxalq ideologiyamız var – azərbaycançılıq məfkurəsi! Mən arzu edirəm ki, dünyada yaşayan bütün azərbaycanlılar həmişə bir yerdə olsunlar. Həmişə bilsinlər ki, onların arxasında güclü Azərbaycan dövləti dayanır və onlar hər zaman Azərbaycan dövlətinə arxalana bilərlər".

### Azərbaycançılıq ekzistensial amil kimi

Azərbaycan türk dövlətidir. Bu, əbədi həqiqətdir. Azərbaycançılıq olmasa, ümumiyyətlə, Azərbaycan dövlət kimi davamlı mövcud ola bilməz. Yəni azərbaycançılıq, bir çoxlarının təhrif etdiyi kimi milli etnik mənsubiyyəti deyil, dövlətin hər bir vətəndaşının ölkə, cəmiyyət və birgəyaşam forması haqqında ideyanı ifadə edir. Uzun müddət Turandan (haqlı olaraq, İrandan (tarixi-coğrafi əsası vardır) danışmışıq, ancaq konkret Azərbaycan ölkəsi haqqında dəqiq müəyyən edilmiş mövqeyimiz (ölkəyə münasibət baxımından) olmasa¸ müstəqil Azərbaycan dövləti qura bilmərik. Müstəqil Azərbaycan dövləti olmasa, Türk dünyasının "qəlbi dayanmış olar". Bu mənada, düzgün dərk edilmiş azərbaycançılıq ideya, prinsip və ideoloji konsept kimi bizim üçün ekzistensial hökmü olan "Böyük Yol"un mayaklarıdır!

Buradan çıxış edərək qonşu ölkələr, türk dövlətləri, dünyanın hər bir guşəsində olan ölkələrlə münasibətlər qurmağın perspektivli fəlsəfi və siyasi-nəzəri yönünü müəyyən edə bilərik.

Bu reallıq azərbaycançılığı bizim üçün ayrıca əhəmiyyətli faktora çevirir, çox incə, sayğılı və perspektivi olan kurs müəyyən etməyi aktuallaşdırır. Şükürlər ki, belə çətin və mürəkkəb vəzifənin öhdəsindən ulu öndər Heydər Əliyev məharətlə gələrək dəqiq inkişaf kursu müəyyən etmişdir və Prezident İlham Əliyev onu uğurla inkişaf etdirir. İndi müstəqil Azərbaycan dövlət quruculuğu Heydər Əliyev–İlham Əliyev xətti üzrə davamlı inkişaf etdirilir.

### Humanitar elmdə azərbaycançılıq

Yuxarıda qısa şəkildə vurğulanan məqamlar belə bir avtomatik nəticə çıxarmağa istiqamətləndirir: Müasir Azərbaycan humanitar elmi təfəkkürü üçün azərbaycançılıq fundamental idraki əhəmiyyət daşıyır. Bu, obrazlı desək, cəmiyyətlə yanaşı, humanitar elmimiz üşün də ekzistensial aktuallıq kəsb edir.

Həmin anlamın digər aspekti XXI əsrin xüsusiyyətləri ilə sıx bağlıdır. Belə ki, XXI əsrdə aparıcı rolu cəmiyyət oynayır. Cəmiyyət bir sistem kimi özlüyündə aparıcı ideyanı, onun funksionallığını, hərəkətverici gücünü və kollektiv kimliyi layiqli təmsiletmə keyfiyyətini ehtiva edir.

Daxili və xarici ekzistensial mövcudluq şərtləri fonunda azərbaycançılığın adekvat elmi dərkinin Azərbaycan dövlətçiliyi və cəmiyyətin bütövlüyü üçün nə dərəcədə yüksək əhəmiyyət kəsb etdiyi aydın görünür. Bu kontekstdə AMEA-nın yeniləşməsində birinci prioritet istiqamətin nəyə görə birbaşa azərbaycançılıq və azərbaycanşünaslıqla bağlı olduğu səbəbi məlum olur. Həmin prioritet istiqaməti bir daha təqdim edirik:

"– Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin andiçmə mərasimində ifadə olunmuş azərbaycançılıq ideologiyasının elmi-nəzəri və tarixi-fəlsəfi əsaslarının işlənib hazırlanması və bütün istiqamətlər üzrə həyata keçirilməsi ölkə elminin, Azərbaycan Milli Elmlər Akademiyasının qarşısında duran əsas vəzifələrdəndir. AMEA-nı ölkəmizin əsas Azərbaycanşünaslıq mərkəzinə çevirmək bizim əsas vəzifəmizdir".

Burada iki məqamı vurğulamaq lazım gəlir. Birincisi, azərbaycançılıq təməlli azərbaycanşünaslığın daim aktuallaşması zərurəti vurğulanır. İkincisi, bu vəzifə əslində bütövlükdə müasir Azərbaycan humanitar elmi qarşısında durur.

Həmin vəzifənin öhdəsindən gəlmək ölkə elmi camiəsinin qarşısında dayanıbsa, deməli, bütövlükdə Azərbaycan ziyalı kəsiminin həmin istiqamətdə birgə fəaliyyəti tələb olunan əsas şərtlərdən biridir. Həmin anlamda AMEA tədqiqatların koordinasiyaedici və motivəedici mərkəzi rolunu oynamaq məsuliyyətini öz üzərinə götürə bilər.

Ümumiyyətlə, Azərbaycan humanitar elmi təfəkküründə azərbaycançılığın ideya olaraq həmişə yeri olmuşdur. Bunu həmin istiqamətdə aparılan tədqiqatlar sübut edir. Porblemin bu aspekti əsasən filoloji tədqiqatlar çərçivəsində araşdırılmışdır. Həmin tədqiqatlaırn nəzəri-konseptual təhlilinə xüsusi monoqrafiyalar da həsr edilmişdir. Burada onların hər biri üzərində ayrıca dayanmaq imkansızdır. Həm də həmin elmi problem müxtəlif aspektlərdən tədqiq edilmişdir. Biz burada akademik İsa Həbibbəylinin 2019-cu ildə nəşr edilmiş "Azərbaycan ədəbiyyatı: dövrləşmə konsepsiyası və inkişaf mərhələləri" (Bakı, "Elm", 2019, 368 s.) adlı əsərində yer almış və birbaşa azərbaycançılığa aid olan əsas müddəalara nəzər salacağıq.

*(ardı var)*

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

---

**ABŞ/İsrail – İran arasında 39 gündür davam edən hərbi münaqişə, şübhəsiz, bütün dünyanın diqqətini Yaxın Şərqə yönəldib. Hərbi əməliyyatlar lokal müstəvidən çıxaraq, qlobal enerji bazarlarına və beynəlxalq logistika marşrutlarına birbaşa təsir edən genişmiqyaslı böhrana çevrilib. Mövcud mənzərə onu deməyə əsas verir ki, baş verənlər Yaxın Şərqin siyasi xəritəsini və qlobal güc iyerarxiyasını yenidən formalaşdıra biləcək köklü dəyişikliklərin carçısıdır. Təbii ki, gərginliyin dəqiq nə vaxt yekunlaşacağını proqnozlaşdırmaq çətindir, lakin bəzi nüansları, xüsusilə son günlər tərəflər arasında müzakirə olunan 45 günlük müvəqqəti atəşkəs planını diqqətdən qaçırmaq olmaz.**

# Yaxın Şərqdə 45 günlük fasilə və Trampın "9-cu qələbəsi"

*Müvəqqəti atəşkəs mövcud gərginliyi aradan qaldıra bilərmi?*

Nüfuzlu "Axios" portalının yaydığı məlumata görə, ABŞ və İran hazırda 45 günlük müvəqqəti atəşkəs imkanlarını müzakirə edirlər. Nəşr qeyd edir ki, müzakirələrin intensivliyinə baxmayaraq, tərəflərin gərgin ritorikası yaxın 48 saat ərzində konkret razılığın əldə olunma ehtimalını azaldır. ABŞ Prezidenti Donald Tramp son açıqlamasında Tehrana verdiyi vaxtı növbəti dəfə dəyişərək, son möhlətin çərşənbə axşamı saat 20:00-da başa çatacağını bildirdi. Ağ Ev sahibinin İran qarşısında qoyduğu seçim olduqca kəskindir: Tehran ya Hörmüz boğazını gəmilərin hərəkəti üçün tam açmalı, ya da ölkənin enerji infrastrukturunun məhv edilməsi riski ilə barışmalıdır. Trampın sərt paylaşımından dərhal sonra İran Silahlı Qüvvələrinin "Xatəm əl-Ənbiya" Mərkəzi Qərargahının komandanı Əli Əbdüllahi cavab bəyanatı ilə çıxış edərək bildirib ki, İran infrastrukturuna yeni zərbələr endiriləcəyi təqdirdə ABŞ və İsrail üçün "cəhənnəm qapıları" açılacaq. Bu bəyanat bir daha təsdiqləyir ki, rəsmi Tehran geri çəkilmək niyyətində deyil və keçən hər gün bu qərarın daha da sərtləşdiyini nümayiş etdirir.

Digər tərəfdən, Ağ Ev hərbi təzyiq rıçaqlarını əlində saxlamaqla münaqişədən maksimum siyasi qazancla çıxmağa çalışır. Vaşinqtonun strateji hədəfi bölgədə İranın nüfuzunu minimuma endirmək, mümkün olarsa, tamamilə neytrallaşdırmaqdır. Bu mürəkkəb mənzərədə Donald Tramp, hələ ki, diplomatik kanalları qismən açıq saxladığını nümayiş etdirir. Xatırladaq ki, Tramp münaqişə çərçivəsində İrana ilkin olaraq martın 22-də 48 saatlıq vaxt vermiş, daha sonra danışıqların gedişatından asılı olaraq bu müddəti əvvəlcə 5 gün, martın 26-da isə aprelin 6-na qədər daha 10 gün artırmışdı. ABŞ Prezidenti iqtisadi təzyiq yolu ilə olsa belə, münaqişəni öz şərtləri daxilində yekunlaşdırmaqda israrlıdır.

* * *

Hazırda ABŞ/İsrail–İran gərginliyi artıq bir çox istiqamətlərə, xüsusən də logistika və enerji daşıyıcılarına ciddi təsir göstərib. Bu iki sahə müasir iqtisadiyyatın lokomotividir. Əgər enerji və nəqliyyat qiymətləri qalxırsa, bu, istər-istəməz digər sahələrdə də bahalaşmaya səbəb olur. Gərginlik fonunda Hörmüz boğazı və Qırmızı dəniz marşrutlarının təhlükə altına düşməsi qlobal iqtisadiyyatı enerji inflyasiyası ilə üz-üzə qoyub. Dünya neft ticarətinin təxminən 25 faizinin keçdiyi boğazda risklər Brent markalı neftin qiymətinin qısa müddətdə 100 dollar barel həddini aşmasına səbəb olub ki, bu da istehsalatda birbaşa xərc artımına gətirib çıxarıb. Ötən gün İranın xarici işlər naziri Abbas Əraqçi fransalı həmkarı Jan-Noel Barro ilə telefon danışığı zamanı bildirib ki, İranın enerji infrastrukturuna hücumun nəticələri yalnız İran və regionla məhdudlaşmayacaq, qlobal enerji və iqtisadiyyata dağıdıcı təsir göstərəcək.

**Siyasi icmalçı Tofiq Abbasov** isə hesab edir ki, təklif olunan müvəqqəti atəşkəs, sa-



dəcə, zaman qazanmaq cəhdidir. Politoloqun qənaətinə görə, artıq regionda strateji təşəbbüs və üstünlük İranın tərəfinə keçib. Daxili obyektlərin hədəf alınması və ya iqtisadi-energetik infrastrukturun sıradan çıxarılması ilə bağlı hədələr İran tərəfindən ciddi qəbul edilmir. Tehranın mesajı aydındır: "Əgər qarşılıqlı hörmətə əsaslanan dialoq istəyirsinizsə, aldatma və manipulyasiya metodlarından əl çəkməlisiniz".

ABŞ-ın daxili siyasi konyunkturunun, xüsusilə Donald Trampın qərar qəbuletmə mexanizmlərindəki rolunun birbaşa yəhudi lobbisinin və Təl-Əvivin maraqları tərəfindən diktə olunduğunu deyən T.Abbasov belə bir şəraitdə Tehranın Vaşinqtona bel bağlaması və ya hansısa illüziyalara qapılmasının mümkünsüz olduğunu bildirib: "Maraqlıdır ki, İranın qonşuları ilə münasibətləri fonunda vaxtilə böyük səs-küyə səbəb olan "İbrahim sazişi" bu gün öz aktuallığını itirib. Çünki İran bu formatın regional maraqlara cavab vermədiyini və ABŞ-ın ərəb müttəfiqlərini deyil, yalnız İsrailin maraqlarını prioritet seçdiyini nümayiş etdirdi. Hazırda Qətər, Oman və Bəhreyn kimi ölkələrdə müşahidə olunan siyasi "oyanış" və yenidənqiymətləndirmə prosesləri məhz bu reallıqdan qaynaqlanır. Yekun olaraq qeyd etmək olar ki, İran strateji üstünlüyünü qorumaq üçün geri addım atmayacaq və bu, onun regional güc olaraq suveren haqqı kimi dəyərləndirilir".

**Ehtiyatda olan polkovnik, hərbi ekspert Şair Ramaldanovun** fikrincə, Trampın "3-4 həftəlik" planı hazırkı vəziyyətdə ən çox elə Vaşinqtonun özünə zərər verir. ABŞ-ın logis-



tika xətti 13 min kilometr məsafədədir və aviasiyanın, hərbi bazaların resurslarını belə uzaq məsafədən bərpa etmək həm baha başa gəlir, həm də vaxt tələb edir. Digər tərəfdən, ABŞ Konqresinin 60 günlük limiti gündəmdədir. 1973-cü ildə qəbul edilmiş Müharibə Səlahiyyətləri Qətnaməsinə əsasən, ordu 60 gündən artıq hərbi əməliyyatlarda iştirak edə bilməz. Hazırda Konqres Trampın müharibə siyasətini dəstəkləmir. Bu səbəbdən o, vaxt tamamlanmadan prosesi yekunlaşdırmağa çalışır.

Digər tərəfdən, hesablamalara görə, münaqişənin gündəlik xərci orta hesabla 1 milyard dollardır. ABŞ-ın atdığı yüksək dəqiqlikli raketin qiyməti onun vurduğu obyektin dəyərindən qat-qat bahadır. Bu isə müharibənin iqtisadi səmərəliliyini sual altına qoyur. Nəticə etibarilə, ABŞ ilə İran arasında 45 günlük atəşkəs müzakirə olunsa da, tərəflərin şərtləri bir-birinə ziddir. Güman olunur ki, Tramp növbəti mərhələdə münaqişəni nə yolla olur-olsun sonlandırmağa və bunu "9-cu dayandırılmış münaqişə" kimi aktivinə yazmağa çalışacaq.

**Ankara Universitetinin professoru, politoloq Toğrul İsmayıl** hesab edir ki, hazırda gərginliyin mərkəzində Hörmüz boğazı dayanır: "Bu dar su yolu qlobal iqtisadiyyatın



"boğaz nöqtəsi"dir. Dünya neft ticarətinin təxminən beşdəbiri məhz buradan keçir. İranın bu boğazı bağlamaq və ya nəzarəti sərtləşdirmək ehtimalı, faktiki olaraq, qlobal iqtisadi sistemə birbaşa təzyiq aləti kimidir". Politoloqun fikrincə, Tehran bu kartdan son ana qədər istifadə etməyə çalışacaq, lakin onu tam bağlaya bilməz: "Çünki bu, artıq təkcə ABŞ-ı deyil, Çin, Hindistan və Avropa kimi böyük enerji istehlakçılarını da birbaşa qarşısına almaq deməkdir. Belə bir addım beynəlxalq hüquq müstəvisində də sərt reaksiyalara səbəb olar və hərbi müdaxilə ehtimalını ciddi şəkildə artırar.

Bu nöqtədə Türkiyə üçün yaranan vəziyyət xüsusi diqqət tələb edir. Ankara nə İranla açıq qarşıdurma, nə də regionda nəzarətsiz eskalasiyada maraqlı deyil. Türkiyənin strategiyası bir tərəfdən NATO üzvü kimi Qərblə koordinasiya, digər tərəfdən isə İranla dialoq kanallarının açıq saxlanılması kimi ənənəvi balans üzərində qurulub.

Hörmüz böhranı dərinləşərsə, Türkiyə üçün 3 əsas strateji istiqamət ön plana çıxacaq. Birincisi, son illər müxtəlif münaqişələrdə qazandığı təcrübəyə əsaslanan diplomatik vasitəçilik missiyasıdır ki, Ankara bu rolu ilə gərginliyi azaltmaq üçün yenidən mərkəzi platformaya çevrilə bilər. İkincisi, enerji təhlükəsizliyi məsələsidir. Hörmüz marşrutuna alternativ olaraq Xəzər hövzəsi və Mərkəzi Asiya resurslarının Türkiyə üzərindən daşınması ölkənin strateji əhəmiyyətini daha da artıracaq. Üçüncüsü isə regional təhlükəsizlikdir: Türkiyə birbaşa hərbi qarşıdurmadan yayınmağa çalışsa da, dəniz nəqliyyatının təhlükəsizliyini təmin edən beynəlxalq mexanizmlərdə və logistik layihələrdə dolayı yolla iştirakını genişləndirəcək.

Nəticə etibarilə, qarşıdakı dövrdə əsas sual atəşkəsin baş tutub tutmaması deyil, onun nə qədər davamlı və nə qədər funksional olacağıdır. Hörmüz "düyünü" açılmadıqca isə Yaxın Şərqdə gərginlik qalmaqda davam edəcək. Bu isə o deməkdir ki, regionda hər an daha böyük toqquşmaya keçid riski saxlanılır".

***Tacir SADIQOV***
***XQ***

# Azərbaycan Gürcüstanla Cənubi Qafqazın iqtisadi xəritəsini yenidən formalaşdırır



**Azərbaycan və Gürcüstan əlaqələri tarixi köklərə, ortaq siyasi maraqlara, eləcə də enerji, nəqliyyat, logistika və tranzit sahəsində qarşılıqlı əməkdaşlığa əsaslanır. Hər iki ölkə müstəqil olduqdan sonra Cənubi Qafqaz sürətli inkişaf yolu keçib. Regionun inkişafı 30 ildən artıq etnik və siyasi münaqişələrlə, geosiyasi qeyri-müəyyənliklərlə müşayiət olunsa da, çətin geosiyasi şəraitdə Azərbaycan və Gürcüstan sabitlik adası kimi çıxış edib, Avropa ilə Asiyanın qovşağında böyük layihələr həyata keçiriblər.**

Aprelin 6-da Prezident İlham Əliyevin Gürcüstana dövlət səfəri qarşılıqlı münasibətləri daha da irəli aparmaq üçün mühüm addımdır. Dövlət başçısının Gürcüstan Prezidenti Mixeil Kavelaşvili və Baş naziri İrakli Kobaxidze ilə təkbətək görüşü olub. Söhbət zamanı Azərbaycan–Gürcüstan ikitərəfli əlaqələrinin dostluq, mehriban qonşuluq və strateji tərəfdaşlıq prinsiplərinə əsaslandığı qeyd edilərək, əməkdaşlığın müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, energetika, "yaşıl enerji", nəqliyyat, sərmayələr və digər sahələrdə uğurla inkişaf etdiyi bildirilib. Həmçinin Azərbaycan ilə Gürcüstanın birgə həyata keçirdikləri nəqliyyat və enerji layihələrinin önəmi vurğulanıb, strateji və iqtisadi əhəmiyyəti qeyd edilib.

Ötən illər ərzində rəsmi Bakı və Tbilisinin münasibətləri qonşuluq əlaqələri çərçivəsini aşaraq strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Məlum olduğu kimi, iki ölkə arasında iqtisadi inteqrasiyanın əsasını enerji layihələri təşkil edir. Xəzər hövzəsinin zəngin karbohidrogen ehtiyatlarının dünya bazarlarına çıxarılmasını təmin edən Bakı–Tbilisi–Ceyhan neft kəməri bu baxımdan dönüş nöqtəsi hesab olunur. 2006-cı ildə istismara verilən kəmər Azərbaycanın enerji resurslarını Aralıq dənizinə çatdırmaqla yanaşı, Gürcüstanı mühüm tranzit ölkəyə çevirib.

Nəqliyyat və logistika sahəsində əməkdaşlıq da son illərdə keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Bakı–Tbilisi–Qars dəmir yolu xətti bu istiqamətdə ən mühüm layihələrdən biridir. 2017-ci ildə istifadəyə verilən bu dəmir yolu Çin ilə Avropa arasında yükdaşımaların müddətini əhəmiyyətli dərəcədə azaldaraq regionu beynəlxalq ticarət marşrutlarının mərkəzinə çevirib. Bu xətt, eyni zamanda, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun – daha çox Orta Dəhliz kimi tanınan layihənin əsas komponentlərindən biridir.

Prezident İlham Əliyev Gürcüstana səfəri çərçivəsində ölkənin Baş naziri ilə birgə mətbuata bəyanatlarla çıxış edərkən bildirib ki, Orta Dəhliz Azərbaycan və Gürcüstan ərazisindən keçir və bu, bizim üçün əsas nəqliyyat damarıdır. Bunu genişləndirmək üçün əlavə səylər də göstərilir və göstəriləcək.

* * *

Yeri gəlmişkən, Orta Dəhliz çərçivəsində Azərbaycan və Gürcüstanın rolu xüsusilə diqqətəlayiqdir. Çin, Mərkəzi Asiya, Xəzər dənizi, Cənubi Qafqaz və Türkiyə üzərindən Avropaya uzanan bu marşrut alternativ "İpək yolu" funksiyasını yerinə yetirir. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı ilə Gürcüstanın Poti və Batumi limanları arasında qurulan multimodal əlaqələr isə yükdaşımaların səmərəliliyini artıraraq regionu qlobal logistika zəncirinin ayrılmaz hissəsinə çevirir.

İqtisadi münasibətlərin digər mühüm istiqaməti ticarət və investisiya sahəsidir. Azərbaycan Gürcüstanın əsas enerji təchizatçılarından biri olmaqla yanaşı, bu ölkənin iqtisadiyyatına ən çox investisiya yatıran dövlətlərdən biridir. Eyni zamanda Gürcüstan Azərbaycan məhsulları üçün mühüm ixrac bazarı kimi çıxış edir. Ticarət dövriyyəsində əsas payı enerji məhsulları təşkil etsə də, son illərdə kənd təsərrüfatı, sənaye və tikinti materialları kimi qeyri-neft sektorunda da artım müşahidə olunur.

Qeyd edək ki, hər il 2 milyard kubmetrdən çox təbii qaz, eləcə də neft və neft məhsulları ölkənin enerji təhlükəsizliyinə mühüm töhfə verir. Bütün bu tədarüklər isə sabitlik və bazar üçün məqbul qiymət prinsipləri əsasında həyata keçirilir.

Enerji əməkdaşlığının daha genişmiqyaslı mərhələsi Cənub Qaz Dəhlizi layihəsi ilə bağlıdır. Bu gün Avropanın enerji təhlükəsizliyindən bəhs edilərkən, Azərbaycan və Gürcüstanın rolunu nəzərə almadan bütöv mənzərəni təsəvvür etmək çətindir. Bu boru kəməri vasitəsilə Azərbaycan qazı Avropa bazarına çıxarılır və qitənin enerji təhlükəsizliyinin təminində alternativ mənbə rolunu oynayır. Gürcüstan bu layihədə yalnız tranzit ölkə deyil, həm də enerji təminatında mühüm tərəfdaş kimi çıxış edir. Məhz Cənub Qaz Dəhlizi vasitəsilə "qoca qitə" enerji təminatını şaxələndirərək təhlükəsizliyini möhkəmləndirir.

Bununla yanaşı, müasir dünyada "yaşıl keçid" gündəliyi də getdikcə daha çox ön plana çıxır. Azərbaycan və Gürcüstan bu prosesdə Avropa ilə Asiya arasında etibarlı enerji və nəqliyyat körpüsü funksiyasını yerinə yetirir. Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış strateji enerji əməkdaşlığına dair memorandum Gürcüstanın bu təşəbbüslərdə tranzit ölkə kimi rolunu daha da möhkəmləndirir. Yaxın perspektivdə isə Xəzər hövzəsindən başlayaraq Gürcüstan üzərindən keçəcək və Qara dənizin dibi ilə Avropaya uzanacaq elektrik ötürücü kabel layihəsinin reallaşdırılması planlaşdırılır ki, bu da regionun "yaşıl enerji" ixrac potensialını əhəmiyyətli dərəcədə artıracaq.

Bütün bu amillər onu deməyə əsas verir ki, Azərbaycan ilə Gürcüstan arasında qurulan iqtisadi tərəfdaşlıq regionda sabitliyin və inkişafın əsas sütunlarından biridir. Enerji resurslarının dünya bazarlarına çıxarılması, alternativ nəqliyyat dəhlizlərinin formalaşdırılması və ticarət əlaqələrinin genişlənməsi fonunda bu əməkdaşlıq yaxın illərdə daha da dərinləşəcək və strateji əhəmiyyətini qoruyub saxlayacaq.

*Ekspert rəyi*



**Vüqar BAYRAMOV,**
**Milli Məclisin deputatı**

Azərbaycan ilə Gürcüstan arasında strateji əməkdaşlıq mövcuddur. Nəzərə alsaq ki, Azərbaycan Gürcüstanın enerji təhlükəsizliyinin təmin olunmasında əsas tərəfdaşlardan biridir, bu münasibətlərin əhəmiyyəti daha aydın görünür. Uzun illərdir Gürcüstanın təbii qaz tələbatının böyük hissəsi məhz Azərbaycan tərəfindən qarşılanır və bu sahədə Bakı həlledici rol oynayır.

Ümumilikdə, iki ölkə arasında münasibətlər və əməkdaşlıq səviyyəsi kifayət qədər yüksəkdir. Bu, həm tranzit və nəqliyyat əməliyyatlarında, həm də qarşılıqlı investisiya qoyuluşlarında özünü açıq şəkildə göstərir. Azərbaycan həm dövlət, həm də özəl sektor vasitəsilə Gürcüstan iqtisadiyyatına ən çox sərmayə yatıran tərəflər sırasında yer alır.

Uzun müddət ərzində Azərbaycan Gürcüstanda birbaşa xarici investisiyalar üzrə ilk üçlükdə qərarlaşıb. Bu fakt onu göstərir ki, münasibətlər yalnız siyasi deyil, eyni zamanda, iqtisadi müstəvidə də dərin və dayanıqlıdır. Qarşılıqlı sərmayə axını strateji tərəfdaşlığın real göstəricilərindən biri kimi çıxış edir.

Prezident İlham Əliyevin Gürcüstana səfəri iki ölkə arasındakı münasibətlərdə yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilir. Bu səfər bir tərəfdən strateji əməkdaşlığın daha da möhkəmlənməsinə, digər tərəfdən isə iqtisadi sahədə yeni proqram və layihələrin həyata keçirilməsinə zəmin yaradır.

Bu baxımdan, yaxın perspektivdə Azərbaycan ilə Gürcüstan arasında münasibətlərin daha da genişlənəcəyi, xüsusilə iqtisadi sahədə yeni təşəbbüslərin reallaşacağı gözlənilir. Bu isə hər iki ölkənin iqtisadi inkişafına mühüm töhfə verəcək.

***Musa BAĞIRLI***
***XQ***

# "Hüseyn Cavid" gəmisi Xəzərə qayıdıb

**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin (ASCO) "Hüseyn Cavid" universal quru yük gəmisi təmir olunub. Tərsanə təmiri "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunda həyata keçirilib.**

ASCO-dan verilən məlumata əsasən, vaxtında və yüksək keyfiyyətlə aparılan təmir işləri çərçivəsində gəminin baş və köməkçi mühərrikləri, anbar qapaqları saz vəziyyətə gətirilib, dizel generatorları isə yenisi ilə əvəz edilib. Eyni zamanda, gəmidə boru və elektrikquraşdırma, eləcə də avtomatika və gövdə qaynaq işləri görülüb.

Bundan başqa, gəminin sualtı və suüstü hissələri, göyərtələri, anbar qapaqları təmizlənərək rənglənib. Təmir başa çatdıqdan sonra universal quru yük gəmisi yenidən istismara qaytarılıb.

Qeyd edək ki, "Hüseyn Cavid" quru yük gəmisi 2007-ci ildə Rusiyanın Petrozavodsk şəhərində yerləşən gəmiqayırma zavodunda inşa olunub. Uzunluğu 108,33, eni 16,74 metr olan gəmi 5 min 200 ton yükgötürmə qabiliyyətinə malikdir.

***XQ***




**Asiya İnkişaf Bankı (AİB) CAREC2 Dəhlizinin (Orta Dəhlizin bir hissəsi) inkişafı üzrə strateji yanaşmanın formalaşdırılmasını başa çatdırıb. Bu çərçivədə layihələrin investisiya portfeli 2025-2030-cu illər üçün 3,7 milyard ABŞ dolları məbləğində qiymətləndirilir.**

# Asiya İnkişaf Bankı Orta Dəhlizin inkişafını dəstəkləyir

*Marşrutda ötən il daşımalar 4,7 milyon tona çatıb*

ADB
ASIAN DEVELOPMENT BANK

Bu barədə AİB-in Mərkəzi və Qərbi Asiya Departamentinin regional əməkdaşlıq və əməliyyatların əlaqələndirilməsi şöbəsinin direktoru vəzifəsində fəaliyyətə başa vuran, bu gündən etibarən qurumun Ermənistandakı nümayəndəliyinə rəhbərlik edən Ləziz Sabirova sosial şəbəkədəki hesabında bildirib.

O qeyd edib ki, 2022-ci ildən başlayaraq Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq Proqramı (CAREC) çərçivəsində 12 milyard ABŞ dollarından çox regional investisiya cəlb etmək mümkün olub. Bundan əlavə, Asiya İnkişaf Bankı CAREC Katibliyi qismində proqramın layihə və təşəbbüslərini icra etmək üçün 26 milyon ABŞ dolları məbləğində texniki yardım resurslarının cəlbini təmin edib.

"AİB və Asiya İnfrastruktur İnvestisiya Bankının (AIIB) dəstəyi ilə Xəzər Yaşıl Enerji Dəhlizi layihəsi sayəsində regional enerji əməkdaşlığında mühüm mərhələyə çatdıq, həmçinin 2025-2030-cu illər üçün 3,7 milyard ABŞ dolları məbləğində layihə portfeli ilə CAREC 2 Dəhlizinin inkişafına dair yanaşmanın hazırlanmasını başa çatdırdıq",– deyə L.Sabirova vurğulayıb.

Nümayəndəliyin rəhbəri, həmçinin Çin və Koreya Respublikasının dəstəyi ilə təsis edilmiş CAREC İqlim və Davamlılıq Layihəsinə Hazırlıq Fondunun (CSPPF) yaradılması və istifadəyə verilməsi barədə məlumat verib: "CAREC-in İqlim dəyişikliyi üzrə Fəaliyyət Planı hazırlanıb və tətbiq edilib. Nəqliyyat, ticarət və rəqəmsal texnologiyalar sahələrində CAREC strategiyaları isə qlobal vəziyyətin transformasiyası nəzərə alınmaqla yenilənib".

L.Sabirova qeyd edib ki, bu istiqamətdə atılan addımlar bir sıra əhəmiyyətli təşəbbüslərin, o cümlədən CARTIF-in, BUILD mexanizminin işə salınmasını, intellektual mobillik üzrə yeni işçi qrupunun formalaşdırılmasını, həmçinin CAREC Rəqəmsal Dəhlizinin reallaşdırılmasının növbəti mərhələsinə keçidi təmin edib: "Eyni zamanda, ticarət üzrə siyasət, tranzit prosedurlarının sadələşdirilməsi, "yaşıl səriştə"lərin inkişafı, təbii fəlakət risklərinin maliyyələşdirilməsi və digər istiqamətlərdə irəliləyiş əldə olunub".

Qeyd edək ki, Qazaxıstanın Nəqliyyat Nazirliyinin məlumatına görə, marşrut üzrə yükdaşımaların həcmi sabit müsbət dinamika nümayiş etdirir. 2019-cu ildə bu göstərici 759 min ton, 2020-ci ildə 783 min ton, 2021-ci ildə 586 min ton, 2022-ci ildə 1,485 milyon ton, 2023-cü ildə 2,764 milyon ton təşkil edib, 2024-cü ildə isə 4,484 milyon tona çatıb.

Türk Dövlətləri Təşkilatının (TDT) məlumatına görə, 2025-ci ildə Orta Dəhlizlə yükdaşımaların həcmi 4,7 milyon tona çatıb. 2027-ci ilə qədər Orta Dəhlizin ötürücülük qabiliyyətinin illik 10 milyon tona çatacağı ehtimal olunur. Bu isə Azərbaycanın tranzit potensialını daha da gücləndirəcək və infrastruktura yeni investisiyaların cəlb edilməsinə şərait yaradacaq. Qeyd edək ki, Orta Dəhliz ilə yük daşımaları üzrə 2030-cu il üçün hədəf proqnozu 11,4 milyon tondur.

***XQ***

# Qeyri-neft ixracı 20 faiz artıb

**2026-cı ilin yanvar-fevral ayında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 19,7 faiz artaraq 580,7 milyon ABŞ dolları təşkil edib. Hesabat dövründə yeyinti məhsulları üzrə ixrac isə 30,5 faiz artaraq 200,6 milyon ABŞ dollarına çatıb. Bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin nəşr etdirdiyi "İxrac icmalı"nın mart sayında ətraflı məlumat verilib.**

Qeyd olunub ki, bu növ məhsulların ixracında ən yüksək artım şəkərin payına düşüb. Belə ki, cari ilin ilk 2 ayında Azərbaycandan 13,5 milyon ABŞ dolları dəyərində 20,3 min ton şəkər ixrac olunub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə ixrac dəyər ifadəsində 10,4 milyon dollar və ya 4,3 dəfə, həcm baxımından isə 15,7 min ton və ya 4,4 dəfə artıb. Şəkər ixracı ölkənin yanvar-fevral ayları üzrə ümumi məhsul ixracında 0,37 faiz, qeyri-neft sektoru üzrə ixracda isə 2,33 faiz paya malik olub. Hesabat dövründə dünya bazarına göndərilən pambıq iplik 2,6 dəfə, bitki və heyvan mənşəli piylər və yağlar 2,1 dəfə, alüminium və onlardan hazırlanan məmulatlar 37,4 faiz, pambıq lifi 33,3 faiz, meyvə-tərəvəz 32,7 faiz, spirtli və spirtsiz içkilər 10,9 faiz, çay isə 5,1 faiz artıb.

Nəşrin məlumatına əsasən, bu ilin yanvar-fevral ayında aqrar məhsullar üzrə ixrac 34,6 faiz artaraq 160,9 milyon, aqrar-sənaye məhsulları üzrə ixrac isə 22 faiz artaraq 52,5 milyon dollar təşkil edib. Bütövlükdə isə, hesabat dövründə aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 31,2 faiz çoxalaraq 213,4 milyon dollara çatıb.



İlin ilk 2 ayında ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında qızıl (60,7 milyon dollar) birinci olub. Yeri gəlmişkən, bu qiymətli metalın ixracı ötən ilin eyni dövrü ilə müqayisədə 51 faiz artıb. Siyahıda meşə fındığı (57,4 milyon dollar) ikinci, mis filizləri (44,6 milyon dollar) üçüncü yerdə qərarlaşıb. Fevral ayı ərzində ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında isə meşə fındığı (28,1 milyon dollar) birinci olub. Siyahıda ilk üçlüyü qızıl (27,6 milyon dollar) və mis filizləri (24,1 milyon dollar) tamamlayıb.

"İxrac icmalı"nda 2026-cı ilin yanvar-fevral aylarında ölkəmizin ixrac coğrafiyası haqqında da ətraflı məlumat verilib. Bildirilib ki, yanvar-fevral aylarında Rusiya Federasiyasına 149,1 milyon, Türkiyəyə 83,4 milyon, Gürcüstana 77,2 milyon dollar, İsveçrəyə 67,7 milyon, Ukraynaya isə 29 milyon dollar dəyərində qeyri-neft sektoruna aid mallar ixrac olunub.

Fevral ayında Rusiya Federasiyasına 72,1 milyon, Türkiyəyə 52 milyon, Gürcüstana 45,6 milyon, İsveçrəyə 29,1 milyon, Qazaxıstana isə 13,9 milyon dollar dəyərində qeyri-neft sektoruna aid mallar göndərilib.

Nəşrin məlumatına əsasən, cari ilin yanvar-fevral ayı üzrə hazırlanmış qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin ölkəmizdəki nümayəndəliyi,"AGRARCO" MMC, "Prime Cotton" MMC,"Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC, "Baku Steel Company" QSC, "PRİME LM" Məhdud Məsuliyyətli Cəmiyyəti, "P-AQRO" MMC, "KHAN-EL" MMC, "MORS TRADİNQ" MMC və "STP ALÜMİNİUM" MMC şirkətləri təmsil olunublar.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus şirkətlərin siyahısına isə "AzerGold" QSC başçılıq edir. Bununla yanaşı, "SOCAR POLYMER" MMC, "AZƏRALÜMİNİUM" MMC, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Marketinq və İqtisadi Əməliyyatlar" İdarəsi, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Qaz İxrac İdarəsi, "Socar Cape" MMC, "Sənayecihaz" EİM, "İstisu" Mineral Su Zavodu" Məhdud Məsuliyyətli Cəmiyyəti və "Qaradağ Şüşə Zavodu" ASC də ixrac əməliyyatlarında fəal iştirak ediblər.

"İxrac icmalı"nın məlumatına əsasən, 2026-cı ilin yanvar-fevral aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos) tərəfindən dünyanın 32 ölkəsinə 3 milyon ABŞ dolları dəyərində peyk telekommunikasiya xidmətləri ixrac edilib. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 11 faiz çoxdur. Ümumilikdə isə, "Azərkosmos"un xidmət ixracından əldə etdiyi gəlir qurumun ümumi qazancının 65 faizini təşkil edib.

Hesabat dövründə peyk telekommunikasiya xidmətlərinin ixracına 710,4 min dollarla Birləşmiş Krallıq başçılıq edib. Siyahıda sonrakı yerləri Lüksemburq (545,4 min dollar), İsveç (374,4 min dollar), Türkiyə (162 min dollar) və Pakistan (152,5 min dollar) tutub.

***M.YAQUBZADƏ***
***XQ***

*Sabahın tərəqqi üfüqləri*

# Bakı körfəzi üzərində avtomobil yolu

## *Nəhəng dəniz körpüsü layihəsi gerçəkləşəcəkmi?*

**Artıq 25 ildən çoxdur ki, Bakı buxtası üzərindən keçməklə Bayıl və Zığ qəsəbələrinin birləşdirilməsini nəzərdə tutan körpünün yaradılması ilə bağlı müxtəlif ideyalar səsləndirilir, layihələr irəli sürülür. Ekspertlərin az bir qismi bu arzunun gerçəkləşə biləcəyini vurğulasa da, çoxluq belə bir meqalayihəyə inamsızlıqla yanaşır.**



Məsələyə reallıq baxımından yanaşanlar sırasında Cənubi Koreyada yerləşən “Dong Sung Engineering” şirkəti də yer alır. Bu barədə qurumun hələ 2007-ci ildə Azərbaycan Nəqliyyat Nazirliyinə (indiki Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi) təqdim etdiyi “Bakı körfəzində dəniz körpüsü” adlı layihənin ilkin variantında ətraflı bəhs olunur, eləcə də məsələyə daha sistemli yanaşılaraq sözügedən ideyanın təkcə nəqliyyat layihəsi deyil, həm də Bakının gələcək inkişaf modelini müəyyənləşdirə biləcək strateji şəhərsalma qərarı kimi qiymətləndirilir.

Xatırladaq ki, o vaxt adıçəkilən nazirlik həmin layihəyə əsaslanaraq Qaradağ rayonundan Zığ qəsəbəsinə qədər tikiləcək dəniz körpüsünün ikitərəfli, dördzolaqlı, uzunluğunun isə 13,3 kilometr olacağını, eləcə də paytaxtı əhatə edən dairəvi yola birləşəcəyini vurğulayırdı. Bununla yanaşı, qurum bu infrastrukturun reallaşacağı təqdirdə, Bakıda nəqliyyat sıxlığının azalacağını, paytaxtın daha da müasirləşəcəyini, bir sözlə, ölçüsü və gözəlliyi ilə diqqət çəkəcək bu yol ötürücüsünün regionda aparıcı dövlətə çevrilmiş Azərbaycanın iqtisadi güc nümayişinə çevriləcəyini bildirirdi.

Bütün bunlarla bərabər, layihə haqqında danışan mütəxəssislər oxşar körpülərin ABŞ, Türkiyə, Cənubi Koreya və digər ölkələrdə də mövcud olduğunu, gəmilərin hərəkətinə maneə yaratmamaq üçün yol ötürücüsünün yüksək dayaqlar üzərində tikiləcəyini vurğulayırdılar. Onlar infrastrukturun möhkəmliyini, dayanıqlılığını və elastikliyini gerçəkləşdirmək üçün tirlərdən istifadə olunacağını deyir, eyni zamanda, nəhəng yol ötürücüsünün inşası üçün maliyyə mənbələrini müəyyənləşdirən Koreya şirkətinin körpünün tikintisinə layihənin təsdiqləndikdən sonra başlayacağını və onun 8-10 il ərzində başa çatacağını da diqqətə çatdırırdılar.

Lakin belə bir təşəbbüs Xəzər dənizində tez-tez güclü külək müşahidə edilməsi səbəbindən gerçəkləşmədi və bunun üstündən 5 il ötəndən sonra – 2012-ci ildə Bakı buxtası üzərindən salınaraq Bayıl və Zığ qəsəbələrinin birləşdirilməsini nəzərdə tutan körpünün inşası ilə bağlı yeni bir layihə də Azərbaycan Memarlar İttifaqının Şəhərsalma Şurasında ölkənin tanınmış memarları və Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin mütəxəssislərinin iştirakı ilə müzakirə olundu. Yeri gəlmişkən, müzakirədə Cənubi Koreyanın yuxarıda adıçəkilən “Dong Sung Engineering” şirkətinin “Bakı körfəzində dəniz körpüsü” adlı layihəsinin gözlənilən qədər səmərəli olmayacağını, ən əsası isə Bakının inkişaf konsepsiyasına uyğun gəlməyəcəyini bildirən mütəxəssislər tərəfindən həmin infrastrukturda hərəkət edən nəqliyyat vasitələrinin mənzilbaşına çatmamış körpüdən kənara çıxa bilməyəcəyi, nəticədə isə avtomobil sahibləri üçün narahatlıq yaranacağı da diqqətə çatdırıldı. Bu körpüdən istifadənin hava şəraitindən asılı olacağı, başqa sözlə, sözügedən infrastrukturun yalnız küləyin sürətinin saniyədə 20 metrdən yuxarı qalxmayacağı təqdirdə, işləyə biləcəyi vurğulandı.

O zaman bu layihənin əvəzində mütəxəssislər tərəfindən digər bir təşəbbüsün gerçəkləşməsi də təklif edildi. Məsələn, Bakı Dövlət Layihə İnstitutunun hazırladığı “Bakı şəhərinin mərkəzi hissəsinin müfəssəl Planı”na əsasən, nəqliyyat sıxlığı probleminin həlli məqsədilə Neftçilər prospekti boyunca və ona paralel sualtı avtomobil tunelinin çəkilməsi təklif olundu. Bu təklif Bakının həmin dövrdəki İnkişaf Konsepsiyasında da öz əksini tapdı.

Xatırladaq ki, adıçəkilən təşəbbüsdə tunel Bəhramgur abidəsinin bir neçə yüz metrliyindən başlanır və Dəniz Vağzalının köhnə binasınadək davam edirdi. İnfrastrukturun bulvarın kənarına birləşdirilməsi və onun üstünün torpaqla örtülməsi isə bulvarın eninin 20-30 metr artırılması ilə nəticələnirdi. Körpüdən fərqli olaraq, tunelin cəmi 3,6 kilometr uzunluqda, onun əvvəli və sonu ilə yanaşı, burada daha bir çıxışın olması da nəzərdə tutulurdu. Bu çıxışın isə Azadlıq meydanında yerləşməsi təklif edilirdi. Bu ideya memarların əksəriyyəti tərəfindən dəstəkləndi. Həmin vaxt layihə həm daha az maliyyə tələb etməsi, həm də şəhər landşaftına çox az təsir göstərməsi baxımından yüksək qiymətləndirildi.

Lakin bu layihənin də icrasına başlanılmadı və sözügedən mövzu bir neçə il səngidi. Bu barədə rəsmi və qeyri-rəsmi dairələrdə qısa fikirlər istisna olmaqla müzakirələr aparılmadı. Ancaq 2023-cü il may ayının 23-də Milli Məclisdə təkcə körpü ilə Bakıda tixac problemini həll etməyin mümkün olmayacağı bildirildi.

Eyni zamanda, Bayıl ərazisindən Əhmədli istiqamətinə Xəzər dənizi üzərindən körpü salınması ilə bağlı səsləndirilən fikirlərə toxunularaq bunun bir neçə çətinliklə bağlı olduğunu, belə bir infrastruktur yaratmaq əvəzinə dünyanın ən iri meqapolislərindəki kimi, intellektual şəhəri idarəetmə sisteminin gücləndirilməsinin zəruriliyi diqqətə çatdırıldı. Bütün bunlarla bərabər, bu məsələdə ən ciddi problem kimi urbanizasiya prosesinin yaşandığı, Bakının ümumi tutumunun 2,5-3 milyon insan üçün nəzərdə tutulduğu, lakin paytaxtda, təxminən, 4,5 milyon insan yaşadığı vurğulanaraq, yeganə yolun insanların regionlara köçməsinin təşviq edilməsi olduğu xatırladıldı.

### Eyni məqsəd, fərqli yanaşma

Həmin vaxtdan etibarən Bayıldan Əhmədliyə Xəzər dənizi üzərindən körpü salınması əleyhinə fikirlər bugünədək davam edir. Məsələn, **nəqliyyat eksperti Yasin Mustafayev** nəqliyyatın intensivliyini, sıxlığını aradan qaldırmaq üçün belə bir körpü salınmasının milyard manatlar hesabına başa gələcəyini, onun işlək olub-olmamasının isə bu gün əminliklə deməyin mümkünsüzlüyünü bildirir. Ekspert Bayıldan Əhmədli istiqamətində daşınmaların tıxacları tam azaltmayacağını, tikilməsi müzakirə edilən infrastrukturun, sadəcə, turizmin inkişafı və şəhəri gözəlləşdirmək məqsədi daşıya biləcəyini vurğulayır.

Y.Mustafayev tıxac məsələsinin kompleks şəkildə həll etməyin zəruriliyini də diqqətə çatdırır. Bildirir ki, təkcə bir körpü tikməklə Bakı şəhərinin tıxac məsələsi həll olunmur. İctimai nəqliyyatı təkmilləşdirmək, velosiped və skuterlər üçün infrastruktur yaratmaq, bölgələrdə iş yerləri açmaq lazımdır.

**“İnsanyönümlü şəhərlər” layihəsinin təmsilçisi Arzu Süleymanov** bu təşəbbüsün gerçəkləşməsi nəticəsində iqtisadi səmərəlilik əldə olunacağına şübhə ilə yanaşır. Onun fikrincə, Bakıda tıxacın qarşısını almaq üçün əsas diqqət insanların daşınmasına yönəldilməlidir. Yəni bu körpüyə ayrılacaq vəsait, necə deyərlər, çeşidli ictimai nəqliyyatın inkişafına istiqamətləndirilməlidir. Bu zaman Xəzərin meteoroloji durumu nəzərə alınmalı, eləcə də dəniz üzərindən salınan körpü və bərə daşınmaları ilə paytaxtda nəqliyyat sıxlığının aradan qaldırılmasının mümkünsüzlüyü anlayışla qarşılanmalıdır.

Yol hərəkəti eksperti Ərşad Hüseynov da Xəzər üzərindən körpü salınmasına böyük həcmdə sərmayə qoyulmasının tərəfdarı olmadığını deyir. Qeyd edir ki, Bakının nəqliyyat axını yelpikvari axın xarakteri daşıyır. Belə ki, insanlar hər səhər Abşeron kəndlərindən şəhərin mərkəzinə işə, məktəbə, alış-verişə gəlir, sonra da evlərinə qayıdırlar. Bunların çox az hissəsi şəhərin içindən keçib Salyana, Ələtə gedir. Bundan ötrü körpü, tunel tikməyə ehtiyac qalmır. Körpü üçün xərclənəcək böyük məbləğdə investisiyanın hədsiz baha başa gələcək bir obyektə yönəldilməsi məqsədəuyğun sayılmır.

Ə.Hüseynov tıxac probleminin həlli məqsədilə dünya təcrübəsində tunel, körpü ideyasının o qədər də dəstəklənmədiyini, sadalanan infrastrukturların yolun tıxac probleminin həllində elə də bir rol oynamadığını bildirir. Tıxac probleminin həlli üçün hazırda beynəlxalq təcrübədə mövcud olan önəmli təcrübələr var və bunların hamısından istifadə etmək zəruridir. Əsas diqqət fərdi nəqliyyatdan istifadənin minimuma endirilməsinə, ictimai nəqliyyatın istismarının ideal səviyyəyə yönəldilməsinə və yeraltı nəqliyyatın səmərəli işləməsinə göstərilməlidir.

### Dünyadan baxış

Göründüyü kimi, bəzi ekspertlər tərəfindən dəniz üzərindən körpü salınması ilə əlaqədar layihənin inşasının Bakının tıxacdan xilas olması üçün ideal bir variant olduğu düşünülsə də, bunun əksini fikirləşənlər, hazırda bu layihəyə pul xərclənməsini lazımsız hesab edənlər, xarici ölkələrin təcrübəsindən yararlanaraq tıxac probleminin qarşısını digər yollarla almağın mümkün olduğunu düşünənlər də var.

**Memar Asif Qurbanovun** fikrincə, belə iri layihələrin maliyyələşdirilməsində dünyada müxtəlif modellər tətbiq olunur. Məsələn, İstanbul şəhərində həyata keçirilən Avrasiya Tuneli layihəsi dövlət-özəl sektor modeli kimi dəyərləndirilir. Bu modeldə investor layihəni gerçəkləşdirir, müəyyən müddət istismar edir və sonra dövlətə təhvil verir. Dövlət maliyyələşməsi modeli isə daha çox strateji əhəmiyyətli, lakin kommersiya baxımından zəif layihələr üçün tətbiq olunur. Lakin bu, büdcə yükünün artması ilə nəticələnir.

A.Qurbanov, eyni zamanda, müasir meqapolislərin təcrübəsinə əsaslanaraq qeyd edir ki, tıxac probleminin həlli təkcə fiziki infrastrukturun genişləndirilməsi ilə mümkün deyil. Məsələn, San-Fransisko şəhərində “Golden Gate Bridge” kimi nəhəng körpünün mövcudluğu heç də tıxac problemini aradan qaldırmayıb. Seul şəhərində isə avtomobilyönümlü siyasətdən imtina edilərək ictimai nəqliyyat və “yaşıl” zonalar inkişaf etdirilib. Sinqapur şəhərində isə fərdi avtomobillərin istifadəsi iqtisadi vasitələrlə (ödənişlər, kvotalar) məhdudlaşdırılıb. Bu nümunələr göstərir ki, müasir yanaşma “daha çox yol” deyil, “daha az avtomobil” prinsipinə əsaslanır.

Ekspertlər tərəfindən mövcud reallıqlar nəzərə alınaraq müəyyən istiqamətlər üzrə konkret addımların atılması məqsədəuyğun hesab edilir. Məsələn, ictimai nəqliyyatın prioritetləşdirilməsi, metro şəbəkəsinin genişləndirilməsi, xüsusi avtobus zolaqlarının artırılması, elektrik nəqliyyatı inkişafının diqqətdə saxlanılması, şəhər mərkəzinə daxil olan avtomobillər üçün “tıxac rüsumu”nun tətbiq olunması, eləcə də parklanma siyasətinin sərtləşdirilməsi kimi məsələlərə üstünlük verilməsinin tıxac probleminin həllinə müsbət təsir göstərəcəyi bildirilir.

Beləliklə, aparılan təhlillər göstərir ki, Bakı buxtası üzərindən körpü layihəsi texniki baxımdan mümkün olsa da, iqtisadi cəhətdən ciddi şübhələr doğurur. Beynəlxalq təcrübə də sübut edir ki, iri infrastruktur layihələri tıxac problemini köklü şəkildə həll etmir. Bu çətinliyin aradan qaldırılması üçün daha səmərəli yanaşma ilə kompleks və sistemli siyasətin həyata keçirilməsidir. Bu baxımdan Bakı üçün prioritet istiqamət bahalı və riskli layihələrə investisiya qoymaqdan daha çox, insanyönümlü, dayanıqlı və innovativ nəqliyyat sisteminin qurulmasıdır.

*Vaqif BAYRAMOV*
*XQ*

#### *Ekspert rəyi*

**Elməddin MURADLI,**
**nəqliyyat eksperti**



Artıq uzun illərdir ki, Bakı buxtası üzərindən keçərək Bayıl və Zığ qəsəbələrini birləşdirəcək körpünün inşası ideyası ictimai və ekspert müzakirələrinin gündəmindədir. Bu müddət ərzində layihə ilə bağlı müxtəlif yanaşmalar formalaşmış, onun həm iqtisadi, həm texniki, həm də şəhərsalma baxımından məqsədəuyğunluğu ilə bağlı ziddiyyətli fikirlər səsləndirilmişdir. Məsələyə daha sistemli yanaşdıqda aydın olur ki, bu ideya yalnız nəqliyyat layihəsi deyil, həm də paytaxtın gələcək inkişaf modelini müəyyənləşdirə biləcək strateji şəhərsalma qərarıdır.

Bu mövzu ilə bağlı vaxtilə mediada mənim fikirlərim yer alıb, digər həmkarlarım tərəfindən təkliflər irəli sürülüb. Dövlətin bu istiqamətdə müəyyən addımlar atması barədə informasiyalar da cəmiyyətin diqqətinə çatdırılıb və aidiyyəti qurumlarla birlikdə bu məsələnin müzakirə edildiyi bildirilib. Eyni zamanda, Xəzər dənizi üzərindən hər hansı bir yolun çəkilməsinin çox xərc tələb olunduğu, bu prosesin başqa bir formada tənzimləməyə ehtiyac duyulduğu vurğulanıb.

Yuxarıda başqa cür tənzimləmə dedikdə yol şəbəkəsi, küçələrin genişləndirilməsi nəzərdə tutulur. Dəniz üzərindən körpü salınması isə hazırkı dönəmdə məqsədəuyğun sayılmır. Dünya təcrübəsinə nəzər saldıqda görürük ki, artıq dənizin altından metro çəkilməsinə daha çox üstünlük verilir.

Bizdə isə dəniz üzərindən yol çəkilməsi təklif olunur. Təklifim bundan ibarətdir ki, Bibiheybət – Lökbatan istiqamətindən Zığ qəsəbəsi istiqamətinə körpü çəkilməlidir. Körpünün Ağ şəhərə də bir çıxış nöqtəsi olmalıdır. Yəni Lökbatan – Bayıl istiqamətindən körpüyə daxil olduqda Neftçilər prospektini görmədən sola – Babək prospektinə, birbaşa Heydər Əliyev prospektinə çıxılmalıdır.

Beləliklə, bu gün Neftçilər prospektinin alternativi yoxdur. Ona görə də şəhərin tən ortasından keçən magistrala alternativ yol yalnız dəniz üzərindən ola bilər. Ümid edirəm ki, aidiyyəti qurumlar bu barədə yenidən düşünəcək. Düzdür, bu, böyük həcmdə vəait tələb edir, ancaq reallaşarsa, insanlar üçün faydalı infrastruktura çevrilə bilər.

# Baş prokuror türkiyəli həmkarı ilə görüşüb

**Türkiyə Respublikası Ali Məhkəməsinin Baş prokuroru Muhsin Şentürkün rəhbərlik etdiyi nümayəndə heyəti Kamran Əliyevin dəvəti ilə ölkəmizdə rəsmi səfərdədir.**



Baş prokuror Kamran Əliyevlə türkiyəli həmkarı arasında görüş zamanı iki dövlət arasında qardaşlıq və əməkdaşlıq münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi, hüquq-mühafizə orqanları arasında əməkdaşlığın dinamik inkişaf etdiyi vurğulanıb.

Qeyd olunub ki, Azərbaycan ilə Türkiyə arasında münasibətlərin əsasında dayanan və ümummilli lider Heydər Əliyev tərəfindən irəli sürülmüş “bir millət, iki dövlət” konsepsiyası hazırda dövlət başçıları İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan arasında mövcud olan sıx dostluq münasibətləri və siyasi iradə sayəsində daha da genişlənərək bütün sahələrdə, o cümlədən prokurorluq və hüquq-mühafizə orqanları arasında əməkdaşlığın möhkəmlənməsinə mühüm töhfə verir.

Görüşdə Kamran Əliyev qonaqlara ölkəmizdə həyata keçirilən hüquq islahatları çərçivəsində prokurorluq orqanlarının fəaliyyətinin rəqəmsallaşdırılması, müasir idarəetmə mexanizmlərinin tətbiqi və institusional inkişaf istiqamətində görülən işlər barədə ətraflı məlumat verib.

Səmimi qəbula görə təşəkkürünü bildirən Muhsin Şentürk təmsil etdiyi qurumun Azərbaycan ilə əlaqələrin inkişafına xüsusi önəm verdiyini, iki qardaş ölkənin prokurorluq orqanları arasında əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminliyini ifadə edib.

Bundan başqa, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətin səmərəliliyi müzakirə olunub, hər iki ölkənin prokurorluq orqanlarının beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığının genişləndiyi, xüsusilə Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin Baş Prokurorluqlarının Şurası çərçivəsində qarşılıqlı fəaliyyətin gücləndirildiyi, hüquqi əməkdaşlıq, təcrübə mübadiləsi və birgə təşəbbüslərin həyata keçirilməsinin əhəmiyyəti vurğulanıb.

*XQ*

# Ölkənin xidmət qurumları gücləndirilmiş rejimdə çalışırlar

## *Paytaxtda və bölgələrdə təbii fəlakətin fəsadları aradan qaldırılır*

**Milli Hidrometeorologiya Xidməti aprelin 6-sı səhər məlumat verib ki, Azərbaycanda qeyri-sabit hava şəraiti davam edir, bəzi yerlərə intensiv və güclü yağış, dağlıq ərazilərə isə qar yağır.**



Martın sonlarında müşahidə olunan güclü yağıntılardan bir həftə keçməmiş Bakıda və Abşeron yarımadasında havalar yenə dəyişib. Düşən yağıntının miqdarı 90 millimetr qeydə alınıb ki, bu da aylıq normanın 390 faizi qədər olub. Həmin göstərici Xaçmazda 94 (aylıq normanın 311 faizi), Qubada 83 (aylıq normanın 174 faizi), Xaltanda 74 (aylıq normanın faizi), Xızıda 69 (aylıq normanın 95 faizi), Qusarda 69 (aylıq normanın 144 faizi), Şabranda 63 (aylıq normanın 209 faizi) millimetr olub.

Ölkəmizin ayrı-ayrı bölgələrində isə yağıntılar qara çevrilib. Məsələn, Şahdağda qar örtüyünün hündürlüyü 1 metr 24 sm, Qrızda 34, Xınalıqda 22, Qusarda 3 sm təşkil edib.

Əlbəttə, su aydınlıqdır, xüsusilə də yaz fəslində yağışların olması təbiidir. Amma bu günlərdə son 30 ilin statistikasına görə, ən yüksək miqdarda yağış yağması, leysan və sellər əhali üçün çətinliklərsiz ötüşmür. Normadan yüksək və fasiləsiz yağışlar magistral yollarda, küçə və prospektlərdə hərəkət iştirakçıları üçün əlverişsiz mühit yaradaraq qəza riskini əhəmiyyətli dərəcədə artırıb. Yol örtüyünün sürüşkən olması, görmə məsafəsinin məhdudlaşması sürücülərdən daha çox diqqət və məsuliyyət tələb edib.

Bununla bağlı Bakı Şəhər Dövlət Yol Polisi (DYP) İdarəsi sürücülərə müraciətində hərəkət zamanı xüsusilə ehtiyatlı olmağın, sürət həddini minimuma endirməyin, mütləq ara məsafəsi saxlamağın, avtomobilin şüşəsilən və işıq cihazlarının saz vəziyyətdə olmasına diqqət yetirməyin vacibliyini önə çəkib. Eyni zamanda, əlverişsiz hava şəraiti paytaxtın bəzi ərazilərində və Sumqayıtda piyadalar üçün də əlavə çətinliklər yaradıb.

Bu günlərdə Bakı Şəhər İcra Hakimiyyəti (BŞİH) və tabeliyində olan strukturlar, rayon icra hakimiyyəti başçıları və onların aparatları gücləndirilmiş iş rejimində fəaliyyət göstərirlər. Bakıətrafı qəsəbələrin kanalizasiya sistemi mövcud olmayan ərazilərində subasma halları aradan qaldırılsın deyə, həmin yerlərdə kommunal xidmət əməkdaşları xüsusi vasitələrdən istifadə etməklə yağış sularını çəkir, həmçinin zəruri hallarda insanları təxliyə edirlər.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov və Nizami Rayon İcra Hakimiyyətinin başçısı Coşqun Cəbrayılov Keşlə qəsəbəsində su basmış evlərə və əraziyə baxış keçiriblər. Eldar Əzizov qəsəbə sakinləri ilə görüşüb, onların problemlərini dinləyib, aidiyyəti qurumlara müvafiq tapşırıqlar verib. Həmçinin Dövlət Su Ehtiyatları Agentliyinin (ADSEA) sədri Zaur Mikayılovla birlikdə Keşlədə yağış sularının kənarlaşdırılmasında problem yaradan ikimərtəbəli evin söküldüyü yerə baxılıb. Problemin həlli istiqamətində konkret tədbirlər müəyyənləşdirilib. Xatırladaq ki, Xətai rayonu Rəşid Bağırov 36/12b ünvanında kollektor üzərində tikilmiş və Keşlə qəsəbəsində yağış sularının kənarlaşdırılmasında problem yaradan evin sökülməsi qərara alınıb.







Hazırda paytaxtın kommunal xidmət sahəsi əməkdaşları su basmış evlərdən vətəndaşların təxliyəsində iştirak edir, zəruri təhlükəsizlik tədbirləri görürlər. Ərazilərə su nasosları, xüsusi texniki qurğular və ağır texnikalar cəlb olunub. Paytaxtın Nizami, Sabunçu, Xəzər rayonlarında, eləcə də Sumqayıtda, Abşeron və Xaçmaz rayonlarında yığılan suların nasoslarla kənarlaşdırılması, köməyə ehtiyacı olan vətəndaşların təxliyəsi həyata keçirilib. Tədbirlər fasiləsiz davam etdirilir.

Azərbaycanda qeyri-sabit hava şəraiti ilə əlaqədar 3 liman bağlanıb. Bu barədə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Dəniz və Liman Agentliyindən (DDLA) verilən məlumatda deyilir ki, Qaradağ, Dübəndi, Sahil limanlarına giriş-çıxış bağlanıb, amma digər limanlar açıqdır.

Fövqəladə Hallar Nazirliyinin (FHN) bölmələri fasiləsiz leysan yağışlarının törətdiyi fəsadların aradan qaldırılması üzrə zəruri tədbirlər görürlər. Fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov dünən Bakı şəhəri, Nizami rayonu, Keşlə qəsəbəsində kollektorda yaranmış nasazlıq nəticəsində suyun təsirinə məruz qalmış əraziyə gedib. Yaranmış vəziyyət və fəsadların aradan qaldırılması istiqamətində görülən işlərlə yerində tanış olub və aidiyyəti üzrə tapşırıqlar verib. O, həmçinin son günlər yağan intensiv yağışlar nəticəsində Bakı şəhəri, Səbail rayonu, Bibiheybət yolunun keçdiyi ərazidə yaranmış torpaq sürüşməsi təhlükəsi ilə əlaqədar həmin ərazidə olub. Orada Nazirlər Kabinetinin Tikinti, şəhərsalma və kommunal təsərrüfat şöbəsinin müdiri Feyruz Mustafayev, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri Vüsal Nəsirli və digər müvafiq qurumların rəsmiləri və mütəxəssislərlə birgə fikir mübadiləsi aparılıb, atılacaq addımlar müzakirə olunub və aidiyyəti üzrə tapşırıqlar verilib.

Hazırda ərazi nəzarətdə saxlanılır, vəziyyətin stabilləşdirilməsi və yolun təhlükəsiz istismarı üçün aidiyyəti qurumlarla birgə müvafiq tədbirlər görülür. Həmin tədbirlər çərçivəsində Su İdman Sarayından Bibiheybət qəsəbəsi istiqamətinə (Dənizkənarı küçə) gedən yolda nəqliyyat vasitələrinin hərəkətinə tətbiq edilən məhdudiyyətlə əlaqədar, 6 müntəzəm marşrutun hərəkət sxemi müvəqqəti dəyişdirilib. Dəyişikliyə əsasən, 72, 120A, 125, 149, 205 və E1 nömrəli marşrutların hərəkəti “20-ci sahə dairəsi” – Şəfəq küçəsi ilə təşkil olunub.

Nazirliyin İctimaiyyətlə Əlaqə İdarəsinin əməkdaşı Pərviz Aslanovun verdiyi məlumata görə, FHN əməkdaşları təhlükəsizliyi hər vasitə ilə təmin etməyə çalışıblar.

– Bakının bir sıra rayonlarında, Sumqayıt, Abşeron və Xızıda suyun təsirinə məruz qalan ərazilərdən suyun çəkilməsi işləri aparılır. Xızıda bəzi ərazilərdən vətəndaşların təxliyəsi həyata keçirilib. Gecə saatlarında da nazirliyin qüvvələri tərəfindən fasiləsiz olaraq, intensiv şəkildə işlər davam etdirilib. Paralel olaraq digər təhlükəsizlik tədbirləri də həyata keçirilir.

Onu da deyək ki, FHN əhalini müvafiq təhlükəsizlik qaydalarına riayət etməyə çağırıb. Sel və daşqından qorunmaq üçün təhlükəli ərazilərdən uzaq durmağın, xilasedicilərin çağırış və tövsiyələrinə əməl etməyin son dərəcə vacib olduğu vurğulanıb.

Ölkənin şimal bölgəsində sel sularının yaratdığı fəsadlar səbəbindən bəzi kənd məktəblərində dərslər təxirə salınıb. Xaçmazda Hacılar və Cığatay kənd məktəblərinin həyətlərini su basıb. Təhsil ocaqlarının zirzəmilərinə və bəzi sinif otaqlarına da su dolub. Ümumiyyətlə, Xaçmazda dərslərin təxirə salındığı məktəblərin sayı 10-dan çoxdur. Quba, Qusar, Şabran və Siyəzəndə də ümumilikdə 10-a yaxın bu cür məktəb var. Bəzi təhsil ocağında isə dərslərin təxirə salınmasına səbəb məktəblərə gedən yolların sel suları səbəbindən keçilməz olmasıdır. Fəsadların aradan qaldırılması üçün əraziyə müvafiq dövlət qurumlarının nümayəndələri cəlb olunub.

Qusar rayonunda da sel təhlükəsi yaranan ərazilər nəzarətə götürülüb. Hil, Yasab, Mucuq, Gündüzqala və digər kəndlərində təhlükəli ərazilərə baxış keçirilib, fəsadlar yerində qiymətləndirilib. Sel Yasab kəndinə gedən avtomobil yoluna, Mucuq kəndində körpüyə ziyan vurub, Hil kəndində çay kənarlarında torpaq yuyulması müşahidə olunur. Yüksək dağlıq ərazilərdə – Laza və Sudur kəndlərində qar yağıb. Suvacal, Gündüzqala, Əniq və Mucuq kəndlərində yerləşən körpülər yararsız vəziyyətə düşüb. Eyni zamanda, bəzi kəndlərə gedən yollar müvəqqəti bağlanıb. Quxuroba kəndində 200 hektardan, Zuxul kəndində isə 50 hektardan artıq əkin və bağ sahəsi su altında qalıb. Aidiyyəti qurumlar tərəfindən ərazilərdə bərpa və təhlükəsizlik tədbirləri operativ davam etdirilir.

Yağan yağış ətraf mühitə də müəyyən ziyan vurub. Belə ki, aprelin 5-i axşam saatlarından aprelin 6-sı səhərə kimi intensiv yağışla müşayiət olunan külək nəticəsində Bakıda bəzi ağaclar aşıb. Bununla bağlı Bakı Şəhər Yaşıllaşdırma Təsərrüfatı Birliyinin operativ qrupları fasiləsiz xidmət göstərir. Birliyin əməkdaşları çağırış olan ərazilərə gələrək aşan ağacların götürülməsi üçün lazımi tədbirlər görüblər.

Ekologiya üzrə ekspert Gülşən Axundova subasma hallarının şəhər infrastrukturunun müəyyən hissələrində suötürücü sistemlərin yüklənməsi ilə nəticələnməsinə münasibətini bildirərək deyib ki, belə hallar yalnız yerli kontekstdə deyil, qlobal miqyasda da aktual problem kimi qiymətləndirilir və bir çox inkişaf etmiş ölkələrdə bu növ analoji vəziyyətlər qeydə alınır:

– Hazırda Bakının müxtəlif ərazilərində, o cümlədən Keşlə qəsəbəsində baş verən subasma halları zamanı dövlət qurumları tərəfindən çevik və operativ reaksiya mexanizmlərinin tətbiq edilməsi diqqətəlayiqdir. Xüsusilə son hadisələr göstərir ki, fövqəladə hallara cavab verən strukturlar qısa zaman ərzində əraziyə cəlb olunur, suyun çəkilməsi, yolların açılması və vətəndaşların təhlükəsizliyinin təmin edilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilir. Bu, idarəetmə sisteminin operativliyini və koordinasiyasını əyani şəkildə nümayiş etdirir.

Subasma hadisələri, ilk növbədə, hidrometeoroloji amillərlə bağlıdır. İqlim dəyişiklikləri nəticəsində atmosferdə rütubət səviyyəsinin artması və qeyri-sabit hava şəraitinin formalaşması intensiv yağıntıların tezliyini artırır. Bu baxımdan, Bakıda müşahidə olunan leysan yağışları və onların yaratdığı nəticələr qlobal iqlim dəyişikliklərinin lokal təzahürü kimi qiymətləndirilə bilər. Dünya praktikasına nəzər saldıqda, London, Nyu-York və İstanbul kimi iri şəhərlərdə də güclü yağışlardan sonra metro xətlərinin, yolların və yaşayış məntəqələrinin su altında qalması halları geniş yayılıb. Bu isə göstərir ki, belə hadisələr müasir urbanizasiya prosesinin ayrılmaz tərkib hissəsidir və tamamilə qarşısının alınması deyil, daha çox idarəolunması prioritet hesab edilir.

Onun sözlərinə görə, subasma hadisələri fövqəladə və qeyri-adi hal kimi deyil, müəyyən həddə qədər normal və idarəolunan təbii proses kimi qiymətləndirilməlidir. Əsas məsələ bu cür hadisələrə hazırlıq səviyyəsi və cavab mexanizmlərinin effektivliyidir. Azərbaycanda müvafiq dövlət qurumları bu istiqamətdə fəaliyyətlərini davamlı olaraq təkmilləşdirir. Xüsusilə operativ qərargahların yaradılması, texniki vasitələrin səfərbər edilməsi və əhalinin vaxtında məlumatlandırılması müsbət nəticələrin əldə olunmasına şərait yaradır:

– Beləliklə, Bakıda leysan yağışlarından sonra subasma halları həm təbii, həm də urbanistik amillərin qarşılıqlı təsiri nəticəsində baş verir. Bu hadisələr qlobal tendensiyaların bir hissəsi olmaqla yanaşı, yerli idarəetmə mexanizmlərinin səmərəliliyini də sınaqdan keçirir. Təcrübə göstərir ki, dövlət qurumlarının operativ müdaxiləsi, texniki imkanların səfərbərliyi və koordinasiyalı fəaliyyət sayəsində bu cür vəziyyətlər nəzarət altında saxlanıla bilir. Gələcəkdə isə daha davamlı infrastrukturun qurulması, iqlimə uyğunlaşma strategiyalarının gücləndirilməsi və ictimai maarifləndirmə tədbirlərinin genişləndirilməsi subasma risklərinin minimuma endirilməsində əsas rol oynayacaq.

Milli Hidrometeorologiya Xidmətinin məlumatına görə, Azərbaycanda qeyri-sabit hava şəraiti bu gün axşamadək davam edəcək. Buna görə də yaranmış vəziyyətlə bağlı yerlərdə BŞİH-in monitorinq qrupu çalışır. Onlar su yığılan əraziləri, problemli ünvanları müəyyənləşdirir, aidiyyəti qurumlara məlumat verirlər. Beləliklə, intensiv yağan yağışın törətdiyi fəsadları aradan qaldırmaq üçün Bakı şəhərinin bütün məsul qurumları koordinasiyalı şəkildə işləyirlər.

***Əli ƏLİYEV***
***XQ***







# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 84** **19 mart 2026-cı il, Bakı şəhəri**

**“Tüstü bacalarının istismarında təhlükəsizlik texnikası Qaydası”nın təsdiq edilməsi və “Tüstü bacalarının istismarında təhlükəsizlik texnikası Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 6 fevral tarixli 38 nömrəli Qərarının ləğv edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Qaz təchizatı haqqında” Azərbaycan Respublikasının 2025-ci il 8 iyul tarixli 233-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 avqust tarixli 487 nömrəli Fərmanının 2.1.2.6-cı abzasının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Tüstü bacalarının istismarında təhlükəsizlik texnikası Qaydası” təsdiq edilsin *(əlavə olunur)*.

**2.** “Tüstü bacalarının istismarında təhlükəsizlik texnikası Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 6 fevral tarixli 38 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 2, maddə 301 (Cild I); 2025, № 10, maddə 974) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 85** **19 mart 2026-cı il, Bakı şəhəri**

**“Müayinə və texniki xidmət məlumatları üzrə reyestrin aparılması və ondan istifadə Qaydası”nın təsdiq edilməsi və “Müayinə və texniki xidmət məlumatları üzrə reyestrin aparılması və ondan istifadə Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 iyun tarixli 216 nömrəli Qərarının ləğv edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Qaz təchizatı haqqında” Azərbaycan Respublikasının 2025-ci il 8 iyul tarixli 233-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 avqust tarixli 487 nömrəli Fərmanının 2.1.2.4-cü abzasının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Müayinə və texniki xidmət məlumatları üzrə reyestrin aparılması və ondan istifadə Qaydası” təsdiq edilsin *(əlavə olunur)*.

**2.** “Müayinə və texniki xidmət məlumatları üzrə reyestrin aparılması və ondan istifadə Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 iyun tarixli 216 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 6, maddə 876 (Cild); 2024, № 3, maddə 305; 2025, № 12 (II kitab), maddə 1209) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 86** **19 mart 2026-cı il, Bakı şəhəri**

**“Məhkəmə ekspertizası idarələrində aparılan məhkəmə ekspertizalarının siyahısı və məhkəmə ekspertizası fəaliyyəti ilə əlaqədar göstərilən xidmətlərə görə ödənilən haqqın məbləği”nin təsdiq edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 29 noyabr tarixli 1709-VQD nömrəli Qanununun tətbiqi və “Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 yanvar tarixli 252 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 18 dekabr tarixli 883 nömrəli Fərmanının 1.1.5-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Məhkəmə ekspertizası idarələrində aparılan məhkəmə ekspertizalarının siyahısı və məhkəmə ekspertizası fəaliyyəti ilə əlaqədar göstərilən xidmətlərə görə ödənilən haqqın məbləği” təsdiq edilsin *(əlavə olunur)*.

**2.** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə”nin 3.5-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 88** **19 mart 2026-cı il, Bakı şəhəri**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 13 aprel tarixli 70 nömrəli Qərarı ilə təsdiq edilmiş “Hüquqi şəxslərin dövlət reyestrinin aparılması, istifadəsi və mühafizəsi Qaydaları”nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, “Media haqqında” və “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 247-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 13 aprel tarixli 70 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 4, maddə 384 (Cild I); 2024, № 1, maddə 111, № 3, maddə 303, № 9, maddə 1090; 2025, № 7, maddə 713, № 9, maddə 858; 2026, № 1, maddə 88; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 5 mart tarixli 65 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Hüquqi şəxslərin dövlət reyestrinin aparılması, istifadəsi və mühafizəsi Qaydaları”na aşağıdakı məzmunda 6.8-3-cü bənd əlavə edilsin:

“6.8-3. Xarici media subyektlərinin filial və nümayəndəliklərinin dövlət qeydiyyatına alınması barədə 3 iş günü müddətində Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinə məlumat verilir.”.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

***Qeyd: Qərarlara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.az saytlarında tanış ola bilərsiniz.***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 87** **19 mart 2026-cı il, Bakı şəhəri**

**“Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, “Torpaq islahatı haqqında”, “Torpaq bazarı haqqında”, “Notariat haqqında”, “İcra haqqında”, “Daşınmaz əmlakın dövlət reyestri haqqında” və “İpoteka haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 250-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 1 avqust tarixli 462 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, “Torpaq islahatı haqqında”, “Torpaq bazarı haqqında”, “Notariat haqqında”, “İcra haqqında”, “Daşınmaz əmlakın dövlət reyestri haqqında” və “İpoteka haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 250-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 1 avqust tarixli 462 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 1 may tarixli 80 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 5, maddə 361 (Cild I); 2024, № 9, maddə 1100; 2025, № 12 (II kitab), maddə 1231) ilə təsdiq edilmiş “İcra məmurlarının fəaliyyətinə nəzarət Qaydası”nın II bölməsinin 3-cü hissəsinin birinci cümləsində “hərracların və ya dəyəri 5000 manatdan artıq olmayan daşınar əmlakın icra xidmətinin müəyyən etdiyi ticarət şəbəkələrində” sözləri “elektron hərracların və ya dəyəri 5000 manatdan az olan daşınar əmlakın “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə əsasən müəyyən edilən elektron ticarət platformaları vasitəsilə” sözləri ilə əvəz edilsin.

**2.** “Notariat hərəkətlərinin qeydi üçün reyestrlərin, notariat şəhadətnamələrinin, əqdlərdə və təsdiq edilən sənədlərdə təsdiq qeydlərinin formalarının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 23 avqust tarixli 148 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 652 (Cild I); 2024, № 9, maddə 1067) ilə təsdiq edilmiş 11 nömrəli forma yeni redaksiyada verilsin *(əlavə olunur)*.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 11 sentyabr tarixli 167 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 9, maddə 693 (Cild I); 2024, № 1, maddələr 110, 111, № 3, maddə 359, № 5 (II kitab), maddələr 597, 606, № 9, maddə 1067; 2025, № 2, maddə 193, № 7, maddə 698) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat”da aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2-ci hissənin 5-ci bəndi aşağıdakı redaksiyada verilsin:

“5) icra sənədlərinin məcburi icrası ilə əlaqədar daşınmaz əmlakın və rəsmi reyestrdə üzərində hüquqlar qeydiyyata alınan daşınar əmlakın əldə olunması barədə şəhadətnamələr verir;”;

3.2. 12-1-ci hissənin birinci cümləsinə “notariat qaydasında təsdiqi zamanı” sözlərindən sonra “, habelə “Notariat haqqında” Azərbaycan Respublikası Qanununun 63-cü maddəsinə əsasən icra sənədlərinin məcburi icrası ilə əlaqədar daşınmaz əmlakın əldə olunması barədə şəhadətnamələr (fərdi sahibkarın üzərinə həbs qoyulmuş və ya ipoteka ilə yüklü edilmiş əmlakının tələbkar (ipoteka saxlayan) tərəfindən əldə edilməsi ilə bağlı verilən şəhadətnamələr istisna olmaqla) verən zaman” sözləri əlavə edilsin;

3.3. 15-ci hissənin ikinci abzasından “yaşayış evlərinin, mənzillərin açıq hərracdan əldə olunmasına dair şəhadətnamələrin verilməsi,” sözləri çıxarılsın;

3.4. 49-cu hissənin on üçüncü abzasında “açıq hərracdan” sözləri “hərracda” sözü ilə əvəz edilsin;

3.5. VIII fəsil aşağıdakı redaksiyada verilsin:

**“VIII fəsil**
**İCRA SƏNƏDLƏRİNİN MƏCBURİ İCRASI İLƏ ƏLAQƏDAR DAŞINMAZ ƏMLAKIN VƏ RƏSMİ REYESTRDƏ ÜZƏRİNDƏ HÜQUQLAR**
**QEYDİYYATA ALINAN DAŞINAR ƏMLAKIN ƏLDƏ OLUNMASI BARƏDƏ ŞƏHADƏTNAMƏLƏRİN VERİLMƏSİ**

122. İcra sənədlərinin məcburi icrası ilə əlaqədar daşınmaz əmlakın və rəsmi reyestrdə üzərində hüquqlar qeydiyyata alınan daşınar əmlakın “İcra haqqında” Azərbaycan Respublikası Qanununun 53.1-1-ci, 53.1-2-ci və 62.20-ci maddələrinə uyğun olaraq tələbkar tərəfindən əldə edilməsi tələbkarın yazılı müraciəti əsasında notarius tərəfindən bu barədə şəhadətnamə verilməsi ilə rəsmiləşdirilir. Şəhadətnamə müvafiq əmlakın tələbkar tərəfindən qəbul edilməsi ilə bağlı tələbkarın iradə ifadəsini özündə əks etdirən, icra məmuru və tələbkar tərəfindən imzalanaraq “Elektron icra” informasiya sistemi vasitəsilə “Elektron notariat” informasiya sisteminə göndərilən protokol əsasında verilir.

123. Şəhadətnamənin mətnində şəhadətnamənin verilmə tarixi, şəhadətnaməni verən notariusun soyadı, adı, vəzifəsi, tələbkar barədə məlumatlar (fiziki şəxsə münasibətdə - soyadı, adı, atasının adı, FİN nömrəsi, hüquqi şəxsə münasibətdə - adı, təşkilati-hüquqi forması, VÖEN-i, fiziki və ya hüquqi şəxsin qeydiyyat ünvanı), icra orqanının adı, icra məmurunun soyadı, adı, atasının adı, icra işi barədə məlumat, şəhadətnamənin hansı protokol əsasında verilməsi, əmlak və onun satış (əldə etmə) qiyməti barədə məlumat göstərilməlidir.”;

3.6. 160-1-ci hissənin altıncı-doqquzuncu abzasları müvafiq olaraq yeddinci-onuncu abzaslar hesab edilsin və həmin hissəyə aşağıdakı məzmunda altıncı abzas əlavə edilsin:

“İcra haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallarda və müddətdə əmlak notarius vasitəsilə rəsmiləşdirilən alqı-satqı müqaviləsi əsasında açıq bazarda satıldıqda notarius satışdan əldə olunan pul məbləğini depozit hesabından icra xidmətinin depozit hesabına köçürür.”;

3.7. 169-1-ci hissənin doqquzuncu abzası ləğv edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 13 avqust tarixli 293 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 8, maddə 1110 (Cild I); 2025, № 2, maddə 196; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 9 fevral tarixli 44 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızının tərtib edilməsi Qaydası”nın 2.1.1-ci yarımbəndinin 14–16-cı abzasları ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 89** **19 mart 2026-cı il, Bakı şəhəri**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 oktyabr tarixli 433 nömrəli Qərarı ilə təsdiq edilmiş “Kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları), nizamnamə kapitalındakı payları və qiymətli kağızların mülkiyyətçiləri barədə məlumatların öhdəlik daşıyan şəxslərə verilməsi Qaydası”nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasının Vergi Məcəlləsində, “Valyuta tənzimi haqqında”, “Kommersiya sirri haqqında”, “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında”, “Banklar haqqında”, “Sığorta fəaliyyəti haqqında”, “Bank olmayan kredit təşkilatları haqqında”, “İnvestisiya fondları haqqında”, “Qiymətli kağızlar bazarı haqqında”, “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” və “Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 11 aprel tarixli 175-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 15 may tarixli 392 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 oktyabr tarixli 433 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2148 (Cild I); 2024, № 5 (II kitab), maddə 627) ilə təsdiq edilmiş “Kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları), nizamnamə kapitalındakı payları və qiymətli kağızların mülkiyyətçiləri barədə məlumatların öhdəlik daşıyan şəxslərə verilməsi Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1.3-cü bəndin birinci cümləsində “Benefisiar mülkiyyətçi” sözləri “Kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları), nizamnamə kapitalındakı payları və qiymətli kağızların mülkiyyətçiləri” sözləri ilə əvəz edilsin.

**2.** 2-ci hissə üzrə:

2.1. 2.1.3-1-ci və 2.1.4-cü yarımbəndlər ləğv edilsin;

2.2. 2.1.6-cı yarımbənddə “benefisiar mülkiyyətçi” sözləri “kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları), nizamnamə kapitalındakı payları və qiymətli kağızların mülkiyyətçiləri” sözləri ilə əvəz edilsin.

**3.** 3.1-ci, 3.2-ci və 4.1-ci bəndlərdə “benefisiar mülkiyyətçi” sözləri “kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları), nizamnamə kapitalındakı payları və qiymətli kağızların mülkiyyətçiləri” sözləri ilə əvəz edilsin.

**4.** 5-ci hissə üzrə:

4.1. 5.1-ci bənddə “benefisiar mülkiyyətçi” sözləri “kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları), nizamnamə kapitalındakı payları və qiymətli kağızların mülkiyyətçiləri” sözləri ilə əvəz edilsin;

4.2. 5.6-cı bənddən “nominal saxlayıcının hesabında olan benefisiar mülkiyyətçilərə dair məlumatlar istisna olmaqla” sözləri çıxarılsın;

4.3. 5.7-ci bənd ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 91** **1 aprel 2026-cı il, Bakı şəhəri**

**Yeni tikilən Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolunun 81,3 kilometrlik hissəsinin ödənişli avtomobil yolu kimi müəyyən edilməsinə dair tədbirlər haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Avtomobil yolları haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 10 mart tarixli 299 nömrəli Fərmanının 2.3-1-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”na əsasən yeni tikilən 81,7 kilometrlik Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolunun 81,3 kilometrlik hissəsi ödənişli avtomobil yolu kimi müəyyən edilsin.

**2.** Ödənişli avtomobil yolunun başlanğıc və son nöqtələri:

2.1. başlanğıc nöqtəsi: M–6 Hacıqabul–Bəhramtəpə–Mincivan avtomobil yolunun 157-ci kilometri;

2.2. son nöqtəsi: Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolunun (Zəfər yolu) 100,5-ci kilometri.

**3.** Ödənişli avtomobil yolunun başqa avtomobil yolları ilə kəsişmələri və birləşmələri:

3.1. ödənişli avtomobil yolunun 1,4-cü kilometri – Horadiz–Cəbrayıl–Zəngilan–Ağbənd avtomobil yolu;

3.2. ödənişli avtomobil yolunun 27-ci kilometri – Füzuli Beynəlxalq Hava Limanının giriş yolu;

3.3. ödənişli avtomobil yolunun 32-ci kilometri – Füzuli şəhərinə giriş yolu;

3.4. ödənişli avtomobil yolunun 32-ci, 47-ci və 67,5-ci kilometrlərində – Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolu (Zəfər yolu).

**4.** Ödənişli avtomobil yolunun texniki göstəriciləri:

4.1. uzunluğu – 81,3 kilometr;

4.2. texniki dərəcəsi – I c;

4.3. hərəkət zolaqlarının sayı: 0–46-cı kilometr hissəsində – 6, 46–81,7-ci kilometr hissəsində – 4;

4.4. hərəkət zolağının eni – 3,5 metr;

4.5. yol çiyninin eni: 0–46-cı kilometr hissəsində – 2,5 metr, 46–81,7-ci kilometr hissəsində – 2 metr;

4.6. torpaq yatağının eni: 0–46-cı kilometr hissəsində – 29,5 metr, 46–81,7-ci kilometr hissəsində – 21,5 metr;

4.7. yol çiyninin bərkidilmiş zolağının eni – 0,5 metr;

4.8. ayırıcı zolağın eni – 2 metr.

**5.** Alternativ ödənişsiz avtomobil yolunun marşrutu, uzunluğu və əsas texniki göstəriciləri:

5.1. Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolu (Zəfər yolu):

5.2. uzunluğu – 101 kilometr;

5.3. texniki dərəcəsi: 0–17-ci kilometr hissəsində – III, 17–101-ci kilometr hissəsində – II;

5.4. hərəkət zolaqlarının sayı – 2;

5.5. hərəkət zolağının eni – 3,5 metr;

5.6. yol çiyninin eni: 0–17-ci kilometr hissəsində – 1,5 metr, 17–101-ci kilometr hissəsində – 2,5 metr;

5.7. torpaq yatağının eni: 0–17-ci kilometr hissəsində – 12 metr, 17–101-ci kilometr hissəsində – 14 metr;

5.8. yol çiyninin bərkidilmiş zolağının eni – 0,5 metr.

**6.** Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası ödənişli avtomobil yolu ilə nəqliyyat vasitələrinin gedişi üçün ödənişin məbləğini avtomobil yolunun dərəcəsi nəzərə alınmaqla təsdiq etsin.

**7.** Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi bu Qərardan irəli gələn məsələləri həll etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Hacan Hacısoy – 80*

# Neftçi alim, şair, diplomat

**Tanınmış neftçi-alim və diplomat Hacan Hacısoyun anadan olmasının 80 illiyini ölkənin elmi-mədəni ictimaiyyəti və Gürcüstanda yaşayan soydaşlarımız sevgi-sayqı və qədirbilənliklə qeyd edir.**



Hacan Hacısoy (Hacan Qulu oğlu Hacıyev) 1946-cı ildə Gürcüstanın Kaxeti bölgəsinin Qaraçöp mahalında anadan olub. Orta məktəbi doğma kəndində bitirib, ali təhsilini Azərbaycan Neft və Kimya İnstitutunda (1964-1969) alıb. Texnika elmləri doktoru, professordur. Azərbaycan Respublikasının Gürcüstanda ilk fövqəladə və səlahiyyətli səfiri (1996-2004-cü illər) olub. O, hazırda Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində "Neftin, qazın geotexnoloji problemləri və kimya" Elmi-Tədqiqat İnstitutunda fəaliyyətini davam etdirir. 100-dən çox elmi məqalə, 3 monoqrafiya və 5 ədəbi-bədii kitabın müəllifidir.

Maraqlıdır ki, bir neçə şeir və poemalar kitabının müəllifi olan bu təvazökar insan heç bir yerdə özünü şair kimi tanıtmasa da, kövrək misraları onu dərin duyğu-düşüncə sahibi və bənzərsiz poetik qələm sahibi kimi təqdim edir:

***Qoy hədər getməsin bircə anın da,***
***Ey könül, usanma dözümün olsun.***
***Deyirəm, bu yollar kəhkəşanında,***
***Bir kiçik cığır da özümün olsun!***

"Yurdum – yuvam..." (şeirlər və poemalar, Bakı: Pedaqogika, 2011) kitabının annotasiyasında oxuyuruq: "Müəllifin heç nəyə iddiası yoxdur. O, öz daxili aləminin, söz dünyasının göstəricisi, duyğularının ifadəsi kimi, bu şeirləri sizin diqqətinizə təqdim edir".

Ancaq onun poetik topluları ilə tanış olan hər kəs poeziya aləmində özünəxas ədəb-ərkanı olan "çiynində söz yükü daşıyan bir yolçu" görür, başqa sözlə, narahat şair qəlbinin döyüntülərini eşidir. H.Hacısoy poeziya aləminə gələnəcən dünyanın bir çox haqsızlıqlarını görüb, əsrin faciələrinin şahidi olub. Heç şübhəsiz, millətini, dövlətini sevən bir ziyalı kimi, qəlbindən gələn haqq səsini yazıya almaya, o müdhiş olayları poeziyanın məhkəməsinə verməyə bilməzdi.

Hacan müəllimin uşaqlıq illəri dünyaya göz açdığı Qaraçöp elində keçib. Söykəndiyi Töyrə təpəsinin ab-havası, əfsanəvi Qavrı çayının axar-baxarı ruhuna qida verib. O, doğuya, batıya, quzey, güney Azərbaycana, baxtının tacı Borçalıya məhz "eyvan mahallı Qaraçöp"dən baxıb.

Vətən, Torpaq, Dünya, Zaman və insan mənəviyyatının müxtəlif problemləri onun şeirlərinin kökü və mayasıdır. H.Hacısoyun "Arasında", "Örkən doğanaqdan keçir", "Ömür sünbül üstə dəndir", "Olmasa", "Nə vecinədir", "Arzu" və digər şeirləri, gəraylıları aşıq şeir şəkillərinə məxsus keyfiyyətləri özündə ehtiva edən maraqlı sənət nümunələridir. Bu şeirlərdə folklordan gələn motivlər müasir düşüncə ilə birləşir:

***Könül, olma ürəyi dar,***
***Bir boşalan, bir də dolar!***
***El qayıdar, bərpa olar,***
***Köhnə çağlar yurd yerində.***

Müəllifin şeirlərində Yol obrazı diqqəti cəlb edir. Bu yollar oxucunu qədim yurd yerlərinə – Borçalıya, Azərbaycana, Xudafərinə, oradan Turana aparıb çıxarır.

Doğma vətəndən, onun qayğı və ağrılarından yazan Hacan Hacısoy ovqatının nikbin anlarında ara-sıra sevgi mövzusuna da üz tutur. "Məni bu sevgi yaşatdı", "Mənim eşqim", "İkimiz bir yerdə", "Bir tamın iki hissəsiyik", "Qovrulmuşa rəhmin gəlsin", "Sözümdən yaman qorxuram", "Hər şirin dilə aldanma", "Məhəbbət halallıq sevir, Ona haram qatmaq olmaz", "Allah, bu sevgini günaha yazma" istəyi müəllifin sufi düşüncəsindən, təsəvvüf işığından süzülüb gəlir:

***Bütün ucaların ucası budur,***
***Dilimin kəlməsi, hecası budur.***
***Könlümün yeganə ricası budur,***
***Allah, bu sevgini günaha yazma.***

Ənənəvi formada yeni məzmun çalarlarını davam etdirən şair "Həmişə bir yerdə, həmişə ayrı" şeirində düşüncələrini antitezalar üzərində qurmağa çalışır. Biri digərinin əksi olan qütblər oxucu düşüncəsini yerindən tərpətməklə ona narahatlıq hisslərini də yaşadır.

H.Hacısoy özünü mühakimə edən, həm də özünə hesabat verən ziyalı, harada düz, harada səhv etdiyini etiraf edən şəxsiyyətdir. Oxucu müəllifin poetik aləmi ilə tanış olduqca kövrək duyğuların doğurduğu etiraf və hesabatların şahidi olur:

Şeirlərində hesabatla kifayətlənməyən müəllif mənəvi aləmin dərin qatlarına enir. "Asılı", "Məni öz əlimdən qurtar, İlahi" şeirləri lirik qəhrəmanın taleyi haqqında ciddi fikirləri özündə ehtiva edir. Qeyrət və haqsızlıq... Bunlar bir-birini təkzib edən qütblərdir. Hacan özünə qarşı o qədər tələbkardır ki, hətta özündən qurtarmaq üçün İlahiyə müraciət edir.

Hacan Hacısoyun şeir dilində İlahi, Tanrı, Ya Rəsulallah kəlmələrinə də sıx-sıx rast gəlirik. Bu, müqəddəs Həcc ziyarətində olmuş adamın müdriklik səviyyəsinin, həm də din, iman adamı olduğunun göstəriciləridir. Odur ki, "Var ilə yoxun arası" kitabının (Bakı, 2016) bir bölməsi "Allah-Rəsulallah-Müqəddəs kitab, üçü bir vəhdətə səcdə qılıram" adlanır.

Şair Hacan Hacısoyun şeir dili sadədir. Xüsusən lirik şeirlərində şifahi poeziyanın dilinə məxsus təbiilik, axıcılıq diqqəti cəlb edir. Əlvan təşbehlər, atalar sözü, zərb məsələlər, cinaslar təzadlı qarşılaşdırmalardan məqamında istifadə onun şeir dilinə şirinlik gətirir. Məsələn, "Bir sahiləm ləpədöyən" şerində oxuyuruq:

***Dəyirmanım düzənlikdə,***
***Dəhnəsi dayanıb dikdə.***
***Daş-daşı yedi, dənlikdə,***
***Dənim olmadı neyləyim.***

Bədii yaradıcılığını əsasən kövrək duyğulu, didaktik ruhlu şeirlər təşkil edən şair H.Hacısoyun poemaları Vətən harayının əks-sədasıdır. Dərin yanğı hissi ilə qələmə alınmış "Dərd örnəyi – Vətən" poemasında xəyanət, unutqanlıq və biganəliyə qarşı güclü ittiham var. Daha sonra Xocalı faciəsi, Daşaltı xəyanəti xatırlanır.

Müəllifin ikinci poeması "Yurdum-yuvam..." adlanır. Əsərdə Azərbaycanın ağrı-acısına geniş əhatəli prizmadan yanaşılır. Poemanın məziyyətlərindən danışarkən xalq şairi Nəriman Həsənzadə haqlı olaraq yazır ki, "Poemanızda sanki bütün Azərbaycanının dərd xəritəsini cızmısınız".

Poemanın ikinci hissəsi Vətənin digər parası "Gözümün ağı-qarası Borçalıya" həsr olunub. Onu da qeyd edək ki, Borçalı müəllifin bədii yaradıcılığında əzəli-əbədi mövzulardan biridir. Bu ağır elin Başkeçid, Qaraçöp, Qarayazı və digər bölgələrinin dəfələrlə vəsf edilməsi fikrimizi bir daha təsdiq edir. Müəllif "Sən bir səhvin qurbanısan, Baxtı qıyqacı Borçalı" yanğısı ilə İran şahının ədalətsiz fərmanını qınayır və Azərbaycanın tarixi abidəsi olan "Sınıq körpü" sərhəd məntəqəsinin adına işarə edərək deyir:

***Dərd içində qəm yeməkdi,***
***Ayrılıq, həsrət deməkdi.***
***İki yerə bölünməkdi,***
***Sənin adın - mənim könlüm!***

Poemada paralanmış Borçalının qayğı və iztirabları ilə yanaşı, milli qürur və iftixar hissi də aparıcı mövqedədir. Əxlaqi-mənəvi dəyərlərimizi indi də qoruyub saxlayan Qarapapaq kişiləri, xalqımıza görkəmli şəxsiyyətlər bəxş etmiş Borçalı məktəbləri lirik ovqatda tərənnüm edilir.

***Fərhad XUBANLI,***
***pedaqogika üzrə fəlsəfə doktoru***

**Gürcüstan**

# AMEA-da Elm Günü qeyd olunub




**Dünən Azərbaycan Milli Elmlər Akademiyasında (AMEA) Elm Gününə həsr olunmuş toplantı keçirilib.**

Məclisdə AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli Elm Günü və elm haqqında söz, akademik elmin vəzifələri mövzusunda çıxış edib. O bildirib ki, Prezident İlham Əliyevin sərəncamı ilə 2018-ci ildən qeyd edilən Elm Günü müstəqil Azərbaycan dövlətinin yaradıcı ziyalılarının, alimlərinin, elm adamlarının xidmətlərinə verdiyi yüksək qiymətin əməli ifadəsidir. Ötənilki Elm Günündən keçən birillik dövrün elm aləmi üçün ən böyük tarixi hadisəsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin AMEA-nın 80 illik yubileyində iştirak etməsi və dərin məzmunlu, proqram xarakterli nitq söyləməsi olub.

Prezidentin tapşırığından irəli gələrək Akademiyada bu istiqamət üzrə fəaliyyətin genişləndirildiyini deyən akademik İsa Həbibbəyli Dilçilik İnstitutu tərəfindən Azərbaycan dilinin linqvistik korpusunun yaradılması sahəsində mühüm addımların atıldığını, Azərbaycan dilinin orfoqrafiya və orfoepiya lüğətləri üzərində işlərin tamamlandığını söyləyib. Bundan əlavə, şəxs adlarının yeni soraq kitabının hazırlanaraq aidiyyəti üzrə müvafiq quruma təqdim olunduğunu, Azərbaycan dilinin saflığının qorunması və qrammatikasının yenidən yazılması sahəsində də ardıcıl işlərin aparıldığını diqqətə çatdırıb.

Sonra Elm Gününün fəxri qonağı Azərbaycan Rəssamlar İttifaqının sədri, Xalq rəssamı, professor Fərhad Xəlilov, Xalq yazıçısı Anar və başqaları çıxış ediblər.

Mərasimdə Xalq rəssamı Fərhad Xəlilovun həyat və yaradıcılığına həsr olunmuş filmə baxış keçirilib.

Sonda yubilyar əməkdaşlar təltif olunublar.

***XQ***

# Sadaxlılıların Səməd Vurğun sevgisi



**Xalq şairi Səməd Vurğunu Borçalının Sadaxlı kəndi ilə sıx dostluq əlaqəsi birləşdirmişdi. Bu obada böyük şairin xatirəsi həmişə əziz tutulur. Sadaxlı əhalisi bu dostluqla həmişə fəxr edir, şairin yubileylərini təntənə ilə qeyd edirlər. Səməd Vurğunun anadan olmasının 120 iliyi münasibətilə də Sadaxlıda təntənəli mərasim keçirilib.**

Kənddə fəaliyyət göstərən "Sadaxlı Təhsil və İnteqrasiya Mərkəzi"ndə təşkil edilən mərasimdə bölgənin yaradıcı ziyalıları, müəllimlər və ictimai fəallar iştirak ediblər. Mərkəzin rəhbəri Samir Şərifov çıxış edərək Səməd Vurğun yaradıcılığının gənc nəslin milli mənlik şüurunun formalaşmasındakı rolundan bəhs edərək deyib ki, o, sadəcə şair deyil, Azərbaycan dilinin saflığını və xalq ruhunu öz misralarında yaşadan bir zirvədir. Bu gün şagirdlərimizin onun yaradıcılığına göstərdiyi maraq mərkəzimizin əsas məqsədlərindən biri olan milli dəyərlərin qorunması və gələcək nəsillərə ötürülməsi missiyasına xidmət edir.

Digər çıxış edənlər ölməz xalq şairinin zəngin yaradıcılığından, onun Azərbaycan ədəbiyyatındakı əvəzsiz rolundan və keçdiyi şərəfli həyat yolundan söz açıb, yeni nəsillərin Səməd Vurğun irsini dərindən öyrənməsinin vacibliyini vurğulayıb, onun Borçalıya səfərləri barədə xatirələrini bölüşüblər.

Bədii hissədə şagirdlərin ifasında şairin vətənpərvərlik rəmzinə çevrilmiş "Azərbaycan" şeiri və "Vaqif" dramından səhnələr təqdim edilib.

***XQ***

# Akademik Rafael Hüseynov Daşkənddə Heydər Əliyev adına Mədəniyyət Mərkəzində

**Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, akademik Rafael Hüseynov Özbəkistana səfəri çərçivəsində Daşkənddəki Heydər Əliyev adına Mədəniyyət Mərkəzində olub.**



Akademik Rafael Hüseynova 2010-cu ildən bəri Özbəkistanda Azərbaycan mədəniyyətinin təbliği istiqamətində Mərkəzin həyata keçirdiyi tədbirlər haqqında ətraflı məlumat verilib. Bildirilib ki, son illərdə bu Mərkəz Azərbaycan–Özbəkstan mədəni əlaqələrinin inkişafında əhəmiyyətli işlər görüb, bir sıra tarixi mənalı nəşrləri gerçəkləşdirib.

Daha sonra Heydər Əliyev adına Mədəniyyət Mərkəzindəki rəqs dərnəyinin üzvlərinin ifaları təqdim edilib.

***XQ***

# Türk professorun Bakı görüşünün əks-sədası


Baxşəliyeva Şərqşünaslıq İnstitutunda aparılan tədqiqatlar barədə məlumat verib.

*Şehitler Hıyabanı(Anıtı)*

1918 senesinde Bakü uğruna savaşlarda şehit düşmüş Azerbaycanlı ve Türk askerlerinin gömüldükleri yerdir. Bakü'nün Sebail İlçesi'nde bulunmaktadır.. Sovyet döneminde 1924-1990 yıllarında mezarlık lağvedilmiş ve yerinde Dağ Üstü Park (eğlence merkezi) yapılmıştır. 1990 yılında Sovyet-Rus askeri birliklerinin Bakü'de sivil ahaliye karşı yapmış oldukları toplu 20 Ocak 1990 katliamından sonra arazi yeniden Şehitler Hıyabanı olarak adlandırılmaya başlamış ve Ocak katliamı şehitleri de oraya gömülmüşler. Hıyabanda 20 Ocak katliamının şehitlerinden başka, Karabağ savaşı şehitlerinin bir kısmı da defnedilmiştir. Şehitler Hıyabanı yurtdışından Bakü'ye gelen resmi heyetlerin protokol ziyaret yerlerinden biridir.

**Ötən ayın əvvəlində Bakıda olmuş Türkiyənin Yıldız Universitetinin professoru Süleyman Doğan ölkəsində nəşr olunan "Aksarayın Hafızası" jurnalında bu səfəri barədə geniş məqalə dərc etdirib.**

Martın 6-da AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda görüş keçirmiş və mühazirə oxumuş alim "Türküstan coğrafiyasından Bakı məktubu" adlı məqaləsində bu barədə ətraflı məlumat verib. Şərqşünaslıq İnstitutundan mediaya bildirilib ki, professor Süleyman Doğan institutun elmi mühiti, burada çalışan tədqiqatçıların peşəkarlığı və aparılan araşdırmaların əhəmiyyəti barədə ətraflı məlumat təqdim edib.

Məqalədə professor Süleyman Doğan institutun direktoru, akademik Gövhər Baxşəliyeva ilə görüşünü yüksək dəyərləndirib, institut rəhbərliyinin göstərdiyi diqqəti və elmi mühitin səviyyəsini xüsusi vurğulayıb. Yazıda Şərqşünaslıq İnstitutunda keçirilmiş mühazirə və ona göstərilən maraq barədə də geniş bəhs olunub.

Diqqətçəkən məqamlardan biri də ondan ibarətdir ki, müəllif Azərbaycanda onunla keçirilmiş görüşlə bağlı yayımlanmış xəbəri Türkiyə nəşrindəki məqaləsinə tam şəkildə Azərbaycan dilində daxil edib.

***XQ***

Molla Nəsrəddin – 120

# Qoca “Molla Nəsrəddin” yatmış Şərqi oyatmaq üçün gəlmişdi

**Azərbaycan demokratik mətbuatının inkişafında yeni məktəbə çevrilmiş ilk satirik jurnal “Molla Nəsrəddin”in nəşrə başlamasından 120 il ötür.**

Bizi deyib gəlmiş “Molla Nəsrəddin” Azərbaycan mətbuat tarixinin, maarifçilik yolunun əbədi məşəlidir. O, xalqı təhsilə, yeniliyə, tənqidə və azadlığa səsləyən dəryadır. Mətbuat tariximizin incisi ilə bağlı Həmidə xanım Cavanşir “Xatirələrim”də yazırdı: “1906-cı il aprel ayının 7-si gecəsi Mirzə Cəlillə Ömər Faiq Nemanzadənin cibində cəmi 9 manat pul var imiş. Onlar da bu pula çap dəzgahının qulpunu fırlatmaq üçün bir hambal tutublarmış. Gecə hambalı yola saldıqdan sonra ikinci hambal tutmağa daha pul qalmayıb. Onlar səhərə qədər növbə ilə çap dəzgahının qulpunu fırlayıblar”.

Səhər açılanda isə milli mətbuatın sabahına günəştək doğacaq “Molla Nəsrəddin”in tarix yazacaq ilk nömrəsi min bir əməklə çapdan çıxır. 7 aprel 1906-cı ildə Tiflisdə “Molla Nəsrəddin” jurnalının ilk nömrəsi bizi deyib gəlir...

Jurnalın redaktoru böyük Azərbaycan yazıçısı və publisisti Cəlil Məmmədquluzadə idi. Onun zəhməti, uzaqgörənliyi, xalq sevgisi, cəsarətlə zamanın doğurduğu ictimai ağrıları, milli dərdlərimizi jurnalın hər nömrəsində göstərirdi. Xalqın avamlığını, onlarla “həsbi-hal” edirmiş kimi “Molla Nəsrəddin”lə özünə göstərən, obrazın xarakterində incəliklə aydınladan, cilalayan Cəlil Məmmədquluzadənin ədəbi-bədii yaradıcılığı xalqımızın ictimai fikir dünyasının dəyərli varidatıdır. “Dünyada hər bir kəs üçün sözdən böyük yadigar yoxdur. Zira ki, mal-mülk tələf olur gedir, amma söz qalır” amalı ilə məfkurə savaşına başlamış görkəmli ədibin şah əsəri olan “Molla Nəsrəddin” jurnalı fərqli vaxtlarda fasilələrlə – 1906-1918-ci illərdə Tiflisdə, 1920-1921-ci illərdə Təbrizdə, 1922-1931-ci illərdə isə Bakıda çap edildi. 25 ildən çox gərgin fəaliyyəti dövründə jurnal cəhaləti cəmiyyətin üzünə vuraraq, eyham yolu ilə həqiqəti söyləyir, karikaturalarla həm də bir dövrün mənzərəsini, xalqın dərdini, cəmiyyətin ədalət axtarışını əks etdirirdi.

“Molla Nəsrəddin” jurnalının nəşrinə başlamaqla Cəlil Məmmədquluzadə Yaxın Şərqdə satirik jurnalistikanın əsasını qoydu. Onun tənqidi cəsarəti, yumor və ironiyanı ustalıqla birləşdirməsi jurnalın xalq arasında sevilməsinə, populyarlıq qazanmasına səbəb oldu. Bu jurnalın hər nömrəsi bir məktəb idi. Orada məmurlar, vəzifə sahibləri, hətta padşahlar belə tənqid olunur, amma hər zaman incitmədən, məqsədi qoruyaraq verilirdi. İnsanlar bu tənqidi başa düşür, onun vacibliyini dərk edirdilər.

“Molla Nəsrəddin” öyrədir, yol göstərir və cəmiyyəti inkişafa ruhlandırırdı. Cəlil Məmmədquluzadə “Molla Nəsrəddin” jurnalını yaratmaqla Azərbaycan mətbuatında yeni bir dövr açdı. Xalqın dərdini, sevincini, ümidlərini əks etdirən ayna oldu. Onun səhifələrindəki hər karikatura və hər satirik yazı öyrənilәsi dərslərlə doludur və bu gün də “Molla Nəsrəddin”in mirası cəmiyyəti düşündürür və gələcəyə doğru ümidlə baxmağa sövq edir.

**Cahangir MƏMMƏDLİ,**
**BDU milli mətbuat tarixi kafedrasının müdiri, professor:**



– Azərbaycan satirik mətbuatının əsasını qoyan və ədəbi məktəb yaradan “Molla Nəsrəddin” jurnalı 25 illik fəaliyyəti dövründə türk-müsəlman dünyasında, eləcə də Yaxın Şərqdə geniş yayılaraq xalqların azadlıq, müstəqillik, demokratiya uğrunda mübarizəsində mütəşəkkil və ardıcıl rol oynadı. Jurnal Azərbaycan ədəbi-ictimai fikrinə yeni üslub, yeni baxış və düşüncə tərzi gətirməklə, yayıldığı ölkələrdə demokratik ictimai fikrin təkamülünə, satirik mətbuat və ədəbiyyatın inkişafına güclü təsir etdi.

Milli və bəşəri dəyərləri özündə yaşadan jurnalın yürütdüyü ideoloji xətt çağdaş dövrümüzdə də olduqca aktualdır. Əbədiyaşarlıq qazanan “Molla Nəsrəddin” jurnalı xalqımızın zəngin söz xəzinəsidir. Elə bir xəzinə ki, biz bütün dövrlərdə ondan yaradıcılıqla bəhrələnirik. Məhz elə bu yüksək məziyyətlərinə görə də “Molla Nəsrəddin” jurnalı həmişə çoxsaylı oxucuların və ziyalıların diqqət mərkəzində qərar tutur.

“Molla Nəsrəddin” jurnalını geniş oxucu auditoriyasına sevdirən və əhəmiyyətini artıran, həm də onun çoxsaylı, satirikyönümlü rubrikalarıdır. Jurnalın nəşri boyunca istifadə etdiyi folklor nümunələrinə parodiya və perifrazlar şəklində yaratdığı “Atalar sözləri”, “Bayatılar”, “Nağıllar”, “El ədəbiyyatı”, “Tapmacalar”, “Hikmətli sözlər”, eləcə də “Teleqraf xəbərləri”, “Ticarət və ekonomi xəbərləri”, “Daxili xəbərlər”, “Xarici xəbərlər”, “Qafqaz xəbərləri”, “Mətbuat xəbərləri”, “Elanlar” və s. çoxsaylı rubrikalar verilmişdir.

Bu gün 120 ilini tamamlayan “Molla Nəsrəddin” jurnalında onun publisistikası və satirik poeziyası ilə tam uyarlıq yaradan çoxsaylı karikaturaların böyük rolu vardır. Oxucular tərəfindən anlaşılan, istedadlı rəssamların yüksək sənətkarlıqla çəkdikləri karikaturalar jurnalın populyarlıq qazanmasında mühüm əhəmiyyət kəsb etmişdir.

Jurnal keçən əsrin 30-cu illərindən başlayaraq ədəbi ictimaiyyətin diqqət mərkəzində olmuş, görkəmli ədəbiyyatşünaslar, ədəbi tənqidçilər, nəzəriyyəçi-alimlər tərəfindən müxtəlif aspektdən təhlilə cəlb edilmişdir. “Molla Nəsrəddin” ədəbi hərəkatının mənbəyi və əsas istiqamətləri, tənqidi realizm, mollanəsrəddinçilik, onun dünya nəzəriyyələr sistemindəki yeri, orijinallığı və beynəlxalq aləmdə yayılaraq xarici oxuculara çatdırılması məhz görkəmli alimlərimizin cəfakeşliyi sayəsində reallaşmışdır.

**Qulu MƏHƏRRƏMLİ,**
**Əməkdar jurnalist, professor:**



– Molla Nəsrəddin jurnalı, sözün həqiqi mənasında, Azərbaycan mətbuat tarixinin incisidir. Bu jurnalın yaranması mətbuatın qısa müddətdə qazandığı yeni keyfiyyət mərhələsini simvolizə edir. Cəmiyyətin ictimai, sosial və mənəvi problemləri jurnalda özünəməxsus şəkildə, satirik və tənqidi üslubla təqdim olunurdu.

Cəlil Məmmədquluzadə elə bir istiqamət seçmişdi və o bilirdi ki, yalnız satira və tənqid vasitəsilə cəmiyyətin bəzi problemləri başa düşməsi mümkündür. Çünki həmin dövrdə kütləvi savadsızlıq, təhsildən uzaq qalma və məlumatları dərk edə bilməmə insanları geriliyə sürükləyirdi. “Molla Nəsrəddin” bu boşluğu karikaturalar, yığcam felyetonlar və satirik yazılar vasitəsilə dolduraraq tarixi bir missiyanı yerinə yetirirdi. Jurnalın uğrunda naşir Ömər Faiq Nemanzadə və Mirzə Ələkbər Sabir kimi bir çox istedadlı qələm adamlarının rolu əvəzsiz idi. Onların yaradıcılığı milli tərəqqiyə xidmət edir, insanların özünü görməsi və cəmiyyətdə maarifçilik prosesinin genişlənməsi üçün şərait yaradırdı.

“Molla Nəsrəddin”in gücü xalqa olan sevgidən və onları düşünərək gələcəyə yönəlik tənqid etməkdən gələn bir məktəb idi. Onun tərzi, üslubu və yaradıcılıq metodları bu gün də öyrənilməli və nümunə götürülməlidir. O dövrü nəzərdən keçirsək, Mirzə Cəlilin səviyyəsində belə bir cəsarətli və məqsədli milli nəşr çox nadir idi. Bu istedad zəmanənin yaratdığı azacıq imkanla birləşərək jurnalın Azərbaycan mətbuat tarixindəki rolunu möhkəmləndirdi.

“Molla Nəsrəddin” göstərdi ki, tənqid yalnız qüsurları göstərmək deyil, həm də cəmiyyətin inkişafına yol açmaq üçün vasitədir. Bu jurnal qısa müddətdə mətbuatın yeni keyfiyyət mərhələsinə qədəm qoydu və cəmiyyətin ictimai, sosial, mənəvi problemlərini özünəməxsus satirik tərzdə təqdim etməyi bacardı.

Bu gün isə cəmiyyətimiz çox həssaslaşıb və bəzən tənqid təhqirlə qarışdırılır. İnsanlar dözümsüz olub. Halbuki “Molla Nəsrəddin” jurnalının tənqid hədəfləri aydın və konkret idi. Məmurlar, vəzifə sahibləri, hətta padşahlar – İran şahı, Nikolay, qubernatorlar jurnalın obyektiv diqqətindən kənarda qalmırdı. Mirzə Cəlil bunları bir dildə və bir üslubda göstərir, oxucu tənqidi qəbul edir və onun vacibliyini başa düşürdü. Bu baxımdan, “Molla Nəsrəddin”dən öyrənmək həmişə aktualdır.

Jurnalın 120 illiyi tamam olur və bu yubiley həm də bizə xatırladır ki, “Molla Nəsrəddin” hələ də tam öyrənilməyib. Bu, mətbuat və jurnalistika tariximiz üçün əsl məktəbdir. Onun peşəkarlıq xüsusiyyətləri araşdırılmalı, incələnməli və gələcək nəsillərə çatdırılmalıdır. Əlbəttə, artıq çox sayda tədqiqatçı Mirzə Cəlil və “Molla Nəsrəddin”i öyrənib, lakin jurnal elə bir xəzinədir ki, onun bütün incəliklərini tam dərinliyi ilə öyrənmək çox qəliz məsələdir.

**Qərənfil DÜNYAMİNQIZI,**
**BDU milli mətbuat tarixi kafedrasının professoru:**

– Molla Nəsrəddin jurnalı Azərbaycan satirik mətbuat tarixində özünəməxsus və silinməz iz qoymuş nadir nəşrlərdəndir. Jurnalın illər əvvəl qaldırdığı problemlər bu gün də öz aktuallığını qoruyur. Jurnalın istənilən sayını vərəqlədikdə ana dilinə qarşı laqeydliyə həsr olunmuş materiallara rast gəlmək mümkündür. Bu problem aradan qalxmayıb, əksinə, müəyyən mənada, bu gün də davam edir.

Əlbəttə, çox dil bilmək mədəni zənginlik və dünyagörüşünün genişlənməsi deməkdir. Bununla yanaşı, əsas prinsip hər bir insanın ilk növbədə öz ana dilini mükəmməl bilməsi, onu qoruması və inkişaf etdirməsidir. Digər diqqətçəkən məqam isə cəmiyyətdə hələ də mövcud olan mövhumat və xurafat elementləridir. Falçılıq, qeyri-elmi inanclar və müxtəlif dini-simvolik yanaşmaların yayılması cəmiyyətin intellektual inkişafına mənfi təsir göstərən amillərdəndir.

Jurnalın fəaliyyət dövrü ilə bağlı mühüm mənbələrdən olan Həmidə xanım Cavanşirin xatirələridir. Onun “Xatirələrim” əsərində jurnalın üzləşdiyi çətinliklər, təzyiqlər və maneələr geniş şəkildə əks etdirilib. Həmidə xanım Cavanşir “Xatirələrim”də Molla Nəsrəddin jurnalının fəaliyyəti ilə bağlı geniş məlumat verir, Tiflis mühitində “Molla Nəsrəddin” jurnalının necə ərsəyə gəlməsi, ideya və təşkilati mərhələlərini də diqqətə çatdırır.



Jurnalın qaldırdığı cəhalət, mövhumat, elmdən uzaqlaşma kimi məsələlər geniş coğrafiyada insanları narahat edən ümumi problemlərdir. “Molla Nəsrəddin” məhz bu problemləri satira vasitəsilə qabardaraq cəmiyyəti maariflənməyə, elmə və təhsilə yönəltməyə çalışırdı. Jurnalın yaradıcısı, ideya müəllifi Cəlil Məmmədquluzadə də öz xatirələrində qeyd edirdi ki, “Molla Nəsrəddin”i onlar yox, zəmanə özü yaradıb.

Bütün bu çətinliklərə baxmayaraq, “Molla Nəsrəddin” fasilələrlə olsa da, təxminən 25 il fəaliyyətini davam etdirə bilib. Xüsusilə 1906-1917-ci illərdə Tiflisdə nəşr olunan saylarından sonra nəşrin Təbrizdə də davam etdirilməsi, burada bir neçə sayın çap olunması onun fəaliyyət coğrafiyasının genişliyini bir daha təsdiqləyir. Jurnalın Bakı dövrü əvvəlki Tiflis və Təbriz dövrlərindən məzmun və mahiyyət baxımından fərqlənir. Həm jurnalın tədqiqatçısı, həm də bu mühitin canlı şahidlərindən biri kimi Qulam Məmmədli qeyd edib ki, “Molla Nəsrəddin”in Təbriz, Tiflis və Bakı dövrlərini bir-biri ilə müqayisə etmək düzgün deyil. Bu yanaşma Şirməmməd Hüseynov və Ataxan Paşayev kimi alimlərin əsərlərində də öz əksini tapır.

Tiflis və Təbriz dövrlərində “Molla Nəsrəddin” daha çox xalqın dərdini, sosial problemləri, cəhalət və mövhumatı hədəf alan, geniş kütlələrin maraqlarını ifadə edən bir nəşr kimi çıxış edib. Bakı dövründə isə Sovet hakimiyyəti şəraitində fəaliyyət göstərən jurnal fərqli ideoloji mühitdə çıxıb. Bu səbəbdən həmin mərhələ bəzi tədqiqatçılar tərəfindən “şura dövrünün Molla Nəsrəddini” kimi xarakterizə olunur. Lakin hər dövr olduğu kimi, yenə Cəlil Məmmədquluzadə üçün əsas prinsip dəyişməz qalıb. Senzuralar səbəbindən Mirzə Cəlilin həyatının son illəri olduqca ağır və faciəli keçib. O, ədəbi və ictimai mühitdən tədricən uzaqlaşdırılıb, yaradıcılıq imkanları məhdudlaşdırılıb, maddi və mənəvi təzyiqlərlə üzləşib. Bütün bu haqsızlıqlar fonunda jurnalın adının “Allahsız” kimi dəyişdirilməsi ədibə çox ağır təsir edib.

Mollanəsrəddinçi sənətkarların hər biri bu məktəbi zənginləşdirərək onun təsir dairəsini genişləndirdi və nəticədə bu istiqamət milli ictimai-bədii fikrin ən parlaq mərhələlərindən birinə çevrildi. Bu gün də həmin məktəb öz aktuallığını qoruyur və müasir jurnalistika üçün nümunəvi irs kimi dəyərləndirilir.

***Ləman TƏHMƏZ***
***XQ***







# Güldürüb-ayıldan rəssamlıq məktəbi

## *Azərbaycan satirik qrafikasının təməli*

**Azərbaycan mətbuat tarixində mühüm yer tutan “Molla Nəsrəddin” jurnalının nəşrə başlamasının 120 ili tamam olur. 1906-cı ildə böyük ədib Cəlil Məmmədquluzadə tərəfindən əsası qoyulan və ətrafına Mirzə Ələkbər Sabir, Əbdürrəhim bəy Haqverdiyev kimi bir çox qələm sahibini toplayan jurnal yalnız ədəbiyyat deyil, həm də təsviri sənət sahəsində yeni məktəbin əsasını qoydu.**

Cəlil Məmmədquluzadə jurnalda can-la-başla çalışacaq yenilikçi, tərəqqipərvər rəssamlar üçün davamlı axtarışlar aparırdı. Çünki o, əhalinin böyük əksəriyyətinin savadsız olduğu dövrdə qrafik rəsmlərin maarifləndirici gücünü və onların jurnalda çapının vacibliyini yaxşı anlayırdı. Çox keçmədi ki, ədibin bu arzusu reallaşdı və jurnal Ə.Əzimzadə, İ.Axundov, Q.Xalıqov, O.Şmerlinq, İ.Rotter kimi rəssamları özünə cəlb etməyi bacardı.

Rəssamlar jurnalın ədəbi mətnlərini karikatura, şarj və müxtəlif alleqoriyalar vasitəsilə tamamlayaraq, mövzuları daha aydın ifadə edirdilər. Dövrün ictimai-siyasi əhəmiyyətli hadisələrini geniş xalq kütləsi üçün doğma və anlaşıqlı edən məhz həmin rəsmlər idi.

Mirzə Cəlil bu barədə qeyd edirdi ki, nökərlər jurnalın səhifələri ilə samovarı alışdırarkən bu şəkilləri görür, qəh-qəh çəkib gülür, sonra isə mətləbi başa düşərək susur və dərin fikrə dalırdılar. Məhz bunun nəticəsi idi ki, ədib jurnalın uğurunun yarısını rəssamların uğuru hesab edirdi: “Molla Nəsrəddin” tək bir nəfər müəllifin əsəri deyil. “Molla Nəsrəddin” bir neçə mənim əziz yoldaşlarımın qələmlərinin əsərinin məcmuəsidir ki, mən də onların ancaq ağsaqqal yoldaşıyam”.

Təsviri sənətimizin inkişafındakı rolu Cəlil Məmmədquluzadə və Mirzə Ələkbər Sabirin Azərbaycan ədəbiyyatının inkişafındakı rolu ilə eyniləşdirilən novator rəssam Əzim Əzimzadə karikatura yaradıcılığı ilə milli təsviri sənətdə satirik qrafikanın əsasını qoymuşdur. O, xüsusi rəssamlıq təhsili almamasına baxmayaraq, yaradıcılıq təcrübəsini bu sahədə inkişaf etdirmiş, ideya-bədii cəhətdən kamil olan rəsmlər ortaya çıxarmışdır. Rəssam, eyni zamanda, yaradıcılığa öz karikaturalarını “Molla Nəsrəddin” jurnalında dərc etdirməklə başlamışdır.

Əzim Əzimzadənin karikaturaçı rəssam kimi yaradıcılığının kökləri “Molla Nəsrəddin” jurnalında çap olunmuş “İrşadın müştərisi” adlı karikaturası ilə bağlıdır. Bu karikaturanın çapı gənc rəssamın sevincinə səbəb olmuş, bundan sonra onun “Cənab Vittenin İrana səfəri”, “Millət dərdi çəkən dövlətmənd müsəlman”, “Hambala oxşayanlar” və s. kimi karikaturaları jurnalın səhifələrində çap olunmuşdur.

Əzim Əzimzadənin “Molla Nəsrəddin” jurnalı üçün yaratdığı karikaturalar dövrün real həyatını özündə təsirli şəkildə əks etdirirdi. Rəssam qəhrəmanlarını yaradıcı surətdə təsvir etməyə çalışmış, onların ruhunu anlamaqda oxucuya yardım etmişdir. Rəssamın sənət dilinin səlisliyi, kəskinliyi onun bu sahədə hərtərəfli istedadını üzə çıxarmışdır. Beləliklə, özünəməxsus təsvir vasitələrindən istifadə edən rəssam bir növ tipajlar qalereyası yaratmışdır.

1922-ci ildə “Molla Nəsrəddin” jurnalı Bakıda nəşr edildiyi dövrdə Mirzə Cəlil Əzimzadəni də jurnalla əməkdaşlığa dəvət etmişdir.

Jurnalın adını eşidən kimi onun üz qabığındakı Molla Nəsrəddin obrazı gözümüzün qabağında canlanır. Jurnalın tanınmasında müstəsna rol oynayan və yalnız Azərbaycanda deyil, bütün Şərqdə məşhur olan bu karikaturanın müəllifi “Molla Nəsrəddin” jurnalının əsas rəssamlarından olan Oskar Şmerlinq idi. 1906-cı ildən etibarən “Molla Nəsrəddin” jurnalı ilə əməkdaşlığa başlayan O.Şmerlinq çəkdiyi kəskin satirik karikaturalarla jurnalın populyarlıq qazanmasında və bədii təsir gücünün artmasında yaxından iştirak etmişdir. Rəssamın jurnalın birinci nömrəsinin üz qabığı üçün C.Məmmədquluzadənin sifarişi əsasında çəkdiyi “Müsəlman dünyasının oyanışı” adlı karikaturası “Molla Nəsrəddin” jurnalının əsas ideya xəttini və proqramını ifadə edirdi. Rəssamın jurnalı bəzəyən “Sizi deyib gəlmişəm”, “Niyə məni döyürsünüz?” və s. kimi məşhur karikaturaları jurnalın məqsədini dolğun şəkildə ifadə edirdi. Rəssamın karikaturalarının jurnalın aparıcı ideyaları ilə tam uzlaşması onların tez-tez nəşrin üz qabığında çıxarılmasını şərtləndirirdi ki, bu da rəssamın yaradıcılığına verilən yüksək qiymətin göstəricisi idi.

Rəssam cəmiyyətin ictimai problemlərini, savadsızlığı, geriliyi kəskin tənqid edən karikaturaları ilə cahil insanların özlərini özlərinə güldürürdü. Rəssamın yaradıcılığını yüksək qiymətləndirən Mirzə Cəlil onun haqqında yazırdı: “Keçən günləri yadıma salıb məcmuənin yolunda mərhəmət göstərənləri bir daha yada saldıqda onların içində ən dəyərli köməkçimiz Oskar İvanoviç Şmerlinqə qəlbimin incə bir guşəsindən intəhasız salamlar göndərirəm”.

Jurnalın nəşri prosesində O.Şmerlinqlə çiyin-çiyinə çalışan rəssam İosif Rotterin yaradıcılığı ən az O.Şmerlinq qədər Azərbaycan xalqı, onun mədəniyyəti, ədəbi-bədii mühiti ilə bağlı olub. “Molla Nəsrəddin” məktəbinin ilk əməkdaşlarından olan rəssam, özünəməxsus yaradıcılıq mövqeyi və hadisələrə orijinal yanaşma tərzi ilə jurnalın nüfuzunun yüksəlməsində mühüm xidmətlər göstərmişdir. C.Məmmədquluzadənin təklifini tərəddüd etmədən qəbul edən rəssam, 1906–1914-cü illər ərzində “Molla Nəsrəddin” jurnalının bədii tərtibatını yüksək peşəkarlıqla həyata keçirmişdir.



İosif Rotterin karikaturaları süjet xətti baxımından müstəqil xarakter daşımaqla yanaşı, obrazları satirik gülüşün dili ilə hədəf alan kəskin yazılar qədər dərin təsir gücünə malikdir. Onun bənzərsiz sənətkarlıq qabiliyyəti özünü xarakterik surətlərin yaradılmasında və bədii mətnlərin ideyasını təsvir dili ilə əyaniləşdirmək bacarığında büruzə verirdi. Dövrün mühüm hadisələrinə istinad edən rəssam baş verənləri mühitlə, şəraitlə əlaqələndirir, təsvir etdiyi surətləri sanki öz dili ilə danışdırırdı. Jurnalın dini mövzulu satirik karikaturalarında axirət nemətlərinə qovuşmaq arzusu ilə yaşayan mollalar kəskin tənqid atəşinə tutulur, ifşaedici gülüşün hədəfinə çevrilirdilər. Həmin karikaturaların süjet xəttində özünü göstərən canlılıq cizgilərin ahəngi ilə daha da güclənir və bu rəsmlər İ.Rotterin “satirik rəsm dili” haqqında çox aydın təsəvvür oyadır.

Rəssam təsvir etdiyi hər süjetdə sabit ifadəli obrazlar yaratmaş, əksinə, personajlarını olduqca emosional təsvir etmişdir. Əda ilə küçədə yeriyən obrazlar, at üzərində pristav, boylanan kimsələr... Kəskin satira, incə yumor, öldürücü mübaliğə, alçaldıcı kinayə İ.Rotterin karikaturalarının danışan dilidir. Bir sözlə, rəssamın rəsmlərində karikatura sənəti üçün tələb olunan bütün şərtlər öz əksini tapır. “Molla Nəsrəddin” jurnalının nəşrə başlamasından keçən 120 illik zaman kəsiyi bir daha sübut edir ki, bu nəşr təkcə öz dövrünün salnaməsi deyil, həm də Azərbaycanın mədəniyyət abidəsidir.

Bu böyük məktəbin təməlində isə heç şübhəsiz, Cəlil Məmmədquluzadənin ideyalarını sənətin dili ilə xalqa çatdıran rəssamların ustadlığı dayanır. Milli qrafika sənətimizin sütunu olan Əzim Əzimzadə, İsmayıl Axundov, Əmir Hacıyev, Qəzənfər Xalıqov, Xəlil Musayev, Hüseyn Əliyev və b. rəssamların yaradıcılığında rast gəldiyimiz, “Molla Nəsrəddin” jurnalı üçün çəkilmiş qrafik rəsmlər özünün ən kamil ifadəsini tapmışdır.

“Molla Nəsrəddin”çi rəssamlar sadəcə rəsm çəkməmiş, onlar böyük ideyaları rəsm dilində təqdim edən “silahdaşlar”a çevrilmişlər. Bu rəssamların yaratdıqları “Molla Nəsrəddin” rəssamlıq məktəbi Azərbaycanda satirik qrafikanın əsasını qoymaqla, təsviri sənətdə yeni ideyaları formalaşdıran mühüm bir mərhələ təşkil edir.

***Şəmsiyyə ZALOVA,***
***AMEA Naxçıvan Bölməsinin əməkdaşı, Azərbaycan Rəssamlar İttifaqı və Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin üzvü***

# Dəməşqdə yeni diplomatik format

## *Üçtərəfli görüş regional və qlobal aktorlar arasında dialoqun genişlənməsi üçün yeni imkanlar yaradır*

**Yaxın Şərqin mürəkkəb geosiyasi mənzərəsi fonunda diqqətçəkən hadisələrdən biri Suriyanın paytaxtı Dəməşq şəhərində Ukrayna–Suriya–Türkiyə formatında keçirilən üçtərəfli görüş oldu. Görüş diplomatik təmasların intensivləşməsi ilə yanaşı, çoxqütblü beynəlxalq münasibətlər sistemində yeni əməkdaşlıq mexanizmlərinin formalaşması baxımından əhəmiyyətli hadisə kimi yadda qaldı.**

Görüş çərçivəsində tərəflər təhlükəsizlik, enerji, infrastrukturun bərpası və ərzaq təhlükəsizliyi kimi strateji sahələrdə fikir mübadiləsi apardılar. Xüsusilə Ukrayna ilə Suriya arasında münasibətlərin normallaşdırılması istiqamətində atılan addımlar diqqət çəkdi. Bu kontekstdə diplomatik münasibətlərin bərpası və institusional əlaqələrin yenidən qurulması təşəbbüsləri regionda yeni siyasi dinamikanın formalaşdığını göstərir. Eyni zamanda, müzakirələrdə qlobal ərzaq təchizat zəncirlərinin sabitliyi məsələsi xüsusi yer tutub ki, bu da Ukraynanın beynəlxalq bazarlardakı rolunu nəzərə alsaq, mövzu mühüm əhəmiyyət kəsb edir.



Platformanın əsas fərqləndirici cəhəti Türkiyənin vasitəçilik roludur. Ankara son illər beynəlxalq münasibətlərdə balanslaşdırılmış və çoxvektorlu diplomatiya modeli ilə çıxış edərək müxtəlif tərəflər arasında dialoq mühitinin formalaşmasına töhfə verir. Türkiyənin həm Qərb strukturları ilə əlaqələrin qoruması, region ölkələri ilə aktiv siyasi dialoq aparması ona unikal vasitəçi statusu qazandırır. Hələ Dəməşq görüşündən əvvəl Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüş keçirib. Görüş zamanı Türkiyənin Ukrayna ilə Rusiya arasında dialoqun davam etdirilməsinə dəstək verməyə hazır olduğunu bildirib, bölgədə sabitliyin təmin olunmasının vacibliyini vurğulayıb. Buna görə də Ankaranın təşəbbüsü ilə Dəməşqdə keçirilən görüş Türkiyənin diplomatik çevikliyinin və strateji düşüncə qabiliyyətinin real təzahürü kimi çıxış edir.

Türkiyənin xarici siyasət kursunda son illər müşahidə olunan aktivlik onu regional gücdən qlobal diplomatik aktora doğru transformasiya edən amillərdəndir. Xüsusilə xarici işlər naziri Hakan Fidanın rəhbərliyi ilə aparılan danışıqlar Ankaranın vasitəçilik potensialını daha da gücləndirir. Türkiyə müxtəlif maraqların toqquşduğu mürəkkəb geosiyasi məkanda qarşılıqlı etimad mühiti yaratmaqla tərəflər arasında konstruktiv dialoqu mümkün edir. Mövcud yanaşma cari böhranların idarə olunmasından əlavə, uzunmüddətli sabitlik mexanizmlərinin qurulmasına xidmət edir. Ukraynanın bu formatda iştirakı onun xarici siyasətində yeni istiqamətlərin formalaşdığını göstərir.

Dəməşq görüşü Ukraynanın qlobal diplomatik fəallığının genişlənməsinin göstəricisi kimi dəyərləndirilə bilər. Volodimir Zelenski rəhbərliyində Kiyev administrasiyası davam edən müharibə şəraitində diplomatik əlaqələrini şaxələndirməyə çalışır. Yaxın Şərq ölkələri ilə münasibətlərin inkişaf etdirilməsi Ukraynanın beynəlxalq mövqeyini gücləndirmək və alternativ tərəfdaşlıq platformaları yaratmaq məqsədi daşıyır.

Suriya üçün isə bu görüş beynəlxalq arenada yenidən mövqe qazanmaq baxımından önəmlidir. Uzun illər davam edən münaqişədən sonra Dəməşqin belə yüksək səviyyəli görüşə ev sahibliyi etməsi ölkənin regional diplomatiyada aktivləşdiyini göstərir. Proses Suriyanın beynəlxalq sistemə mərhələli şəkildə reinteqrasiyası istiqamətində atılan addımların davamı kimi qiymətləndirilə bilər. Eyni zamanda, bu cür görüşlər ölkənin siyasi legitimliyinin möhkəmləndirilməsi baxımından da əhəmiyyətlidir.

Üçtərəfli görüş daha geniş geosiyasi kontekstdə də mühüm siqnallar verir. İrəli sürülən təşəbbüs göstərir ki, beynəlxalq münasibətlər sistemi tədricən klassik bloklaşma modelindən uzaqlaşaraq daha çevik və çoxtərəfli əməkdaşlıq formatlarına yönəlir. Regional güclərin təşəbbüskarlığı artdıqca, qlobal problemlərin həllində yeni diplomatik platformalar ön plana çıxır. Belə olan halda, beynəlxalq münasibətlərdə daha inklüziv və balanslı sistemin formalaşmasına zəmin yaranır.

Görüşün yekununda Ukrayna ilə Suriya arasında diplomatik əlaqələrin bərpası istiqamətində mühüm addımların atılması diqqət çəkir. Ukrayna Xarici İşlər Nazirliyinin yaydığı məlumata əsasən, tərəflər yaxın perspektivdə həm Kiyev, həm də Dəməşq şəhərlərində səfirliklərin yenidən fəaliyyətə başlaması barədə razılığa gəliblər. Qərar iki ölkə arasında diplomatik münasibətlərin institusional əsasda bərpasına yönəlmiş strateji addım kimi qiymətləndirilir. Volodimir Zelenski səfirliklərin açılmasını tərəfdaşlığın möhkəmləndirilməsi baxımından vacib və perspektivli mərhələ kimi xarakterizə edib.

Eyni zamanda, tərəflər humanitar və təhsil sahəsində əməkdaşlığı imkanlarını müzakirə ediblər. Xüsusilə qeyd olunub ki, keçmiş dövrlərdə çoxsaylı suriyalı tələbələr Ukraynanın ali təhsil müəssisələrində təhsil alıb və bu ənənənin bərpası iki ölkə arasında ictimai və mədəni əlaqələrin yenidən canlanmasına təkan verə bilər. Görüşdən sonra verilən rəsmi bəyanatlarda tərəflər sülh proseslərinə dəstək, müharibə və münaqişələr nəticəsində dağıdılmış infrastrukturun bərpası üçün birgə layihələrin hazırlanması və regionda sabitliyin təmin olunmasına töhfə vermək niyyətlərini ifadə ediblər. Bu yanaşma göstərir ki, üçtərəfli format, eyni zamanda, konkret iqtisadi və humanitar təşəbbüslərin reallaşdırılmasına yönəlmiş praktik platforma kimi çıxış edir.

*Nəzrin ELDARQIZI*
*XQ*

*Ekspert rəyi*



**Yücel KARAUZ,**
**Türkiyənin Azərbaycandakı keçmiş hərbi attaşesi, ehtiyatda olan general**

Şamda keçirilən Ukrayna–Suriya–Türkiyə görüşü çoxqatlı "geosiyasi körpü quruculuğu" modelinin təzahürüdür. Görüşdə Türkiyənin oynadığı rol xüsusi diqqət çəkir. Ankara eyni vaxtda bir neçə istiqaməti – Rusiya–Ukrayna müharibəsinin yaratdığı kontekst, Suriya daxilində rejim, müxalifət və terror balansı, eləcə də Qərb ilə Şərq blokları arasında həssas tarazlığı idarə etməyə çalışır. Bu isə onu göstərir ki, Türkiyə artıq klassik vasitəçi rolundan çıxaraq çoxsaylı böhranları eyni anda idarə edən modelə doğru irəliləyir. Bu yanaşma daha əvvəl taxıl dəhlizi razılaşması və əsir mübadiləsi kimi proseslərdə də öz effektivliyini göstərib.

Şam görüşünün strateji əhəmiyyəti bir neçə mühüm nəticənin əldə edilməsindədir. Əvvəla, birbaşa dialoq kanalı açılır və normalda bir-biri ilə kommunikasiya qurmayan tərəflər eyni masa arxasında toplanır. Eyni zamanda, etimad quruculuğu prosesi başlayır. Görüş diplomatiyanın artıq Cenevrə və ya Brüssel kimi mərkəzlərlə məhdudlaşmadığını, Ankaranın da yeni diplomatik ox kimi formalaşdığını göstərir.

Modelin qalıcı sülh yaradıb-yaratmayacağı məsələsinə gəldikdə isə təşəbbüslər müharibənin nəzarətsiz genişlənməsinin, tərəflər arasında kommunikasiya qırılmasının qarşısını alır və böhranları idarəolunan səviyyədə saxlayır. Amma bu məsələdə bir neçə əsas şərt mövcuddur. İlk növbədə, böyük güclərin xüsusilə ABŞ və Rusiyanın prosesə açıq və ya gizli şəkildə qarşı çıxmaması vacibdir. Paralel olaraq, sahədə güc balansı qorunmalı, tərəflərdən heç biri tam qələbə hissinə qapılmamalıdır. İqtisadi təşviqlər – yenidənqurma, enerji və ticarət layihələri prosesə əlavə dinamika verməlidir. Nəhayət, davamlılıq təmin olunmalı, bu cür görüşlər ardıcıl diplomatik xəttə çevrilməlidir.

Dünya artıq bloklararası açıq qarşıdurma mərhələsindən vasitəçilər üzərindən idarə olunan rəqabət mərhələsinə keçir. Bu yeni düzəndə Türkiyə ilə yanaşı, Qətər, BƏƏ və Pakistan kimi ölkələr "orta güc diplomatik platformalar" kimi rolunu gücləndirir. Şam görüşü birbaşa sülh yaratmasa da, sülhün mümkün ola biləcəyi zəmini formalaşdırır. Türkiyə isə məhz bu zəminin memarı olmağa çalışır.

# "Risalə"nin növbəti nömrələri



**Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində "Risalə" elmi araşdırmalar jurnalının növbəti nömrələrinin təqdimatı keçirilib.**

Mərasimdə çıxış edən Ədəbiyyat Muzeyinin direktoru, akademik Rafael Hüseynov "Risalə" elmi araşdırmalar jurnalının ayrı-ayrı nömrələrinin təqdimatının ənənəyə çevrildiyini söyləyib. O, ötən il jurnalın daha iki sayının işıq üzü görməsini Azərbaycan elmi-mədəni həyatında əlamətdar hadisə kimi dəyərləndirib.

"Risalə" elmi araşdırmalar jurnalının filologiya və sənətşünaslıq elm sahələri üzrə Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi dövri elmi nəşrlər siyahısında olduğunu bildirən akademik Rafael Hüseynov nəşrin yeni saylarında muzey əməkdaşlarının, elmlər doktorları, fəlsəfə doktorlarının, eləcə də dissertasiya müdafiəsinə hazırlaşan gənc tədqiqatçıların müxtəlif mövzuları ehtiva edən elmi məqalələrinin dərc edildiyini vurğulayıb. Qeyd edib ki, araşdırmaçılar məqalələrində Azərbaycan klassik və müasir ədəbiyyatının bir sıra aktual və az öyrənilmiş problemlərinə yeni görüş bucağından yanaşıblar. Vəsaitdə klassik və müasir Şərq və Azərbaycan ədəbiyyatı, mədəniyyətşünaslığın ayrı-ayrı problemləri ilə əlaqədar 20-dən artıq məqalə yer alıb.

Direktor Ədəbiyyat Muzeyində "Risalə" elmi araşdırmalar jurnalı ilə yanaşı, "Beşlik" – "Qaynaq" mənbələr toplusu, "Şərq" tərcümə toplusu, "Xəzinə" kataloqlar toplusu və "Məclis" mərasimlər toplusunun da dərc edildiyini diqqətə çatdırıb. O, sanballı yazıların, elmi məqalələrin və müxtəlif araşdırmaların toplandığı bu nəşrlərin hər birinin böyük dəyər daşıdığını bildirib.

Akademik Rafael Hüseynov "Risalə" jurnalında dərc olunan məqalələrin elmi əhəmiyyətini qeyd edib, müəlliflərə yaradıcılıq uğurları arzulayıb.

Sonda tədbirdə iştirak edən məqalə müəlliflərinə "Risalə" elmi araşdırmalar jurnalının yeni nömrələri təqdim olunub.

*Q.YUSİFOĞLU*
*XQ*


## BİLDİRİŞ

"ALE Caspian" MMC-nin (VÖEN - 2002637001) müflis elan olunması ilə əlaqədar Bakı Apellyasiya Məhkəməsində 2-2(3-6)-304/2026 saylı iş üzrə məhkəmə baxışı 15 aprel 2026-cı il saat 10.00-a təyin edilmişdir. Debitor və kreditorlar Bakı Apellyasiya Məhkəməsinə müraciət edə bilərlər.

**Ünvan:** AZ1073, Bakı şəhəri, Zahid Xəlilov küçəsi 540-cı məhəllə.

**Əlaqə telefonu:** (012) 510-53-48.

## "Qaradağ Tikinti Materialları" ASC səhmdarlarının nəzərinə!

23 may 2026-cı il saat 11.00-da "Qaradağ Tikinti Materialları" ASC-nin növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** Səhmdar cəmiyyətin 2025-ci ilin maliyyə-təsərrüfat fəaliyyətinin yekunlarının müzakirəsi və təsdiqi.

**2.** Səhmdar cəmiyyətin səhmdarları tərəfindən yeni investorların cəlb edilməsi istiqamətində müvafiq tədbirlərin görülməsi, müzakirələrin aparılması.

**3.** Səhmdar cəmiyyətin fəaliyyətin genişləndirilməsi məqsədilə, gələcəkdə görüləcək işlər barədə müzakirələrin aparılması.

**Ünvan:** Bakı şəhəri, Qaradağ rayonu, Qaradağ Lahmacun kafesi (Salyan şosesi 30 km).

*İdarə heyəti*


# Yaxın Şərq: zərbələr qisas dalğasını gücləndirir

## *Beynəlxalq qurumlar genişmiqyaslı müharibə ehtimalından narahatdır*

**Yaxın Şərqdə baş verən hadisələr regionda hərbi-siyasi qarşıdurmanın kəskin şəkildə dərinləşdiyini göstərir. Artan gərginlik həm hava məkanında insidentlər, həm də strateji obyektlərə yönəlmiş zərbələrlə müşayiət olunur. Eyni zamanda, vasitəçilərin iştirakı ilə atəşkəs təşəbbüsləri gündəmdə qalsa da, tərəflər arasında etimadsızlıq və ziddiyyət güclənməkdədir.**

Beynəlxalq media mövcud proseslərin regionda genişmiqyaslı eskalasiya riskini artırmaqla yanaşı, qlobal enerji təhlükəsizliyi və iqtisadi sabitlik üçün ciddi təhdidlər yaradacağını vurğulayır.

**"Fars Agentliyi":** İran Silahlı Qüvvələri tərəfindən aprelin 5-də ABŞ-ın iki "C-130" hərbi nəqliyyat təyyarəsi və eyni sayda "Black Hawk" helikopteri daxil olmaqla, bir neçə hədəfi vurulub. Rəsmi bəyanata görə, zədələnmiş hərbi hava vasitələri İsfahan vilayətinin cənub istiqamətində yerləşən ərazilərin birinə təcili eniş etmək məcburiyyətində qalıb. Qərargahın iddiasına əsasən, təcili enişdən sonra İran hərbçiləri tərəfindən mühasirəyə alınmış hava vasitələrinə və onların heyətinə elə ABŞ-ın özü tərəfindən havadan zərbə endirilib.

**"The Wall Street Journal":** İran Hörmüz boğazının açılması müqabilində ABŞ-ın müvəqqəti atəşkəs təklifini rədd edib. Nəşrin yazdığına görə, Pakistan, Türkiyə və Misirdən olan vasitəçilər danışıqları irəli aparmağa çalışırlar, lakin Tehran Vaşinqtonun tələblərini qəbuledilməz adlandırıb. İran hesab edir ki, ABŞ hər hansı tələblə çıxış edəcək vəziyyətdə deyil.

Tehran rəsmiləri, həmçinin İslamabadda amerikalı həmkarları ilə birbaşa görüş keçirməkdən imtina ediblər. Bundan öncə ABŞ Prezidenti Donald Tramp Tehrana çərşənbə axşamınadək Hörmüz boğazını açmaq barədə ultimatum



xarakterli tələb irəli sürmüşdü. Əks halda, o, İranın enerji infrastrukturuna zərbələr endirməklə hədələmişdi.

**"Axios":** Birləşmiş Ştatlar və İran 45 günlük mümkün atəşkəs barədə müzakirələr aparır. Nəşrin məlumatına görə, Vaşinqton, Tehran və bir sıra regional vasitəçilər qarşıdurmanın tamamilə başa çatmasına gətirib çıxara biləcək potensial 45 günlük atəşkəsin şərtləri üzərində işləyirlər. Yaxın 48 saat ərzində razılaşmanın əldə olunması ehtimalı böyük deyil, amma bu, İranın mülki infrastrukturuna genişmiqyaslı zərbələri və Fars körfəzi ölkələrində enerji obyektlərinə və su təchizatı sistemlərinə cavab hücumlarını nəzərdə tutan ciddi eskalasiyanın qarşısını almaq üçün yeganə şans ola bilər.

**"Israel Defence Forces":** İsrail Müdafiə Qüvvələri Livanın müxtəlif bölgələrində mülki tikililər arasında yerləşən bir sıra hərbi infrastruktur obyektlərini və silah anbarlarını məhv edib. Məlumata görə, "Hizbullah" qruplaşmasının infrastrukturuna zərbələrin endirilməsi və ön müdafiə xəttinin möhkəmləndirilməsi əməliyyatları çərçivəsində son bir neçə gün ərzində İsrail HHQ raket buraxılış qurğularının və silah anbarlarının aşkarlanması və məhv edilməsi istiqamətində məqsədyönlü əməliyyatlar aparıb.

**"Al Jazeera":** İsrail Müdafiə Qüvvələri (IDF) İranın "Həsən əl-Əmmam" diviziyasının artilleriya komandiri Kamal Malhamı öldürüb. Məlumata görə, "Həsən əl-Əmmam"ın atəşin idarə edilməsinə cavabdeh baş qərargahına zərbələr nəticəsində artilleriya rəisi Kamal Malham, diviziya komandirinin köməkçisi Yəhya Həsən və bir sıra digər yüksək rütbəli hərbçilər öldürülüb.

**"Tasnim":** "ABŞ İran tərəfindən vurulan qırıcının pilotunun xilas edilməsi zamanı İsfahandakı obyektdən İranın zənginləşdirilmiş uranını oğurlamağı hədəfləyə bilərdi". Bu barədə İran Xarici İşlər Nazirliyinin sözçüsü İsmayıl Bəqai deyib: "Bu əməliyyatda çox sayda suallar və qeyri-müəyyənliklər var. Amerikalı pilotun olduğu iddia edilən ərazi onların qoşun yerləşdirmək istədikləri ərazidən çox uzaqdadır. Ola bilsin ki, dezinformasiya əməliyyatı zənginləşdirilmiş uranın oğurlanmasına yönəlib".

**"Times of Israel":** İsrail Müdafiə Ordusu Qəzza zolağında radikal HƏMAS hərəkatı üçün silah qaçaqmalçılığı ilə məşğul olan Əli Əhməd Əli Əmrainin öldürüldüyünü açıqlayıb. Bildirilib ki, Əmrain aprelin 4-də Qəzza zolağının mərkəzi hissəsinə endirilən zərbə nəticəsində öldürülüb.

**"Mehr":** "ABŞ və İsrailin İranın infrastrukturuna endirdiyi zərbələr qlobal iqtisadiyyat üçün dağıdıcı nəticələrə gətirib çıxaracaq". Bunu İranın xarici işlər naziri Abbas Əraqçi fransalı həmkarı Jan-Noel Barro ilə telefon danışığı zamanı bildirib. Onlar son regional hadisələri və Yaxın Şərqdəki gərginliklə bağlı beynəlxalq məsələləri müzakirə ediblər. "Belə bir vəziyyətin nəticələri İran və regionla məhdudlaşmayacaq, qlobal energetikaya və iqtisadiyyata dağıdıcı təsir göstərəcək və bunun məsuliyyəti yalnız Vaşinqtonun üzərinə düşəcək", - deyə Əraqçi bildirib.

**"ABC":** Vaşinqtonun Şimali Atlantika Alyansı üzrə tərəfdaşlarına İrana qarşı hərbi əməliyyata qoşulmaq barədə çağırışı ABŞ rəhbərliyi tərəfindən NATO-nun sınağa çəkilməsindən başqa bir şey deyildir. Bu barədə ABŞ Prezidenti Donald Tramp "ABC" telekanalına müsahibəsində bildirib: "Mən bunu bir sınaq kimi etdim. Buna ehtiyacım yoxdur, elə deyilmi? NATO kağız pələngdir, onların gəmiləri yoxdur, ümumiyyətlə, heç nələri yoxdur".

*Hazırladı:*
*N.BEYDİYEVA*
*XQ*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 57 (31026) 7 aprel 2026-cı il, çərşənbə axşamı

## İDMAN

## Cüdo millimiz Avropa Kubokunda 2-ci olub




**Gəncədə keçirilən cüdo üzrə yeniyetmələr arasında Avropa Kuboku başa çatıb.**

Gəncə İdman Sarayında təşkil olunan beynəlxalq turnirin son günündə daha 8 çəki dərəcəsində qalib və mükafatçılar müəyyənləşib. Azərbaycan cüdoçuları ikinci günü 2 qızıl, 1 gümüş və 8 bürünc olmaqla ümumilikdə 11 medalla başa vurublar.

Yusif Nəzər (73 kq) və Yaqub Məmmədov (81 kq) bütün rəqiblərinə qalib gələrək qızıl medal qazanıblar. Sadiq Məmmədov (73 kq) gümüş medalla kifayətlənib. Bürünc medallara isə Akif Məmmədli (-73 kq), Polad Həsənli, Amin Mehdiyev (hər ikisi 81 kq), Ömər Axundov, Nurəddin Əliyev (hər ikisi 90 kq), Hüseyn Hüseynov, Tamerlan Əliyev (hər ikisi +90 kq) və Məsumə Məmmədli (70 kq) sahib çıxıblar.

Xatırladaq ki, turnirin ilk günündə Rza Xəlilli (55 kq) qızıl medal əldə edib. Fatimə Fərmanzadə (48 kq), Fərid Rzazadə (50 kq), İbrahim Talıbov (55 kq), İlkin Qarayev (66 kq) gümüş, Sunay Salamova (40 kq), Fatimə Abdullayeva (44 kq), Könül Eyvazlı (52 kq), Zəhra Mövləmverdiyeva, Nərmin Ağamirzəzadə (hər ikisi 52 kq), Fərid Xudiyev 55 kq), Mehman Əsgərov (60 kq) və Sənan Piriyev (66 kq) bürünc medala yiyələniblər.

Beləliklə, Azərbaycan millisi Gəncə Avropa Kubokunu ümumilikdə 3 qızıl, 5 gümüş və 16 bürünc olmaqla 24 medalla komanda hesabında 2-ci pillədə tamamlayıb.

## Peşəkar Çövkən Liqasında 3-cü tur



**Peşəkar Çövkən Liqasında 3-cü tura yekun vurulub. Azərbaycan Respublikası Atçılıq Federasiyasından verilən məlumata görə, turun mərkəzi qarşılaşmasında ilk 2 oyunda qalib gəlmiş “Embawood” və “Sərhədçi” komandaları görüşüblər.**

Matç sərhədçilərin 2-1 hesablı qələbəsi ilə yekunlaşıb. Günün digər oyununda “Buta Qolden” “Şamaxı”nın qapısından 5 cavabsız top keçirib. Bazar günü keçirilmiş digər oyunlarda “Zəfər” “Xəzər”i 7-0, “Polad” isə “Omar”ı 3-0 hesabı ilə məğlub edib. “Elit”lə oyuna çıxmadığı üçün “Atilla” klubuna 0-6 hesablı texniki məğlubiyyət verilib.

3 turdan sonra “Polad”, “Sərhədçi” və “Elit” komandaları 9 xalla turnir cədvəlinə başçılıq edirlər. Daha 3 komandanın aktivində 6 xal var.

## Beynəlxalq yelkənli qayıq yarışı



**Sloveniyanın Portoroj şəhərində təşkil edilmiş yelkənli qayıq idman növü üzrə “Sailing Point Easter Regatta 2026” beynəlxalq yarışına yekun vurulub. Azərbaycan Su İdman Növləri Federasiyasının (ASİNF) idmançıları da reqatada təmsil olunub.**

Komandamızın üzvlərindən Kamal Bəşirli “Qızıl” qrupda özünün yaş kateqoriyasında uğurlu nəticə əldə edib. Emel Məmmədli, Furkan Mustafayev və Səma Mansurzadə “Gümüş” qrupda, Amira Bayramova “Bürünc” qrupda, Amin Cəlilzadə isə “Zümrüd” qrupda mübarizə aparıblar.

***Qabil YUSİFOĞLU***
***XQ***

*Sağlamlıq*

# Təbiət zəifləri sınağa çəkir

**Yaz gələndə təbiət yenidən nəfəs almağa başlayır. Torpaq isinib canlanır, ağaclar çiçəklərlə örtülür, hava dəyişir, günəş daha səxavətli olur. İnsan ruhu da bu dəyişikliklərə qoşulur - daha çox gəzmək, açıq havada olmaq, həyatın ritmini yeniləmək istəyir. Lakin bu gözəlliyin fonunda hər kəs eyni rahatlığı hiss etmir. Yaz mövsümü, xüsusilə tənəffüs sistemi xəstəliklərindən və allergiyadan əziyyət çəkən insanlar üçün həm də ciddi sınaq dövrüdür.**





Tibbi statistikaya görə, dünyada əhalinin, təxminən, 20–30 faizi müxtəlif formalı allergiyalardan əziyyət çəkir. Onların əhəmiyyətli bir hissəsində isə bu allergiyalar məhz yaz aylarında – bitkilərin çiçəkləmə dövründə daha qabarıq şəkildə özünü göstərir. Havada polenlərin miqdarının artması bronxial astma və allergik rinit kimi xəstəliklərin kəskinləşməsinə səbəb olur. Bu dövrdə təcili tibbi yardıma müraciətlərin sayında da artım müşahidə edilir.

Məsələ ilə bağlı **allerqoloq-pulmonoloq Rasim Nərimanın** fikirlərini öyrəndik. Həkim bildirdi ki, yazda adətən, çəmən otlarının və tez tozlanan ağacların tozlarına qarşı allergiyası olan insanlarda allergik xəstəliklərin əlamətləri kəskinləşir. Tez tozlanan ağaclara fındıq ağacı, qaraağac, zeytun ağacı, sərv-sərvkimilər aiddir. Eyni zamanda, havada qıcıqlandırıcı hissəciklərin artması ilə yanaşı, yazda evdə və həyətdə (bağlarda, əkin sahələrində) təmizlik işlərinin aparılması da bəzən tənəffüs problemlərinə gətirib çıxarır.

Allergik xəstəliklərdə burun tutulması, asqırma, burundan çoxlu miqdarda şəffaf suyun gəlməsi, yuxu pozğunluğu, gözlərin qaşınması, burunda və gözdə qıcıqlanma, şişmə, ödəmləşmə kimi əlamətlər olur. Bu əlamətlərin havadakı tozun miqdarından asılı olaraq aqressivliyi və ağırlıq dərəcəsi dəyişir.

Adətən, il isti olanda, yəni istilər tez düşəndə, küləkli hava olanda, yağış yağmayanda xəstələrin şikayəti daha tez - hardasa fevralın ikinci yarısından başlayır. Amma hava yağışlı, soyuq olanda, istilik nisbətən gec düşəndə və ya küləkli hava olmasa, küləyin miqdarı az olsa tozlanma gec başlayır deyə xəstələrin şikayəti mart ayının birinci yarısından başlaya bilər. Yəni iki həftəlik aralıqla - iki həftə ya tez, ya gec olmaqla allergik xəstəliyi olan insanlarda allergiyanın əlamətlərinin kəskinləşməsi baş verir”.

Pulmonoloq tövsiyə edir ki, risk qrupuna daxil olan şəxslər profilaktik tədbirlərə xüsusi diqqət yetirməlidirlər: “Bu dövrdə mütləq dərəcədə həmin xəstələr dərman müalicəsi almalı və qorunma qaydalarına riayət eləməlidirlər. Qorunma qaydası ondan ibarətdir ki, səhər saatlarına xüsusi diqqət yetirilməlidir. Bitki tozları adətən səhər saatlarında havanın aşağı hissəsində toplanır. Yəni kondensasiya hadisəsinə görə gün batandan sonra tozların hamısı yerin aşağı hissəsinə, hava təbəqəsinin yerə yaxın hissəsində toplanır. Ona görə də bu xəstələrin əsas şikayətləri səhər saatlarında olur. Günorta saatlarında artıq toz insan boyundan yuxarıya qalxdığına görə şikayətlər nisbətən azalır.

Bu dövrdə pəncərəni gecə açıq qoyub yatmaq məsləhət deyil, çünki pəncərə açıq qaldığı halda toz evə daxil olur. Gündüz saatlarında isə külək əsəndə qapı-pəncərəni bağlı saxlamaq lazımdır. Allergiyası olan insanlar bayıra çıxırsa, işlərini elə planlaşdırmalıdırlar ki, günün ikinci yarısına düşsün. Günün birinci yarısında havada tozların miqdarı çox olduğuna görə xəstələrin şikayəti artır. Küləkli havada imkan daxilində bayıra çıxmasınlar.

Əgər bayıra çıxırlarsa, baş örtüyündən (papaqdan) istifadə etməli, toz birbaşa gözə düşməsin deyə, gün eynəkləri, ağzı-burnu qapayacaq şəkildə maska taxmalıdırlar (bir maskanı 3 saatdan artıq istifadə eləmək olmaz). Toz saçda toplanıb daimi problem yaratmasın deyə evə qayıdan kimi, papağı çıxarmaq və duş qəbul etmək məsləhətdir. Küləkli havada geyilən üst geyimini təkrar yumadan geyinmək arzuolunmazdır. Üst geyimlərini yataq otağından kənar bir yerdə saxlamaq daha yaxşı olar.

Mütəxəssis vurğuladı ki, xəstələr çox vaxt özlərini yaxşı hiss etdikdə dərmanları dayandırırlar. Bu isə səhv yanaşmadır: “Ona görə mütləq dərəcədə həkimlə məsləhətləşib xəstənin vəziyyətinə, ağırlıq dərəcəsinə uyğun dərman müalicəsi təyin olunmalıdır. Bitki tozlarına qarşı allergiyası olan insanlarda problem bitki tozlanması müddətində olur. Elə bitki var ki bir ay, elə bitki var üç ay müddətinə tozlanır. Hər il tozlanma vaxtı həkimə müraciət olunmalı, dərman müalicəsi alınmalı və qorunma qaydalarına riayət olunmalıdır”.

Görünən odur ki, yazın gətirdiyi yenilənmə ilə yanaşı, insan sağlamlığına qarşı məsuliyyət də artmalıdır. Təbiət öz ritmi ilə dəyişir, lakin insan bu dəyişikliklərə hazırlıqlı olmalıdır. Sağlam həyat tərzi, vaxtında tibbi nəzarət və düzgün profilaktika bu gözəl fəslin yaratdığı riskləri minimuma endirə bilər. Yazın nəfəsini hiss etmək hər kəsin haqqıdır. Lakin bu nəfəsin rahat və azad olması üçün sağlamlığımızın keşiyində dayanmaq vacibdir. Çünki həyatın ən sadə, amma ən dəyərli neməti sərbəst nəfəs almaqdır.

***Nurəngiz ADİLQIZI***
***XQ***

# İnsan 56 ildən sonra Aya qayıdır





**NASA-nın “Artemida II” missiyasının 4 astronavtı bazar ertəsi səhər tezdən Ayın cazibə qüvvəsinin təsir dairəsinə daxil olublar.**

“Reuters” agentliyi xəbər verib ki, ötən həftə Floridadan buraxılan “Orion” kapsulunda uçan “Artemida II” heyəti 6-cı uçuş günü Şərq vaxtı ilə saat 10:50 dəqiqədə oyanacaq və saat 19:05-də Yerdən 252 min 757 mil uzaqlığa çatacaqlar. Bu məsafə “Apollon 13” heyətinin 56 illik rekordundan 4 min 102 mil çoxdur.

NASA astronavtları həmin məsafədə Ayın uzaq tərəfində üzəcək və 4 min mil yüksəklikdəki qaranlıq səthdən basketbol topu ölçüsündə görünən Yer kürəsinə baxacaqlar. Bu mərhələ NASA-nın “Artemida” proqramının ilk ekipajlı sınaq uçuşu olan 10 günlük “Artemida II” missiyasının zirvə nöqtəsidir.

Xatırladaq ki, ABŞ-ın milyardlarla dollarlıq missiyalar seriyası astronavtları Çindən əvvəl – 2028-ci ilə qədər Ayın səthinə qaytarmağı və 10 ildə orada ölkənin uzunmüddətli mövcudluğunu təmin etməyi nəzərdə tutur. Bundan əlavə, Marsa gələcək missiyalar üçün sınaq meydançası kimi Ay bazası qurmaq da nəzərdə tutulur.

***XQ***

## HAVA

## Paytaxtda yağmursuz, rayonlarda yağış və dolu...



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gecə bəzi yerlərdə az yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək, səhər mülayim cənub-qərb küləyi ilə əvəzlənəcək.**

Havanın temperaturunun gecə 10-12, gündüz 14-18 dərəcə isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi 763 millimetr civə sütunundan 758 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 70-75, gündüz 60-65 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Əsasən şimal və şərq rayonlarında intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi proqnozlaşdırılır. Axşama doğru yağıntılar tədricən kəsiləcək. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturunun gecə 10-13, gündüz 17-22 dərəcə isti, dağlarda gecə 0-5 dərəcə şaxta, gündüz 8-13 dərəcə isti olacağı bildirilir.

***Q.ƏLİYEV***
***XQ***

✓ ***Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində “KOMPOZİT” Elmi İstehsalat Birliyinə verilmiş qeyri-kommersiya hüquqi şəxsinin dövlət qeydiyyatı haqqında şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.***

✓ ***Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində “KOMPOZİT” Elmi İstehsalat Birliyinə verilmiş qeyri-kommersiya qurumlarının dövlət reyestrindən çıxarışı itdiyi üçün etibarsız sayılır.***

✓ ***Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində “KOMPOZİT” Elmi İstehsalat Birliyinin nizamnaməsi itdiyi üçün etibarsız sayılır.***

**DİREKTOR – BAŞ REDAKTOR**

**ƏFLATUN AMAŞOV**

**T E L E F O N L A R:**
**Reklam və elanlar: 493-82-21**
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

Ü N V A N I M I Z:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3015
SİFARİŞ 459
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mehparə ƏLİYEVA
Çapa imzalanmışdır 00:00